**SURXAY SUBU**

# *Şeytan böhtanları*

# *və*

# *qardaş təəssübkeşliyi*

**"Elm və təhsil"**
**Bakı - 2026**

**Surxay Subu (Surxay Rafiq oğlu Babayev)**
**Şeytan böhtanları və qardaş təəssübkeşliyi.**
**Bakı, ″Elm və təhsil″, 2026, 148 səh.**

**ISBN 978 - 9952 - 37 - 417 - 9**

© Surxay Subu, 2026

# ÖN SÖZ

Azərbaycanın Milli Qəhrəmanı Natiq Səlim oğlu Qasımova həsr olunmuş "Ulduzlaşan Qəhrəman" romanını 2025 - ci ildə çap edib oxucuların ixtiyarına verdim. Lakin, Natiqin itgin düşəndən sonrakı müəmmalı talehinin təsirindən qurtula bilmədim. Natiqin itgin düşməsindən sonra şeytan böhtanların baş alıb getməsi, varlanmağa həris olanların Natiqin sağ olması uydurmaları və Natiq ailəsinə vurulan mənəvi zərbələr məni məcbur etdi ki, əzab və zülmlər görmüş bu başı bəlalı ailəyə ikinci bədii əsər həsr edim.

Kitabın adını "Şeytan böhtanları və qardaş təəssübkeşliyi"qoymaqla, Natiqin böyük qardaşı Nofəl Səlim oğlu Qasımovun Natiq şərəfini qorumaqda, şeytan böhtanlarına qarşı sinəsini sipər etməkdə və qardaş qəhrəmanlığına inanaraq bu yolda təəssübkeşliyini davam etdirib dayanmadan apardığı mücadiləsini qələmə almaq istədim.

Əsərdə cərəyan edən bütün hadisələr Nofəl Qasımovun dilindən söylənilmiş, yaxud internet resurslarına istinad olunmuşdur. Bütün bunlarla bərabər qeyd etmək istərdim ki, hər bir yaradılan bədii əsər əlbəətə ki, müəllif təxəyyülünün məhsuludur.

*Müəllif*

## ŞEYTAN BÖHTANLARI VƏ QARDAŞ TƏƏSSÜBKEŞLİYİ
(*povest*)

Mart ayının ortaları idi. Aramsız yağan yağışın gətirdiyi soyuq və rütubətli hava bütün şəhər əhlisini isti evlərə bənd etmişdi.

Belə ailələrdən biri də narahat günlər keçirən Səlim kişinin ailəsiydi. Bütün ailə ekran qarşısında toplaşıb Xocalıda baş vermiş qətliam anlarını izləmək həsrətinə bulunmuşdu. Səlim kişinin oğlu Natiq belə bir ağır zamanda evdə rahatlıq tapa bilməyib erməni işğalçılarından qisas almaq üçün döyüş bölgəsinə getmiş və bu günə qədər ondan bir xəbər alınmamışdı. Natiqlə bərabər Mingəçevirdən iki cavan da döyüşə yollanmışdı. Onlardan da xəbər - ətər yox idi. Natiq və iki Mingəçevirli cavanlar el arasında Qatır Məmməd, yaxud Ala Yaqub kimi tanınan Yaqub Rzayevin komandirlik etdiyi "Qarabağ şahinləri"könüllü batalyonuna qoşularaq erməni işğalçılarına qarşı döyüşürdülər. Ekran başına toplaşan ailə həm ermənilərin törətdiyi vəhşilikləri lənətləyərək izləyir, həm də Natiq haqqında bir xəbər bilmək istəyirdilər. Ailə üzvləri tez - tez pəncərəyə yaxınlaşıb həmişəki kimi Natiqin vuruşdan sonra evə gələcəyini səbirsizliklə gözləyirdilər. Ailə üzvlərinin gözləri Natiq

yolunu çəksə də, artıq bir həftəyə yaxın olardı ki, ondan səs - soraq gəlmirdi. Ata Səlim kişi və böyük oğul Nofəl evdə var - gəl edərək səbirsizliklərini ailə bilməsin deyə güclə boğurdular. Bu səbirsizlik ailə üzvlərinə elə təsir etmişdi ki, hər dəfə pəncərədən Natiq gələcək yola baxdıqdan sonra əllərini göyə qaldırıb allaha duaçı olanlar həyəcanlı anlar keçirirdilər. Hamının gözlərində bir sual yaranmışdı. Görəsən Natiqimizə nə oldu ki, evimizin yolunu yadırğadı. Səlim kişinin elə bil ki, dalağı sancmışdı. Durub - oturub deyinirdi ki, dilim - ağzım qurusun bəlkə başına bir iş gəlib? Səlim kişi Natiq yoxluğundan məyuslansa da ata narahatlığını hiss edən Nofəl atasına təsəlli olub onu sakitliyə çağırırdı. Ailə üzvləri son anda ata Səlim kişiyə və böyük qardaş Nofələ ümidli olurdular. Bir neçə gün əzablı günlər keçirən Səlim kişi dərin fikirlərə qərq olmuş Nofələ üz tutub bildirdi ki, vaxt itirməyə dəyməz. Natiqin axtarışına günü sabahdan başlamalıyıq. Cavanlığın gümrah vaxtını keçirən Nofəl atasının təklifini qəbul edib, elə gecə ikən axtarışa getməyə hazır olduğunu ərz etdi. Atasının təmkinli baxışlarına diqqət yetirən Nofəl dilləndi: - Ay papa, icazə versən qardaş axtarışını sabaha saxlamarıq. Mən gecəynən Yaqub Rzayevin komandirlik etdiyi "Qarabağ şahinləri" batalyonuna gedib Natiq qardaşımdan bir xəbər öyrənə bilərəm. Səlim kişi boylu - buxunlu Nofəli süzüb, sonra sükut edərək xəyala daldı. Ailənin həsrətli gözləri xəyallarla çarpışan Səlim kişinin verəcə-

yi qərara dikilmişdi. Nəhayət onu dinləyəcək ailə üzvlərinin səbirsizliyinə son qoyub ərz etdi ki, oğul atalarımız elə - belədən deməyib ki, gecənin xeyrindənsə gündüzün şəri yaxşıdır. Zülmət qaranlıq bir yandan, aramsız yağış da bir tərəfdən, görürsənmi bayırda soyuq hava hökm sürür. İnşallah, sabah açılar, hava üzümüzə gülər və biz axtarışımıza başlayarıq. Elə yenicə rahatlanmaq istəyirdilər ki, qəflətən qapı döyüldü. Qapının döyülməsi ailədə bir sevinc yaratdı. Bütün gözlərdə Natiq gəldi, - deyə sevinci görməmək mümkün deyildi. Bu ani sevincdən baxışları toqquşan ata - balanın gözlərində bir sual yaranmışdı. Deyəsən, Natiq gəldi? Sevincdən gözü yaşlanan Səlim kişi cibindəki yaylığı çıxardıb göz yaşını cəld sildi. Nofəl qardaşım gəldi, - deyərək qapıya doğru səmt götürmək istəyirdi ki, Səlim kişinin kəskin və qartal baxışları onu ehtiyatlandırdı. Atanın yaratdığı ailə qanunlarını pozmağa heç kim cəsarət etməzdi. Odur ki, Nofəl bir addım geri çəkildi. Qapını açan Səlim kişi Natiqlə birgə döyüşə gedən Mingəçevirli əsgəri görüb duruxdu. Bir anlıq xəyal onun beynini qatışdırdı. Xeyir ola! Görəsən Natiqə bir xətər olmayıb ki? Əsgər qapıda elə bil mıxlanmışdı. Atasının xəyallaşmasını görən Nofəl əsgərlə xoş - beş edib, onu evə dəvət etdi. Natiqin döyüş yoldaşının qara qanlı olduğu elə ilk dəqiqələrdən sezilirdi. Əsgər sanki, lallanmışdı. Səlim kişi dözmədi. Bala başına dönüm, oğlum Natiqdən bir xəbər gətirmisənsə söylə. Nəhayət əsgər səbirsizliklə

onu əhatəyə alan ailə üzvlərinin sual dolu baxışlarını ani olaraq seyr edib, bu baxışlardan yayınırmış kimi başını aşağı salaraq xəbərini bildirməyi qətiləşdirdi. Biz "Qarabağ şahinləri" döyüşçüləri Natiq də içərimizdə olmaqla otuz bir nəfər Xramort yüksəkliyini erməni quldurlarından təmizləyib, müdafiə olunmaq üçün ermənilərin kilsə adlandırdıqları Alban məbədinə sığındıq. Ermənilərlə şiddətli müdafiə döyüşləri apardıq. Çox təəssüflər olsun ki, döyüşdə həlak olanlarımız, fürsət tapıb kömək üçün Ağdama gedənlərimiz və əsir düşənlərimiz oldu. Əsgər sanki Natiq ailəsi üçün dəhşətli bir səhnə yaradırdı. Səlim kişi yenə dözmədi. Oğlum, de görüm balama bir xətər olubmu?Atanın sualı əsgəri qətiləşməyə vadar etdi. Dediyim kimi, əsgərlərimizdən əsir düşənlərimiz də oldu. Əsir düşənlərdən biri də Natiq idi. Ermənilər əsirlərə olmazın əzablarını versələr də, Natiqi incitmədilər. Əsgəri dinləyən ailənin baxışlarında məyusluqla bərabər, sevinc işartısını görməmək mümkün deyildi. Deməli sağdır, - deyə Səlim kişi dilləndi. Çalışıb onu əsirlikdən qurtarmaq olar, - deyə Səlim kişi təsəllilləndi. Özbaşına əsir düşməyib ki, döyüşərək əsir olub. Səlim kişini dinləyən və ailənin xəyallarına sonluq verən əsgər bildirdi ki, ermənilər Natiqi özlərininki kimi qəbul etdiklərindən onu incitməkdən vaz keçmişdilər. Nofəl əsgərin "özlərininki" ifadəsindən ani partladı. Nə danışdığının fərqindəsənmi?! Necə yəni özlərininki kimi qəbul ediblər? Əsgər uca boylu Nofəlin önündə kiçi-

lirmiş kimi, çılız bir səslə bildirdi ki, mən olmuşları deyirəm. Natiq erməni silahlılarına anasının erməni olduğunu bildirdikdən sonra onu ermənilər incitmədilər. Bununla da Natiq canını erməni zülmündən qurtarmış oldu. Səlim kişi, oğlu Nofəl ayaq üstə qurumuşdular. Səlim kişi məğrur baxışları ilə xəbər gətirən əsgəri xeyli süzüb bağırdı. Nə danışırsan ay bala!? Natiq elə bir oğul deyil ki, anası haqqında belə bir yaramazlığa getsin. Natiq yalandan anasını erməni etməz! O, ölümə gedər, belə bir şərəfsizliyə yol verməz!Üzünü tər bürümüş əsgər sanki verdiyi xəbərə görə peşmançılıq çəkirdi. O, utancdan tər tökən başını qaldırıb Natiq ailəsinin məğrur baxışlarını seyr etməyə belə cəsarət etmirdi. Üz - gözünü tər bürümüş əsgər xəcil olmuşdu. Üz - gözünün tərini yalın əlləri ilə silib, onun üçün açılmış və hələ bağlanmamış qapını xəcalətdən çıxış yeri bilərək, xudahafisləşmədən evi tərk etmiş oldu. O müdhiş gecəni narahatlıqla keçirən Səlim kişini əsgərin yaramaz xəbəri keçmişin xəyalına aparmışdı. Yadına gəlirdi ki, qonşu kənddən sevib - seçdiyi Dursun xanım əsil Azərbaycanlı xanımı kimi illərlə onun ömür sirdaşı olmuşdu. Nəinki Dursun xanımın doğulub böyüdüyü kənddə, bütün rayonda axtarsan belə erməni izinə rast gəlməzsən. Bu əsgər niyə belə araqarışdıran xəbər gətirsin? Dərdi nədir bu əsgərin! Dilim - ağzım qurusun, bəlkə əsgər düz deyir. Yəqin əsir düşdüyündən yanlış ifadə verməklə xilas olmaq üçün belə edib. Yox, Natiq belə hərəkətə yol verməz.

Hər halda bu xəbəri ömür yoldaşım Dursun xanımdan gizlətmək lazım gələcək. Əgər, Dursun xanım bu xəbəri eşitsə ürəyi dözməz. Səhər açılsın Nofələ də xəbər edim ki, bu barədə ağzından söz qaçırmasın. Əsgərin bəd xəbəri Nofəlin də yuxusunu qaçırmışdı. O, inanmaq belə istəmirdi ki, yaxşı tanıdığı qardaşı əsir düşüb anasının adını hallandırsın. Səlim ailəsi məyusluq keçirərək bütün gecənin həyəcanlarını yaşayıb, səhərə yaxın yuxuya getdilər.

Gecənin zülməti bir yandan, əsgərin gətirdiyi acı xəbərin yaratdığı zülmət ailəni acınacaqlı duruma salmışdı. Qanı qaralmış, üz - gözündən qəzəb yağan atasının məyus halına dözməyən Nofəl ərz etdi ki, mən bu əsgərin xəbərinə inanmıram. Natiqin əsir düşməyi, üstəlik anasını erməni kimi qələmə verməyi başdan ayağa ağ yalandır. Sən onun danışığına bir fikir verərdin. Danışığı ürəkdən deyildi, danışığında dil dolaşıqlığı hiss olunurdu. Dil dolaşıqlığı ondan xəbər verir ki, sanki o nə isə düzüb qoşmaq istəyirdi. Oğlunun inamına haqq qazandıran Səlim kişi, şübhələrlə qovrulduğunu dilinə gətirib ərz etdi ki, ay oğul can şirin şeydir. Nə bilirsən Natiq hansı səbəbdən belə bir yarıtmaz işə qol qoyub. Yox, ay papa. Vallah Natiq belə bir şərəfsiz cəfəngiyyata getməz. Əgər, belə bir işə qol qoyubsa, deməli əsirlikdən qurtulmaq üçün nə isə düşünüb. Səlim kişinin əsəbindən sifət əzələsi səyriyirdi. Ay bala, anasını erməni etməklə əsirlikdən qurtulmaq heç də ləyaqətli bir dü-

şüncə deyil. Bu düzdür papa. Ancaq, məndə, sən də Natiqi çox yaxşı tanıyırıq axı. Yadındadır Natiqi tənbeh etmək üçün qapını bağlayıb evdə tənha saxlamaqla cəza vermək istəyirdin. Natiq nə etdi? Yataq üzlərini bir - birinə bağlayıb dördüncü mərtəbənin pəncərəsindən düşərək getmişdi. Natiqin bu hərəkətindən sonra bir daha ona cəza verməkdən çəkindin. Yaxud, həyətdə oynayarkən yıxılıb çənəsini əzmişdi. Çənə sümüyü görsənirdi. Həkimin dərini tikmək üçün keyidici iynə vurmasına Natiq razı olmamışdı. Həkim iynəsiz - filansız çənə dərisini tikəndə, heç Natiq uf da demədi. Natiqin bu dözümlülüyünə həkim məətəl qalmışdı. Natiq voleybol həvəskarı idi. Voleybol oynayanda qolunun sümüyünü sındırmışdı. Həkimlər sümük sınığını gipsə qoyanda Natiqin dözümlülüyünə təəccüb qalmışdılar. Qolu gipsdə olanda, bir gün belə gipsə dözmədi. Gipsi kəsib sınıq qolu ilə voleybol oynamağa getmişdi. Erməni əclafları cəza vermək üçün Natiqin sümüyünə belə yerisəydilər, o dünyasında anasını erməni kimi qələmə verib, milli heysiyyətini erməni ayaqları altına atmazdı. Natiq uşaqlığının dəcəlliyindən və bu dəcəlliyin dözümlülüyündən hekayə kimi danışan Nofəl atasının keçmiş xəyallara qapılmasına səbəb yaratmışdı. Yadına gəlirdi ki, Natiqi tənbeh etmək üçün evə salıb qapını açarla bağlasa da, oğlu pəncərəni açıb döşək üzlərini bir - birinə bağlayaraq sallaşıb evi tərk etmişdi. Natiqin bu inadkarlığı onu cəzadan çəkindirmişdi. Gerçək xəyaldan ayrılan Sə-

lim kişi, handan - hana dilə gəlib dedi: - nə deyirəm ay oğul. Taki sən deyən olaydı. Əsgərin dedikləri bir yana, ancaq biz axtarışlarımızı davam etdirməliyik. Natiqin əsir düşüb anası haqqında cəfəngiyyat danışmasını ictimailəşdirmək bizə yaramaz. Bir də ki, oğlum əsgərin gətirdiyi bu bəd xəbəri anana deməyəsən ha?!Sən məndən yaxşı bilirsən ananın xasiyyətini. Bu acı xəbərə anan dözməz. Oğlunun əsəb içində qıvrıldığını görən Səlim kişi ona təsəlli verərək bildirdi ki, bir heylə sənəd - sübutumuz ola - ola, el - obamızın bizi yaxşı tanıdığını bilə - bilə heç kim bizim milli heysiyyətimizi ayaq altına ala bilməz. Sən deməli mən də bu xəbər gətirən əsgərə heç inanmadım. İki günlük götür - qoydan sonra ata - bala qərara aldılar ki, martın 14 - ü sübh səhərdən Ağdama yola düşsünlər.  O müdhiş gecəni ilan vuran yatdı, nə Səlim kişi, nə də Nofəl yata bilmədilər. Əsgərin Natiq barədə cəfəng xəbərini fikir ümmanından keçirən ata, görəsən Natiq balam haradadır? - deyə dərdləndi. Beyni və ürəyi allaha duaçı idi. Bir allah balama yar olsun! - deyib yerində sola - sağa çevrilərək gecəsini sübhə çatdırdı.

Pəncərədən evə düşən cüzi işığı görüb günümüz aydın olsun, xoş xəbərlər eşidək deyərək Ağdama getməli olacaq Səlim kişi və Nofəl oyanaraq yola hazırlaşmalı oldular. Ata - bala bir qismət səhər çörəyini nuş edib, yolçu yolda gərək deyərək Ağdam şəhərinə yola düşdülər. Ağdama çatan ata - bala şəhər insanlarının

pərişanlığını görüb məyuslandılar. Hər tində, hər küçə başında dəstə şəklində yığışan insanlar Xocalı qətliamı haqqında danışırdılar. Şəhər əhalisinin əksəri erməni qaniçənlərin zalımlığına qeyzlənir və azğın düşmənlərdən qisas almaq üçün döyüşə qatılmaq istəyirdilər. Şəhərdə əsgəri hissələrin döyüşə hazırlığı hiss olunurdu. Yerli əhalidən tutmuş yaxınlarını, əzizlərini, əsir və itgin düşmüşlərini axtarmaq istəyənlər Ağdamın igid oğlu Allahverdi Bağırovun hünərindən, neçə - neçə insanları əsirlikdən xilas etməsindən ağız dolusu danışırdılar. Xeyli Xocalı əsirlərini cəllad ermənilərdən xilas etməsini, həlak olanların nəşinin Ağdam məscidinə gətirilməsini təmin edən komandir Allahverdi Bağırovun mərdliyi, cəsarəti, düşmən qarşısında şir kimi dayanması əhali arasında təqdir olunurdu. Yaxınlarını axtarmaq üçün Ağdama buyuranlar Allahverdi Bağırova ümidlə baxırdılar. Allahverdi Bağırov yaxınlarını axtaranlar üçün əsil ümid yeri, təsəlli idi. Ata - bala belə qərarlaşdılar ki, Allahverdi Bağırovun köməyinə müraciət etsələr Natiq barədə nə isə öyrənmək mümkün olar. Xeyli mühafizəçilərin müşaiyyət etdiyi Allahverdi Bağırovla görüşmək müşgül məsələ olduğundan, Səlim kişinin təklifi ilə Natiqin vuruşduğu "Qarabağ şahinləri"könüllü dəstəsinin komandiri Yaqub Rzayevlə görüşməyi qərarlaşdırdılar. Bir neçə saatdan sonra ata - bala "Qarabağ şahinləri"dəstəsinin yerləşdiyi məkana gəlib komandir Yaqub Rzayevlə görüşmək istədiklərini bildirdilər. Lakin, ko-

mandirin döyüş bölgəsinə getdiyini öyrənib gözləməli oldular. Bir azdan mühafizəçilər əhatəsində qara saqqallı, qıvrım saçlı, orta boylu və üz cizgilərində müharibə dəhşətlərini əks etdirən qaş - qabaqlı, xalq arasında Qatır Məmməd kimi tanınan Yaqub Rzayev buyurmuş oldu. Səlim kişi və Nofəl əzizləri Natiqin axtarışı ilə əlaqədar onunla görüşmək istədiklərini ərz etdilər. Sifətində qəmginlik ifadə olunan komandir Yaqub Rzayev Səlim kişini və Nofəli məlum etdi ki, Xramort yüksəkliyini qəhrəmanlıq edərək ələ keçirən "Qarabağ şahinləri"döyüşçüləri Xramort yaxınlığındakı ermənilərin kilsə adlandırdıqları Alban məbədində yerləşərək ermənilərə qarşı müdafiə döyüşünə girişmişlər. Lakin, düşmən tərəfi çoxluq təşkil etdiyindən həlak olanlarımız və əsir düşənlərimiz olub. Natiq və bir neçə döyüşçülərimizdən hələ ki, ümidverici bir xəbər əldə etməmişik. Səlim kişi qəmgin halda xırıltılı bir səslə komandirdən soruşdu ki, itgin düşənlərin heç olmasa axtarışı aparılırmı?

- Əlbəətə aparılır! - deyə Komandir Yaqub Rzayev əlləri ilə qara saqqalını daradı.

Axtarışımızın nəticəsini sizlərə bildirmək komandir olaraq vəzifə borcumuz hesab edirik. Komandirin cavabını qəbul edən və axtarışın nəticəsiz olduğunu anlayan ata - bala kor - peşman geri qayıdıb ümid etdikləri Allahverdi Bağırovla görüşməyi nəzərə aldılar. Ağdamda yeni canlanma hiss olunurdu. Erməni - rus cəlladlarından canlarını qurtaran xeyli Xocalı didərginləri yerli

əhali tərəfindən sığınacaqlara yerləşdirilir, içərilərində xeyli yaralı olduğundan sanitar işçiləri tərəfindən müalicə tədbirləri həyata keçirilirdi. Xocalı didərginləri erməni cəlladlarının əli yalın olan əhaliyə zor tərbiq etmələrindən ürək yanğısı ilə danışırdılar. Acınacaqlı mənzərədən təsirlənən ata - bala Allahverdi Bağırovun iqamətgahına pənah aparsalar da, mühafizəçiləri tərəfindən addım - addım qorunan komandir Allahverdi Bağırova yaxınlıq etmək müşkül məsələ olurdu. Əzizlərini və yaxınlarını itirmiş insanlar komandirlə görüşə can atırdilar. Yalvarış sədaları ərşə çəkilmişdi. Xeyli yorğunluq keçirən atası Səlim kişini xudmani bir yerdə dincini almağa məcbur edən Nofəl bir müddətdən sonra Allahverdi Bağırovla görüşməli oldu. Çöhrəsindən nur yağan, tək - tək ağaran qara şəvə saqqalı sinəsinə qədər uzanmış, uzun boylu, vüqarlı komandir Allahverdi Bağırov Nofəldən Xramort döyüşlərində vuruşmuş hərbçi və itgin düşmüş qardaşı barədə məlumat alıb bildirdi ki, Ağdam məscidinə xeyli hərbçi nəşi təhvil vermişik. Hələ ki, gec deyil məscidə baş çək. Bəlkə qardaşının nəşini tapmış oldun. Əgər, həlak olanların içərisində qardaşın olmasa, yenidən gəl görək qardaşın haqqında ermənilərdən nə məlumat ala bilərik. Komandirə minnətdarlıq edən Nofəl atasına tərəf səmtlənib əmisi oğlu Çingizi də görüb ruhlandı. Çingiz Moskvada yaşayırdı və Natiqin itgin düşməsini eşidib dözməyərək köməklik üçün Ağdama gəlmişdi. Atası Səlim kişinin sual dolu

baxışlarına diqqət edən Nofəl bildirdi ki, Allahverdi Bağırovla görüşə bilib. Ağdam məscidinə xeyli hərbçi nəşi gətirilib. Təklif etdi ki, məscidə baş çək. Bəlkə qardaşından bir nişanə tapdın. Əgər həlak olan hərbçilər arasında qardaşınız tapılmasa, yenidən gəlib qardaşınız haqqında məlumat verərsiniz. Mən qardaşınızın axtarıb tapılmasına çalışacam. Ata - bala və əmioğlu Ağdam məscidinə səmtlənib, məscid qapısında xeyli insanların məşəqqət çəkdiklərinin şahidi oldular. Nofəl atasının qəmginlikdən pisləşəcəyini anladığından əmisi oğlu Çingizlə məscidə daxil olmağa qərar verdi. Məscidə daxil olan Nofəl və Çingiz həqarət edilmiş əsgər nəşlərini görüb dəhşətləndilər. İlahi bu nə dəhşətli bir mənzərədir! - deyə Çingiz diksindi. Nofəl qardaş axtarışına başladı. Hansı əsgər nəşinə əl vururdu erməni cəlladlarının insan qanına susamış vəhşiliyinin şahidi olurdu. Kiminin ağız - burnu kəsilib, kiminin qolu, yaxud qıçası doğranıb, gözləri çıxarılıb, başının dərisi soyulub, başı kəsilib. Qardaş axtarışını aparan Nofəlin ürəyində iki hiss baş qaldırmışdı. Birinci hiss gördüyü dəhşətli mənzərə ilə bağlı idi. Elə hey düşünürdü ay allah necə ola ki, qardaşımı bu vəziyyətdə görməyəm. İkinci bir hiss deyirdi ki, nəşi tapılsa heç olmasa qardaş qəbiri olar və ziyarət edərik. Ən dəhşətlisi o idi ki, qardaşdan heç bir xəbər - ətər olmasın. Hərdən də ümidlənirdi ki, xəbər - ətər yoxdusa deməli sağdır. Nə vaxtsa evimizə qayıdacaq. Dəhşətli mənzərədən ürpənən Nofəl bir yanmış hərbçi-

nin qardaşına oxşarlığını görüb göz yaşını saxlaya bilmədi. Yadına düşdü ki, Natiqin sinəsində "Ana" sözü həkk olunmuşdu. Demək olar ki, tamamilə yanmış hərbiçinin sinəsini açıb, yanmış sinədə "Ana" həkkini görməyib ümidləndi ki, mənim qardaşım mütləq ki, sağ olmalıdır. Məsciddən çıxan Nofəl və Çingiz Səlim kişinin narahat baxışlarına baxıb, başının tərpəntisi ilə qardaşının tapılmadığını anlatdı. Son ümidləri olan komandir Allahverdi Bağırovun məkanına üz tutdular. Yenə də xeyli insanlar mühafizə əhatəsində olan komandirdən yaxınlarının xilası üçün xahişlər edirdilər. Xeyli insan toplusunu görən Nofəl təklif etdi ki, atası və əmisi oğlu Çingiz Mingəçevirə qayıtsalar pis olmaz. Atası yorğun görsənir, Çingiz isə uzaq yoldan gəlibdir. Nofəl komandirlə görüşüb evə qayıdacağını ərz edərək yeni görüş məqamına gəldi. Nəhayət xeyli bir müddətdən sonra Allahverdi Bağırovla görüşən Nofəl məsciddə həlak olanların nəşi içərisində qardaşının tapılmadığını bildirib, sual dolu ümidli baxışlarını komandirə dikdi. Allahverdi Bağırov hərbi kitelin döş cibindən dəftərçəsini çıxarıb Natiq haqqında olan bütün məlumatları qeydiyyata saldı. Komandirə minnətdarlıq edən Nofəl xudahafisləşmək ərəfəsində ikən, Allahverdi Bağırov ona bir həftə müddətində axtarışın nəticəsi barədə gəlməyi lazım bildi. Komandirdən ayrılan Nofəl qardaşının tapılacağı ümidi ilə, özündə bir daxili yüngüllük hiss edib Mingəçevirə yola düşdü. Evinə qayıdan Nofəli sanki qardaşı

Natiqin gəlişini gözləyirmiş kimi qarşıladılar. Allahverdi Bağırovla olan ümidverici görüşünü evdə danışıb, məscidddə həlak olanların nəşi içərisində qardaş axtarışı barədə susmağı lazım bildi. Nofəl belə qərara gəldi ki, bu barədə ailəyə heç bir məlumat verməsin. Natiqin itgin düşməsi Səlim ailəsinin hər gününü qəm və kədərə salmışdı.

Ataların bir məsəli var. Yalan ayaq tutar, ancaq yeriməz. Natiqlə bir dəstədə vuruşan əsgərin gətirdiyi həqiqətə uyğun olmayan xəbər az da olsa şəhərdə yayılmağa başlamışdı. Tanış - bilişlərin Səlim ailəsinə şübhələrlə yanaşması, deyəsən yalanın ayaq tutub yeriməsindən xəbər verirdi. Bizə qarşı olan bu ögey münasibətlər narahatçılığımıza səbəb yaratsa da, mən bir qardaş olaraq Natiqin xarakterinə yaxından bələd idim, - deyə Nofəl dillənir. Natiq canından keçməyə razı olardı, nəinki anasının milli heysiyyətini düşmən ermənilərin ayaqlarına atardı. O, kiniteatrda kinomexanik işləyəndə baxdığı filmlərdə qəhrəmanlığı alqışlayar və özü də daxilən qəhrəmana çevrilərdi. Natiq həddindən artıq vətənini sevən bir vətənpərvər olaraq satqınçılığın, namərdliyin, şeytançılığın əsil düşməni idi. Bəli, qarşıdan Novruz gəlir. Hamı yazın gəlişini bayram edir. İl təzələnirdi. Ancaq, Natiq dərdi bizi sıxdığından qəlbimiz təzələnmədi. Şənlənmədik. Bayramı da keçirə bilmədik.

Novruz bayramından bir həftə olardı ki, keçmişdi. Mart ayının axırı olardı. Bu bir həftə ərzində məyusluq

keçirən ailəmiz Natiq dərdindən elə solğunlaşmışdılar ki, sanki qəlbləri ilə soyuq qış keçirənlər olaraq yenilənən təbiəti qəbul etmək istəmirdilər. Oğul dərdi qara daş olaraq ata sinəsindən asılıb qəddini əymişdi. Qardaş dərdi mənim də bütün rahatlığımı əlimdən almışdı. Gecə - gündüz xəyallarımda ancaq, Natiqi axtarırdım. Elə bir ruh dəyişkənliyi məni bürümüşdü ki, özüm - özümü anlaya bilmirdim. Bəzən daxilən Natiqin ölümünə inanmadığımı ürəyimlə - beynimlə təsdiq edirdim və bu zaman ruhum məni nikbinləşdirirdi. Elə ki, ailə məyusluğunu görürdüm ruhum məni bədbinliyə sürükləyirdi. Axır bir həftədə atam çox dözümsüz olmuşdu, elə bil günləri sayırdı. Ay bala, Nofəl bəs Ağdam igidi Allahverdi komandir sənə deməmişdi bir həftəyə gəl. İndi həftə bitibdir. Bir getsənə əsirləri erməni caynağından qurtaran o xilaskar komandirin yanına. Bəli, atamın oğul harayını başa düşürdüm. Odur ki, yolçu yolda gərək deyib, ayaqqabımın bağlarını bərkidərək Ağdama yola düşdüm. Allahverdi Bağırovun yerləşdiyi məkana çatanda, yaxınlarını axtaranların yalvarışlarını və mühafizəçilərlə əhatə olunmuş uca boylu Allahverdi Bağırovun qara saqqalla əhatə olunmuş nurlu simasını gördüm. Daxilimdə yaranmış nikbinliyimlə kifayətlənməli oldum. Məndə elə bir nikbin hiss yaranmışdı ki, sanki qardaşımla görüşəcəyimə inamlı olmuşdum. Yaxın bir məsafədə durub komandirlə görüşəcəyim anı gözləyirdim. Gözlərim komandirin nurlu simasından asılı qal-

mışdı. Və mənə elə gəlirdi ki, komandir yüz adamın içindən məni görür. Birdən komandirin əlinin mənə tuşlandığını duydum. Bəli, o nurani insan məni yanına çağırırdı. Elə bil kütlə bunu duymuşdu. Hamı mənə yol verirdi. Nəhayət mən özümdən asılı olmayaraq komandirə yaxınlaşıb onu qucaqladım. Onun nurani simasına diqqət edib, xəbərin olduğunu duydum. Həyəcanlıydım. Görəsən komandir mənə nə xəbər gətirib? Sual dolu gözlərimi ona dikdim. Komandir hüznlə mənə bildirdi ki, mən onu axtarmayım. O, həyatda yoxdur. Bərk tutulmuşdum. Mən komandiri anlamaqda çətinlik hiss edirdim. Görünür komandir də məni anlamışdı. Mən allahın heyvanı olan erməni səhra komandiri Vitali ilə sənin qardaşın barədə danışdım. O, çox soyuqqanlı olaraq bildirdi ki, biz onu qətlə yetirdik. O, sağ deyil. Ondan qətlə yetirilib harda dəfn edildiyi hərbiçi Natiqin nəşini tələb etdim ki, heç olmasa yaxınları onun nəşini dəfn edib, ziyarət etsinlər. O, daha soyuqqanlı olaraq bildirdi ki, o mənim xeyli əsgərlərimi məhv edibdir. Biz isə onu ağaca bağlayıb diri - diri yandırdıq və külünü havaya sovurduq. Onun heç külünü də tapmaq olmaz. Allahverdi Bağırovun söylədiyi acınacaqlı qardaş ölümü, məni ayaq üstə öldürmüşdü. Özümdə deyildim. Nə vaxt o nurani insandan ayrıldığımı belə hiss etmədim. Qardaşımın dəhşətli ölümünə inanmaq istəmirdim. Daxilimdən bir səs gəlirdi ki, ortada heç bir fakt və sübut olmadığı halda niyə mən ölümlə razılaşmalıyam. O,

mənim tanıdığım qardaşımdırsa ölümünə inanmaram. O, sağdır. Nə vaxtsa qayıdacaq. Elə bu ziddiyyətli xəyallarımla Mingəçevirə, - evimizə qayıtdım. Allahverdi Bağırovla olan söhbətimi və onun acı xəbərini atama danışdım. Anama bu xəbəri vermək onu diri - diri məhv etmək olardı. Atam elə güclü əsəb keçirirdi ki, bu əsəbdən başı əsməcə tutmuşdu. Bircə onu deyə bildi ki, ax mənim zülmlə olən oğlum!Qürurlu atamın gözləri dolmuşdu. Ata qəmi məni də göz yaşı içərisində boğmuşdu. Atam, bir ailə sahibi olaraq təsəllisini oğlunun xeyli erməni qırması ilə tapıb, çətin də olsa dolmuş gözlərini əli ilə silə bildi. Bu təsəllidən mən də ürəkləndim. Atamı qucaqlayıb dedim: - papa əgər qardaşım xeyli erməni qırıbsa, deməli ölməyib. Ürəyimə damıb ki, qardaşım sağdır. Bir də ki, ortada bir sübut yoxdursa niyə inanmalıyıq ki, qardaşım ölüb. Allahımız Allahverdi Bağırovun ömrünü uzun etsin! O, erməni cəlladı Vitodan öyrəndiyini mənə dedi. Ancaq, inanıram ki, qardaşım sağdır. Görərsiz, bir gün Natiq qayıdacaq.

Bu minvalla mart ayını ağrı - acılarla başa vurub, aprel ayına qədəm qoyduq. Ətrafımızda olanların ögey münasibətləri bizi içərimizdən qırsa da, qardaşımın sağ olması nikbinliyi ilə yaşayırdıq. Havalar istiliyə doğru gedirdi. Gözümüz yollarda, narahat qəlbimiz isə Natiq axtarışında idi. Ancaq, Natiqdən xəbər - ətər olmadığından hövsələsiz olmuşduq. Bir gün atam dözməyib bildirdi ki, daha dözə bilmir. Qətiləşdi ki, Ala Yaqubun

yanına gedib oğlu haqqında bir xəbər öyrənəcək. Mən atama Ala Yaqubla görüşə getməməyi xahiş etsəm də, atam fikrindən dönmədi. Atam sübh səhər yola düşdü ki, bu da məni bərk narahat etdi. O gün mənə aya - ilə bərabər oldu. Axşama yaxın atam qayıtdı. Qəzəbindən üzü qanla örtülmüş atamın yanağına bir çırtma vursaydın qan sellənərdi. Yorğun gəlmiş atamın qəzəbli simasını görən ailəmiz masaya isti xörək qoyub yeməyə dəvət etsə də, oturmadı və xörəyə də əl vurmadı. Birdən əlini mənə tərəf uzadıb hirslə dedi: - bu da sənin igidliyinə inandığın qardaşın!Bizim başımızı yerə soxub!Dözmədim. Ay papa, bir açıqla görək nə baş verib ki, bizim başımız aşağı olsun. Nə baş verməlidi ki? - deyə atam bağırdı. Ala Yaqub mənə nə desə yaxşıdı. Səlim kişi oğlundan narahat olma. Erməni qohumları ilə konyak vurur, kefdədi. Mən onu sübutsuz olaraq yalan danışmaqda ittiham edəndə, bilirsən o mənə nə dedi.  Get "Oqonyok"jurnalını tap və oğlunun ermənilərlə kefdə - damaqda olan şəkilinə bax. Onda görəcəksən mən dediklərim yalandır, yoxsa doğrudur. Qəzəb məni elə hala salmışdı ki, Yaqub Rzayevdən necə ayrıldığımı bilmədim. Bütün yol boyu partlaya - partlaya gəlmişəm. Bizi el içində tamam biabır etdi Natiq!Başımızı yerə soxdu!Əsgər yoldaşı gəldi, əsir düşən Natiqin anasını erməni etməsi xəbərini eşitdik. İndi də, Natiqin komandiri Ala Yaqub Natiqin erməni qohumları ilə konyak vurmasını bizə xəbərləyir. Atamın qəzəb dolu odlu - alovlu

danışığına sakitlik gətirmək üçün dedim: - ay papa, Ala Yaqub demir ki, rusların "Oqonyok" jurnalında Natiqin ermənilərlə birgə konyak vuran şəkili çıxıb. Mən "Oqonyok" jurnalını taparam görək Ala Yaqubun dedikləri doğrudurmu? Əgər Ala Yaqubun dedikləri düz çıxsa, gərək biz ölüb - itək! - deyə atam bağırdı. Atamın qəzəbli baxışlarına dözməyib tez evdən çıxdım. Mingəçevirdə müxtəlif rus dilli millətlər yaşayırdı. "Oqonyok" jurnalı poçta gəlirdi və bildiyim qədər rus dillilər bu jurnala abunəçi idilər. Birinci poçta getməyi qərarlaşdırdım. Yolun ortasında xoşagəlməz bir fikir məni ağuşuna aldı. Hə, deyək ki, jurnalı tapdım. Yaqub Rzayevin dedikləri düz çıxdı. Onda mən nə etməli olacam?Atam deməli, bu camaat arasında biabır olmalıyıq, yoxsa ölüb itməliyik. Bəlkə Ala Yaqub yanlışlıq edir. Bir bölük dəstənin komandiridir. Vuruş haqqında düşünür, yəqin vuruşan dəstənin dərdi - qəmini də çəkir. Onun komandir olaraq könüllü dəstə yaradıb erməni quldurları ilə döyüş meydanına atılması, bu vuruşda oğlu Canpoladı itirməsi əsil ata vətənpərvərliyi deyilmi?!Oğlu Canpoladın Xocalı döyüşlərində həlak olmasını eşidən Yaqub Rzayev nə demişdi? "Allah rəhmət eləsin. Mən döyüş meydanını qoyub dəfnə gedə bilmərəm. Buradakıların hamısı mənim oğlumdur. Siz dəfn eliyin qayıdın. "İndi belə bir ataya inanmamaq hörmətsizlik olmazmı? Əgər Komandir haqq desə biz ailəlikcə biabır olacağıq. Birdən ağlıma qara bir fikir gəldi. Bir iyirmi litrlik benzin

bakı tapıb, benzin doldurma məntəqəsinə doğru səmtləndim. Bir bak benzini gətirib gizlətdim. Qərarım qəti idi. Ölmək ölməkdir, xırıldamaq bizə yaraşmaz. Əgər, "Oqonyok" jurnalında deyilənlər düz çıxsa yaşamağa haqqımız olmayacaq. Benzini töküb, od vurub ailəlikcə yanaraq ölməliyik. Nəinki, camaat içərisində gündə yüz dəfə ölüb - dirilməliyik. Poçtun bağlanmasına az vaxt qalmışdı. Özümü poçt idarəsinə çatdırıb, işçidən "Oqonyok"jurnalının yeni çıxan nömrəsini soruşdum. Xanım bildirdi ki, onlar jurnalın 14 - cü, 15 - ci nömrələrini alaraq abunəçilərə çatdırıblar. Biz poçt idarəsi olaraq jurnal və qəzetləri özümüzdə saxlamırıq. Jurnalın olduqca vacib olduğunu bildirib, abunəçilərin kimlər olduğunu öyrəndim. Abunəçilərdən biri milliyyətcə tatar xanım idi. Az - çox tanıyırdım. Harda yaşadıqlarını da bilirdim. Tatar xanıma ümidli olub, tələm - tələsik evlərinə yollandım. Qapını döydükdə, qapını açan gülərüz tatar xanım məni sükutla süzdü. Tatar xanıma bildirdim ki, mən indi poçt idarəsində "Oqonyok"jurnalına abunəçi olanları müəyyən edib sizə xahişə gəlmişəm. Xanım başı ilə təsdiqlədi ki, bəli o "Oqonyok"jurnalının illərdir abunəçisidir. Ümumiyyətlə sizə nə maraqlıdır ki?Mən ondan ümidimi üzməyərək bildirdim ki, mənə "Oqonyok"jurnalı çox vacib olaraq lazımdır. Lakin, tatar xanım etirazlı olaraq bəyan etdi ki, o illərdir bu jurnalın abunəçisidir və yurnalları özündə saxlayaraq yığır. Nə qədər xahiş etsəm də, mənə jurnalı verə bilmə-

yəcəyini qətiliklə bildirib, xoşluqla qapını üzümə bağladı. Mən bu tatar xanımın həyat yoldaşını da tanıdığımdan işdən hələ evinə qayıtmayan ev sahibini gözləməkdə qərarlı oldum. Həyətdə var - gəl edərək həyəcanlı dəqiqələr keçirirdim. Jurnaldakı şəkili xəyalən canlandırır və sarsıntılar keçirərək həyəcanımı boğa bilmirdim. Gah yumruqlarımı düyünləyir, gah da qəzəbimdən sifətim cilddən - cildə düşürdü. Ürəyim elə döyünürdü ki, sanki yerindən çıxıb məni ölümlə hədələmək istəyirdi. Nəhayət ki, tatar xanımın həyat yoldaşı peyda oldu. Tez qarşısına çıxıb onu salamladım. Tatar xanımın əri də mənim qəribə salamımdan təəccüblənmişdi. Maraq edib soruşdu ki, xeyirdirmi bu axşam vaxtı. Bildirdim ki, “Oqonyok”jurnalında qardaşım haqqında şəkil olduğundan o şəkilə baxmaq üçün poçt idarəsinə getmişdim. Orada bildirdilər ki, jurnalın abunəçiləri olduğundan paylanılır. Abunəçilərdən biri də sizin həyat yoldaşınız olduğundan sizin ünvana gəldim. Ancaq, təəssüflər olsun ki, yoldaşınız mənə jurnalı heç göstərmədi. Mən məcbur olub sizi gözləməkdə qərarlı oldum. Tatar xanımın əri məni evinə dəvət edib mənə təsəlli verdi ki, narahat olma mən sənə köməklik edəcəm. Qapı açıldıqda bizi görən tatar xanım sükutlu olaraq bizi evə dəvət etdi. Ərinin xahişi ilə, xanım “Oqonyok”jurnalını gətirmək üçün digər otağa keçdi. Ev sahibi məni çaya - kofeyə dəvət etsə də, təşəkkürümü bildirib dedim ki, jurnalı görsəm elə bilin ki, çayda içmişəm, kofedə. Tatar xanım

əlində jurnal bizə qarşı gələndə, ürəyimin döyüntüsündən əsimimi görən ev sahibi mən binavəyə təsəlli vermiş oldu. Jurnalı əlimə alanda, titrəyən əllərim yurnalı vərəqləməkdə çətinlik çəkirdi. Gözlərim doqquza dönüb qardaş şəkilini axtarırdı. Nəhayət, gözüm şəkilə sataşdı. Gözümdə sevinc qığılçımı parladı. Sevincimdən axan göz yaşım dayanmırdı. Qəhər kilidi boğazımdan asılmışdı. Natiq əlində vətən bayrağı olmaqla, ətrafında erməni cəlladları ilə şəkildə təsvir olunmuşdu. Boğazımdakı qəhəri sıxa - sıxa ev sahibinə və tatar xanıma şəkili göstərərək, bu əlində bayraq tutan mənim qardaşımdır, - deyib hönkürtü ilə xahiş etdim ki, qaytarmaq şərti ilə jurnalı mənə versələr dünyalar qədər minnətdar olardım. Tatar xanım jurnalı verə bilməyəcəyini bildirsə də, əri onu yumşaldıb jurnalı qaytaracağına əminlik yaratdı. Mən ev sahibini qucaqlayıb təşəkkür etdim. Heç bilmirəm ev sahibləri ilə necə sağollaşıb əlimdə jurnalların on dördüncü və on beşinci nömrələri olmaqla evimizə götürüldüm. Yol boyu öz - özümə danışırdım. Mənim tanıdığım qardaşım ancaq, igid ola bilərdi! O, nə anasını erməni edə bilməzdi, nə də qurumsaq ermənilərlə konyak vurmazdı. Nədən bu böhtanlar yaranır, nədən qaynaqlanır?Bu jurnalda təsvir olunan şəkili görən Ala Yaqub görəsən nə deyəcək?Təəccüblüsü bax bu olacaq. Mən qardaşıma öz ürəyim kimi inanırdım. Yol boyu beynimi qarışdıran fikirlərdən evimizə necə çatdığımı bilmədim. Əlimdə jurnallar evə daxil olub, jurnalı

atama uzadaraq dedim: - ay papa bu da jurnallar, al bax. Atam çox qəzəbli olaraq jurnalları əlimdən alıb, hirsli halda üzümə çırpdı. Qəzəbi aşıb - daşırdı. Qəfil dilləndi. Nəyə gətirmisən bu jurnalları?!Sənin qardaşın bizim başımızı yerə soxub, bilirsənmi?Dözmədim. Ay papa, bir hövsələ et. Natiq bizim başımızı yerə soxmuyub o, bizim başımızı hündür dağlar qədər uca edib. Jurnalı götürüb əlində bayraq olan qardaşımın şəkilini atama göstərib dedim ki, bu şəkildə Ala Yaqubun dediyi kimi, Natiq ermənilərlə konyak vurub kef eləmir. Natiq düşmən əhatəsində əlində vətən bayrağı olaraq təsvir olunub. Atam sual dolu gözlərini mənə dikib jurnaldakı şəkili görəndə iki əli ilə üzünü örtüb elə hönkürtü keçirdi ki, onu heç vaxt belə vəziyyətdə görməmişdim. Atam jurnaldakı şəkilə baxaraq göz yaşı axıdırdı. Atam şəkili öpdükcə, sellənən göz yaşları ilə jurnalı nəmləndirirdi. Atam dəhşətə gəlmişdi. Görəsən bu Ala Yaqub şəkili heç görübmü?Nədən bu qəhrəman atası, ermənilərə qarşı yaratdığı"Qarabağ şahinləri"dəstəsinin komandiri Natiq haqqında belə bir qəbahət bildirsin. Atamın halını duyurdum. Odur ki, bildirdim. Sabah açılar, jurnalı aparıb Ala Yaquba göstərərəm. Görək onda nə deyəcək. Hə, ay papa indi icazə verin Natiq qardaşıma həsr olunmuş "Strax"(Qorxu)adlı məqaləni oxuyub, nədən bəhs edildiyini sizə danışım. Evdəkilər gözlərini Nofələ dikib məqalənin nədən bəhs edilməsini səbirsizliklə gözləyirdilər. Nofəlin məqaləni oxuyub haldan -

hala düşməsini görən Səlim kişi, əlini ürəyinə qoyaraq pəncərəyə doğru addımlayıb nəfəsliyi açdı. Nəfəslikdən otağa dolan hava axınını ciyərlərinə çəkən Səlim kişi dərindən bir ah çəkib, off edərək özünü daxilən soyutmuş oldu. Məqaləni oxuyub sonluq edən Nofəl aram - aram axaraq yanağını isidən göz yaşlarını əlləri ilə silib, ax mənim qəhrəman qardaşım, sən düşmən əhatəsində necə qürurlusan, - dedi. Nofəlin bu halına dözməyən ata dilləndi: - ay bala bir danış görək Natiq haqqında nə yazıblar?Eh, ay papa mənim aslan qardaşım şücaəti, qəhrəmanlığı ilə erməni qaniçənlərini vahiməyə salıb, onların xeyli döyüşçülərini gəbərdib, sağ qalanlarına sarsıntılar yaşadıb. Təkbaşına xeyli düşmənlə döyüşərək əsir düşüb. Əsir düşəndə belə erməni silalıları qorxularından ona yaxınlaşmaqda çətinlik keçiriblər. Şəkildə əlində bayraq qürurlu olaraq düşmən əhatəsində necə möhtəşəm görsənir qardaşım?! Məqalənin müəllifi rusiyalı Konstantin Smirnov adlı jurnalistdir. Natiqin jurnaldakı şəkilinin müəllifi isə İtaliyalı jurnalist - fotoqraf Enriko Sarzinidir. Bu jurnalistlər Natiqin əsir götürülməsinin şahidi olublar. Xəyala dalan Səlim kişi, birdən soruşdu ki, ay bala bəs necə olub ki, Natiq əsir düşüb?Ay papa, məqalədə yazırlar ki, Natiq qardaşım və özündən başqa altı əsgər Xramort kəndi yaxınlığında yerləşən kilsədə döyüş mövqeyi tutublar. Düşmənlərlə atışmada Natiqin əsgər yoldaşları həlak olub. Natiq isə beş gün ac - susuz təkbaşına ermənilərlə döyüşüb. Xeyli erməni işğalçısını

məhv edib. Gülləsi qurtardığından əsir götürülüb. Səlim kişi qəzeti Nofəldən alıb əli bayraqlı oğlunun qürurlu görkəminə xeyli baxıb, şəkilini öpərək, - mənim qəhrəman balam! - deyib köksünü ötürdü. Sən bu şəkildəki görkəminlə məni alnıaçıq etdin! - qəhrəman oğlum. Qəzetdəki əli bayraqlı oğul şəkilini sellənən göz yaşları ilə nəmləndirən atam həm sevinirdi, həm də ağlayırdı. Sənin bu qəhrəmanlığının qarşısında düşmənlər diz çökdüyü kimi, arxanca şeytanlıq edənlərin də peşman olacağı günə bir şey qalmayıb. Oğlunun qəhrəman şəkilini görüb təsəlli tapan Səlim kişi buyurdu. Mən heç anlamadım, ay bala. Natiqin komandiri olan Ala Yaqub hansı jurnalda oğlumu ermənilərlə konyak vurub, kef edən görüb?!Əgər "Oqonyok"jurnalıdırsa buradakı şəkili görən yalan deməz axı?!Bəlkə, dilim - ağzım qurusun komandirin dediyi başqa bir jurnalda çıxıbdır. Yox, ay papa. Yaqub Rzayev komandirdi, başı döyüşə qatışdığından yəqin hirsli olaraq yanlış deyib. Oğlu itgin düşənlərin, döyüşdə həlak olanların yaxınları o qədər ona müraciət edir ki?Öz oğlu Canpolad da, döyüşdə həlak olubdur. Mənə elə gəlir ki, nə isə bir yanlışlıq olub. Hər halda mən günü sabahdan Ala Yaqubun yanına gedib, jurnalı göstərəcəm. Nofəlin səyi nəticəsində "Oqonyok"jurnalının evə daxil olması, ev üstünü almış qara buludların qeyb olmasına səbəb olan ilk müjdə idi. Natiqin əli bayraqlı düşmən əhatəsində görünən şəkili o qədər möhtəşəm idi ki, ailə mühitinə bir sərinlik gətir-

mişdi. Nofəlin ürəyində elə bir inam hissi qətiləşmişdi ki, o qardaşının sağ olmasında ümidli idi. Nofəl atasını inandırmağa çalışırdı ki, onun əli bayraqlı qəhrəman qardaşı ölməzdir. Ürəyimin hər döyüntüsü deyir: - qardaşın sağdır! Ürəyimin döyüntüsünə qulaq asaraq, bütün varlığımla qardaşımın sağ olmasına inanırdım. Atama təsəlli verərək qəti bildirdim ki, görərsiniz bir gün gələcək qardaşım evinə qayıdacaqdır. Atam isə əllərini göyə uzadıb Amin! - dedi. Səlim kişi oğlu Nofəlin boynunu qucaqlayıb, allah ağzından eşitsin ay bala, - demiş oldu. Gecədən xeyli keçmişdi. Gözlərinin acısını alanlar sübh tezdən Nofəli Ala Yaqubla görüşə yola saldılar. Ata Səlim kişi məsləhətindən geri qalmadı. Ay oğul, Ala Yaqubla sözün çəpləşər ha. . . Çalış yaxşılıqla məsələni çöz. Nofəl qayğılı atasını əmin etdi ki, başqa cür ola bilməz. Bir də ki, ay papa mən uşaq deyiləm ki, səhv hərəkət edim. Narahat olmayın.

Əlində jurnallar dabanqırma Ağdama yola düşən Nofəl "Qarabağ şahinləri"nin yerləşdiyi məkana gedib, məkanın mühafizəçilərinə Ala Yaqubla görüşəcəyini bildirdi. Aradan bir neçə dəqiqə keçməmiş bir mühafizəçi ilə Ala Yaqubun iqamətgahına buyurdu. Yorğunluğu simasında hiss olunan komandir, Nofəldən nə üçün gəldiyini soruşdu. Nofəl sakitcə döş cibindəki "Oqonyok" jurnalını 14 - cü və 15 - ci nömrələrini və Natiqin düşmən əhatəsindəki əli bayraqlı şəkilini komandirə göstərib bildirdi ki, atam Səlim kişiyə Natiqin əsir düşə-

rək ermənilərlə konyak vurduğunu bildirmisiniz. İsti-
nad etmisiniz "Oqonyok" jurnalına. Bu da sizin istinad etdiyiniz "Oqonyok jurnalı və Natiqin əli bayraqlı şəkili. Ala Yaqub qəzəbindən əli ilə saqqalını dartışdırıb, dodağını görünməz etmiş buğlarını gəmirərək jurnaldakı şəkili xeyli süzdü. Mühafizəçini yanına çağırıb hirsli olaraq dedi: - get, o gədəni çağır bura! Mühafizəçi baş üstə deyib, tez komandir otağından çıxdı. Aradan bir az keçmiş mühafizəçi özü ilə bərabər arıq və uzun, hərbi geyimi əynindən sürüşən, ayaq üstə güclə dayanan birisini təqdim edib kənara çəkildi. Ala Yaqub üz - gözündən şeytanlıq yağan bu mütrüfün üstünə bağırdı. Ədə, bəs sən deyirdin ki, "Oqonyok"jurnalında Natiqin ermənilərlə konyak vurub kef etdiyi şəkilini görmüsən?! Bu bağırtıdan arıq qıçalarının titrəyişdən yaranan şaqqıltını dayandırmaq istəyən şeytanın əsən dodaqları söz tutmadı. Aciz bir görkəmdə sükuta qapılıb gözlərindəki yalvarışları ilə əsməcəyə tutuldu. Ədə səninləyəm ey, ay vələdəznə!Al bu jurnalı bir bax görüm, Natiq bu şəkildə konyak vurur!Göz ucu şəkilə nəzər yetirən "əsgər" elə aciz görkəm aldı ki, daha onunla danışmağın mənası itmişdi. Qəzəbini hələ də soyutmamış komandir mühafizəçiyə əmr etdi ki, bu gədəni apar bir daha gözüm onu görməsin. Onunla mən sonra danışacam. Əclafın hərəkətinə bir bax! Bu boyda jurnalda əli bayraqlı igid oğulu görməzdən gəlib elə bil. Belə əsgərlərdir də, erməni baltasına sap verənlər. Jurnalı Nofələ uzadan

Ala Yaqub ərz etdi ki, komandirinə yalan danışan əsgərin cəzası heç də yumşaq olmur. Mühafizəçiyə əmr etdi ki, bir azdan döyüş bölgəsinə getməli olacaq. Mühafizəçilərə de hazır olsunlar. Komandir ayağa qalxıb, Nofəli süzərək vacib işlə əlaqədar gedəcəyini bildirib onunla sağollaşdı. Komandirin baş vermiş yanlışlığa aydınlıq gətirməsindən sonra Nofəl "Qarabağ şahinləri"iqamətgahını mühafizəçi nəzarəti altında tərk etmiş oldu. Yol boyu düşüncələrə dalan Nofəl milli əsgər formasını geymiş bədniyyətin nədən şeytançılıq etməsini anlaya bilmədi. Şeytan olasan, iblis maskasını üzünə taxıb böhtan uydurasan, vallah dəhşətdi. Bu müdhiş fikirlərlə Mingəçevirə necə çatdığını hiss etmədi. Yolunu Natiqin bir zamanlar təhsil aldığı 4 nömrəli şəhər tam orta məktəbinin yaxınlığından saldı. Yolu keçərkən Natiqin ədəbiyyat müəllimi olmuş Əhliman müəllimlə qarşılaşdı. Əhliman müəllim şagirdi olmuş Natiqin tərbiyə görmüş vətənpərvər xarakterinə yaxşı bələd idi. Natiq ailəsinə, əsas da Səlim kişiyə hörmətlə yanaşardı. Vətən uğrunda döyüşə atılaraq itgin düşmüş Natiq barədə atılan şeytan böhtanlarını qəbul etmirdi. Əhliman müəllim məktəbin tanınmış ziyalısıydı. Cəmiyyətin şeytan - iblis iftiralarından, şərlərindən xəbərdar idi. O, haqq aşiqi olan bir müəllim kimi təqdir edilirdi. Şagirdi olmuş Natiq haqqında bütün məktəb heyəti müsbət fikirlər söyləyərdi. Yadına düşürdü ki, məktəbdə hamı Natiqin Kür çayında boğulan uşağı necə xilas etməsindən danışırdılar.

Əhliman müəllim başa düşürdü ki, Kür çayına atılıb xilaskar rolunu oynayan Natiq özü də boğula bilərdi. Ancaq, qəhrəmanlıq bu uşağın canındaydı. Qəhrəman doğulanlar ən çətin zamanlarda belə öz ölümlərini düşünmürlər. İndi itgin düşən Natiq bəlkə də, elə qəhrəmanlığa imza atıb ki, bunu allahından başqa heç kim bilmir. İndi ağzı göyçəklər iblis donunu geyib, görmədikləri yalanları uydururlar. Təsadüfən Natiqin böyük qardaşı Nofəli görüb, bədheybətlərə lənətini bildirməklə onunla xoşhal olmaq arzusunda idi. Məktəbin həyətinə nəzər yetirib xəyallaşan Nofəli salamlayan Əhliman müəllim Natiqdən bir xəbər olub - olmadığını soruşdu. Nofəl Rusiyanın "Oqonyok" jurnalında itgin düşmüş qardaşı haqqında yazılmış "Strax" məqaləsini və əlində vətən bayrağı olan şəkilli yurnalı Əhliman müəllimə təqdim etdi. Əhliman müəllim böyük acgözlüklə məqaləni oxuyub, şagirdinin məğrur şəkilini ürəyinə qoyub qucaqlayırmış kimi dedi:

- Mən bütün söylənilən şeytan böhtanlarına heç vaxt ciddi baxmamışam. O, mənim şagirdim olub. Mən ona və nəinki ona bütün şagirdlərimə oğul kimi baxmışam. Bəzən valideyinlərdən də çox müəllimlər şagirdlərini daha yaxşı tanımalı olurlar. Natiq vətənpərvər, milli heysiyyətli, ailəsinə bağlı bir oğul olub. Mən bilirdim ki, haqq gec - tez öz yerini tapacaq. Rus jurnalistinin yazdığı bu məqalə haqqın ilk müjdəsidir. Bu müjdələr gələcəkdə daha çox olacaq. Mən Natiq haqqına öz ürəyim

kimi inanıram. Orasını da deyim ki, düşmən əhatəsində vüqarlılıq simvolu kimi əlində bayraq olan şücaətli Natiqin qəhrəmanlığı haqqında hələ çox deyiləcək və Natiq qəhrəmanlığını vəsf edəcək əsərlər yaranacaqdır. Şəkildəki o duruş, o baxış ondan xəbər verir ki, Natiq sağdır. Geci - tezi bir gün qapını döyərək nəinki ailəsinə, bütün Mingəçevirlilərə igidlik ruhu gətirəcək. Əhliman müəllimin ürək dolusu söylədiyi şad əhvala rəğmən Nofəl təşəkkürünü bildirib dedi: - Allah sizi var eləsin Əhliman müəllim. Sizin şagirdiniz olmuş qardaşım Natiq haqqında söylədikləriniz müsbət fikirlər məni çox sevindirdi. Buna görə sizə çox minnətdaram. Əhliman müəllim əgər sizləri yormuramsa Natiq qardaşım haqqında söylənilən və mənim başımı qarışdıran şər və böhtanın nədən bəhrələndiyini mənə izah edib bir aydınlıq gətirsəydiniz, ürəkdən şad olardım. Düzün sözü özüm də başa düşə bilmirəm ki, insanlar nədən belə şeytanlaşaraq iblisləşirlər. Axı necə ola bilər ki, bir, yaxud bir neçə zümrə bir başqasına böhtan, şər atsın, iftira söyləsin. Üzr istəyirəm ey, Əhliman müəllim bəlkə sualımla sizi narahat etmiş oluram, ancaq nə edim, başımı qarışdıran bəzi başa düşülməzliklərimi gərək elə müəllimdən öyrənim də. Sizin savadlı və haqq aşiqi olan bir müəllim olmağınız bütün Mingəçevirdə danışılır. Nofəli səmimi olaraq dinləyən Əhliman müəllim sanki, himə bənd idi. Düz buyurursan ay Nofəl, - deyə Əhliman müəllim sözünə başladı. Biz müəllimlər çalışırıq ki, bi-

diklərimizi öyrədək, təbliğ edək. Bir müəllim olaraq bu bizim missiyamızdır. Baxmayaraq ki, ədəbiyyat müəllimiyəm verilən sualı cavablandırmaq üçün, gərək filosofluq edəm. İlk onu deyim ki, Nofəl qardaş cəmiyyətimizdə müxtəlif xarakterli insanlar olduğundan nə edəsən ki, şeytana uyub iblisləşən zümrələr də az deyil. Belə zümrələri nəzər nöqteyindən keçirən böyük ədibimiz Hüseyin Cavid yazdığı "İblis"pyesində iblisləşən zümrələri tənqid atəşinə tutaraq yazırdı:

İblis!o böyük ad nə qədər calibi - heyrət!
Hər ölkədə, hər dildə anılmaqda o şöhrət.
Hər qüllədə, kaşanədə, viranədə iblis!
Hər kəbədə, bütxanədə, meyxanədə iblis

Böyük ədibimiz demək istəyir ki, hər ölkədə cəmiyyətin bütün sahələrində xəyanətlərin carçısı olan iblislər var. Belə fitnəkar, şərçi xəyanəkarlardan uzaq olmaq allahı sevən adamın əsas vəzifəsidir. Allahı sevirsənsə iblisləşmişləri ürəyinə, beyninə yaxın buraxma. Elə buna görə də, ədibimiz iblisin əsil tərifini pyesində verir:

İblis nədir?
- Cümlə xəyanətlərə bais. . .
Ya hər kəsə xain olan insan nədir?
- İblis. . .

Əslində, ay Nofəl qardaş İblis və ona sinonim olan cin, şeytan, xristiyanlıqda satana kimi təqdim olunan

şər qüvvələr allahın düşmənləridir və insanları düz yoldan çıxaran varlıqlardır. Hər şeyi qara görən bu bədniyyətlər xəyanətkar mövqedən çıxış edirlər. Bu şər qüvvələr Allah tərəfindən səmavi dünyadan qovulmuşlardır. Cəmiyyətimizdə yaşayan insanlar öz daxili - mənəvi aləminə və əqli inkişafına görə iki yerə bölünürlər. Dünyaya pak gələn insan cəmiyyət əhatəsində malik olduqları dünyagörüşə, əldə etdikləri əxlaqi - mənəvi dəyərlərə görə seçilirlər. İnsanlığı, əxlaqi - mənəvi dəyərləri zəif olan insanlar şeytana daha çox uyub xəyanətkar mövqe tutmaqla iblisləşirlər. Belələrinin beynində şeytan əsas qüvvə kimi rol oynayır. Əxlaqi - mənəvi dəyərləri, əqli yüksək olub, insanlığı yüksək tutanlar allahı qəbul edib, allahın qüdrətinə inanırlar. Əhliman müəllim sözünə davam etmək istəyirdi ki, Nofəl sözarası üzrxahlıq edib soruşdu ki, elmi olanlar, savad qazananlar şər - böhtana meyilli olurlarmı?Əhliman müəllim Nofəlin qəribə, ancaq haqqdan xəbər verən sualına cavab olaraq bildirdi ki, savad qazanmaq, elmli olmaq heç də ağıllı olmaq deyil. Ağıl allah payıdır. Təhsil ocaqlarında savad, bilik verirlər. Aydındır ki, ağıl dərsi vermirlər. Pak olaraq dünyaya göz açan insan xeyirxahlığın hökm sürdüyü cəmiyyətdə ağıl zənginliyinə malik olur və yaxud cəmiyyət qaragüruhçularının təsiri ilə zəif ağıl sahibi olanlar allahın düşmənləri olan şeytan - iblis xəyanətinə sürüklənirlər. Ancaq, belə zümrələr də var ki, ağıldan hiyləgər məqsədlə istifadə edir ki, bu da cəmiyyət üçün çox

təhlükəlidir. Bu mövzu çox uzun bir mövzudur. Əgər dərinliyə varsam sizi yormuş olacam. Xeyr! Nə danışırsınız Əliman müəllim? - deyə Nofəl dilləndi. Siz bir savadlı müəllim olaraq mənə böhtan və şərin başa düşmədiyim mahiyyətini açıqladınız. Mən böhtanları eşitsəm də, onlara inanmırdım. Natiq qardaşımı dərindən tanıdığımdan ona ürəyim qədər hər zaman inanmışam. Bu "Oqonyok" jurnalın alıb qardaşım haqqında həqiqəti əks etdirən məqalə və şəkillə tanış olduqdan sonra igid qardaşım haqqında olan böhtanların mahiyyətini anlamaq istəmişəm. Siz, özünüz qeyd etdiyiniz kimi, əsil filosof kimi mənə böhtan və şərin mahiyyətini aşıladınız. Özünüz də yəqin bilmiş olarsınız ki, bizim ailə allaha bağlıdır. İndi siz böhtanların mahiyyətini, nədən qidalandıqlarını danışdıqca başa düşürəm ki, allahı sevməyənlər şeytan əməlləri ilə qardaşımı, bizim ailəni xar etmək istəyiblər. Bəli, məni düz anlamısan Nofəl qardaş. İndi icazə ver məsələni adi bir yolla xırdalıyım. Cəmiyyətdə yaşayan hər bir insanın beynində həm allahın qüdrəti var, həm də şeytan məskən salıb. Allahdan uzaq düşən bədheybətçilər şeytanın təsiri altında olduqlarından allah qüdrətini eşitmirlər. Allahın qüdrəti gözlə bağlı olduğu halda, şeytanın təsiri qulaqlarda hiss olunur. Şeytanlar əxlaqi - mənəvi, əqli dəyərləri olmayanları qulaqları ilə idarə edirlər. Şeytana meyilli olan bu insanlar görmədikləri bir hadisəni, əhvalatı iftiraya çevirib yayırlar. Eyni ilə bu cür şeytanlaşmış insanlar arasın-

da yalanlar baş alıb gedir. Atalarımızın bir məsəli var, - yalan ayaq tutar, yeriməz. Ancaq, görürsən şeytanlaşmış zümrələr arasında atalar məsəli əhəmiyyətini vermir. Yalan nəinki ayaq tutur, hətta sürətlə yeriyir. Nofəl dözmədi. Ay Əhliman müəllim atalarımız çox ağıllı olublar, bəs nədən belə bir məsəli deyiblər?Düz buyurursan. Atalarımız bu məsəli xəyanətləşmiş şeytan hiyləsinə uyan zümrələr haqqında deməyib. Atalarımız bu məsəli allah qüdrəti ilə yaşayanlar üçün nəzərdə tutub. Əxlaqi - mənəvi və əqli dəyərləri yüksək olanlar şeytanlaşmış zümrələrin qara fikirlərinə inanmırlar. Allahın qüdrəti gözlə bağlıdır. Əxlaqi dəyəri yüksək olanlar gözlə gördüklərini deyə bilərlər. Atalarımızın bu barədə də deyilmiş çox dəyərli məsəli var. Aşıq gördüyün çağırar. Bu məsəl allahın qüdrətindən doğulub. Allahımız buyurur ki, gördüyünü danış, görmədiyini söyləmək şeytan əməlidir. Məgər Natiq balamız üçün deyilən böhtanlar şeytan əməli deyil?!Odur ki, allahını sevənlər, onun qüdrəti ilə yaşayanlar şeytanlaşmış zümrələrin qara fikirlərini başlarından qovub, üstəlik "lənət şeytana"da deyərlər. Yaxud da, iblisləşmiş insanların qara fikirlərini eşidən allah adamları təəccüblənər və deyər: - Əşi bu nə adamdır, elə bil cin - şəətin bunun beyninə soxulub. Bir də ki, Nofəl qardaş şeytan oyununa girib iblisləşmiş insanlar çox hallarda məkrli və məqsədli olaraq cəmiyyətin şəxsiyyətli insanlarının heysiyyətini, mənliyini alçaltmaq məqsədi ilə böhtan və şərə əl atıb

cəzalandırmaq arzusunda bulunurlar. Belə hallarda allahın bu bədhebətlərdən heç xəbəri olmur. Elə yadıma düşmüşkən bu şeytanları ifşa edəcək bir bayatımı deməsəm yerinə düşməz.

Eləmi sən ay şeytan,
İftirasan, həm böhtan,
Allahı sev, insan ol
Mərdi eləmə başdan.

İndi bütün danışıqlarımızın sonu olaraq bizim Natiq balamız haqqında öz fikirimi bildirmək istərdim. Natiq vətən uğrunda, ana - bacılarımızın namusu naminə döyüşə yollanıb, igid kimi vuruşub və itgin düşüb. Hələ həmin vuruşdan iki ay keçməyib itgin düşən Natiq balamız haqqında heç bir məlumat olmadığı halda, böhtanlar və yalanlar baş alıb gedirdi. Sağ olsun Natiq qəhrəmanlığı haqqında "Oqonyok" jurnalında həqiqəti qələmə alan, üstəlik Natiqin düşmən əhatəsində əli bayraqlı qürurunu təsvir edən jurnalist Konstantin Smirnov. Allah adamı olan bu jurnalist "Strax"məqaləsi ilə şeytan iftirasına və böhtanlara son qoyacaq. İgid balamızın əlində uca tutduğu vətən bayrağı çox şeylərdən xəbər verir. Ümid edirəm ki, getdikcə Natiq qəhrəmanlığı ölkəmizdə yaxşı mənada böyük səs - küyə səbəb olacaq. Bütün Azərbaycanımız, doğma Mingəçevirimiz, oxuduğu 4 - nömrəli orta məktəb onunla fəxr edəcəkdir. Nofəl Əhliman müəllimin arzuladığı xoş sözlərdən riqqətə gəlib ağız dolusu təşəkkürünü izhar etdi. Allah si-

zi var eləsin Əhliman müəllim. Allah bütün dedikləriniz xoş arzuları ağzınızdan eşitsin. Nahaqdan sizə valideyinləriniz Əhliman adını qoymayıb. Siz həqiqətən də, fəxr etdiyimiz müəllim olmaqla bərabər, əsil əhli - iman adamısınız. Nofəl və Əhliman müəllim sağollaşıb ayrıldılar. Hava xeyli qaralmışdı. Nofəl onun yolunu səbirsizliklə gözləyən ailəsinə təsəlli vermək üçün evinə doğru səmtləndi.

Tez - tez pəncərəyə yaxınlaşıb Ağdamdan gələcək oğlunu səbirsizliklə gözləyən Səlim kişi əlini göylərə tutub allaha duaçı olurdu ki, oğlu Ala Yaqubla görüşdən xeyir xəbərlə gəlsin. Səbirsizləşən Səlim kişi tez - tez pəncərəyə yaxınlaşıb intizar gözləri ilə oğul gələcək yollara baxarkən iti addımlarla evinə gələn oğlunu seyr edib yüngülləşdi. Nəhayət qapı döyülməsini önləyən Səlim kişi qapını oğlunun üzünə açıb xoş gəldin etdi. Səlim kişi sual dolu nəzərlərlə oğlunu süzdü. Uzaq yoldan gələn oğluna belə dinclik vermədən soruşdu. Ay bala, nə xəbər? Natiqin komandiri ilə görüşdünmü, jurnalı göstərdinmi? Ay papa, bir az səbirli olun hər şeyi bircə - bircə sizə danışacam. Yorğunluğu üzündən belə görsənən oğlunu isti xörəyə dəvət edib, xeyir xəbəri hərəkətindən az da olsa anlayaraq, səbrini saxladı. İsti xörəyi bal kimi nuş edən Nofəl daha sonra Ala Yaqubla olan görüşünü söyləməyə başladı. Ala Yaqubla görüşə bildim. Jurnaldakı şəkili xeyli süzüb, mühafizəçisinə əmr etdi ki, ona yanlış xəbər verəni hüzuruna gətirsin-

lər. Arıq və üz - gözündən bədheybətçilik yağan əsgəri mühafizəçi gətirdi. Ala Yaqub onu yalan məlumat verməkdə təqsirləndirib, Natiqin əli bayraqlı şəkilini ona göstərərək bağırdı ki, bəs sən deyirdin Natiq ermənilərlə konyak vurur?!Acizləşmiş əsgərin dili - boğazı qurumuşdu. Heç səsini də çıxarmadı. Onun özünə yox, əynindəki milli hərbi paltara heyfim gəldi ki, belə bir mütrübün əynində hərbi paltarımız var. Ala Yaqub onu cəzalandıracağını bildirib, mühafizəçiyə onu aparmağı əmr etdi. Jurnalı Ala Yaqubdan alıb iqamətgahından çıxdım. Düzü mən inanmırdım ki, Natiqin komandiri olmuş Yaqub Rzayev belə bir yanlışlığa yol verə bilər. Yəqin sən onun yanında olanda əsəbləri yerində olmadığından yanlışlığa yol verib. Yol boyu mütrüb, qarayaxan əsgəri xəyalımda canlandırıb dəhşətə gəlirdim. Yolda təsadüfən Natiqin ədəbiyyat müəllimi olmuş Əhliman müəllimlə qarşılaşdım. Hal - əhval edib, Natiq barədə xəbər - ətərin olduğunu soruşdu. Mən jurnalı ona göstərdim. Jurnalı acgözlüklə oxuyub qeyd etdi ki, bilirdim nə vaxtsa haqq öz yerini tapacaq. Natiq haqqında deyilən bıhtanlara heç vaxt inanmadığını izhar etdi. Sonra şeytan təsirinə düşüb iblisləşənlərin xəyanətkarlığından, qara fikirlərə uymalarından xeyli danışdı. Düzü Əhliman müəllimin şeytan - iblis filosofluğu məni heyran etdi. Hə, Əhliman müəllim bizim Mingəçevir şəhərinin tanınmış istedadlı müəllimlərindən biridir, - deyə Səlim kişi müəllim barədə yüksək fikirlər söylədi. Ay

papa, vallah Əhliman müəllim çox uzaqgörən adamdır. "Oqonyok"jurnalındakı məqaləni oxuyub dedi: - mənə elə gəlir ki, Natiq sağdır və nə vaxtsa evinə qayıdıb bütün Mingəçevirimizi, oxuduğu orta məktəbi igidliyi ilə sevindirəcəkdir. Düzü mən də həmişəki kimi qardaşımın sağ - salamat olduğuna inanmışam. Axı ortada elə bir sübut, fakt yoxdur ki, deyək qardaşıma nə isə olub. Fakt şəkildə görsəndiyi kimi, qardaşımın düşmənə əsir düşməsidir. Özü də, necə əsir düşmək?! Əlində vətən bayrağı ola - ola. Düşmən əhatəsində əli bayraqlı və vüqarlı. Əhliman müəllim kimi uzaqgörən, savadlı bir adam məqaləni oxuyub, qardaşımın sağ olmasını bildirirsə, mən Natiqimizi yaxşı tanıdığımdan ürəkdən inanıram ki, Natiq sağ - salamatdır. Nofəlin nikbin danışıqlarından ürəklənən Səlim kişi dilləndi. Allah ağzından eşitsin, ay oğul. Ancaq, mənim könlümü az - çox sənin Ala Yaqubla görüşün şad edib. Jurnalda Natiq haqqında yazıb, papağımızı uca edən rus jurnalistinə allahımızdan uzun ömür diləyirəm. Bu jurnalın üzə çıxmasından sonra ağzı göyçəklərin qara fikirlər söyləməsinə daha yer qalmadı. Düz buyurursan papa. Haqq öz yerini tapdı. Deyirəm jurnalları sabahı sahibinə qaytarsam yaxşı olar. Söz vermişəm gərək əməl eliyəm.

- hə, oğul jurnalı qaytar və bizim adımızdan minnətdarlığımızı bildir.

Artıq Səlim ailəsinə gün kimi aydın olmuşdu ki, vətən, qeyrət hissi ilə yanan və könüllü olaraq düşmən-

lərdən qisas almağa gedən Natiqdən satqın olmaz. ″Oqonyok″ jurnalında əli bayraqlı, düşmən əhatəsində qürurlu olaraq görsənən Natiqin əsir götürülməsi, yaxud təslim olması onun qəhrəmanlığından xəbər verir. Nofəl qəti inanırdı ki, qardaşı əsir düşməyib, özü təslim olub. Ancaq, müxtəlif səbəblərdən düşmənə təslim olanlar düşmən əhatəsində qürur simvolu olaraq əlində vətən bayrağı görsənməz. Əgər Natiq düşmənə təslim olubsa, xeyli düşmən döyüşçüsünü məhv etdiyindən anlayırdı ki, o özü də ölümə gedir. Ölümünü əvvəlcədən qəbul edib, düşmənə təslim olmaq qeyri - adi xarakter qəhrəmanlığıdır. ″Oqonyok″ jurnalında yazılan "Strax"məqaləsindən sonra ata - bala belə qərara gəldilər ki, Natiq axtarışına başlamaq zərurəti yaranıb. Jurnal Moskva şəhərində nəşr olunub. Ünvanı bəllidir. Natiq haqqında məqalə yazan müəllif Konstantin Smirnov fəaliyyətini davam etdirir. Nofəl Moskvada yaşayan və uşaqlıqdan Natiqlə bir yerdə olub, onu dərindən tanıyan əmisi oğlu Çingizlə əlaqə yaradıb, ″Oqonyok″jurnalının ünvan və telefonunu ona çatdıraraq məqalə müəllifi Konstantin Smirnovla görüşməyi və Natiqin sonrakı talehini müəyyənlişdirməyi xahiş etdi.

Çingiz işdən evə qayıtdıqda həyat yoldaşı "Oqonyok" jurnalındakı əli bayraqlı, lakin düşmən əhatəsində olan Natiqin şəkilini və onun haqqında yazılmış məqaləni Çingizə göstərdi. Natiqin jurnaldakı təsvir olunan şəkilini görən və uşaqlıq illərini xatırlayan Çingiz anla-

yır ki, əmisi oğlu ondan kömək gözləyir. "Oqonyok" jurnalının jurnalisti Konstantin Smirnova özünü təqdim edən Çingiz, onunla görüşmək və Natiq haqqında bilgi əldə etməsini xahiş edir. Konstantin Smirnov bu görüşə razılıq verir. Görüş zamanı Çingiz düşmənə əsir düşən Natiqin sonrakı talehini bilmək istədiyini qeyd edir. Konstantin Smirnov Natiqin əsir götürülüb, sorğu - suala gətirilməsi ərəfəsində şahidlik etdiyini vurğulayır. Natiqin döyüş zonasından əsir olaraq gətirilməsində foto - müxbir, italiyalı jurnalist Enriko Sarzini iştirak etmiş və jurnaldakı şəkili də o çəkmişdir. Məni döyüş bölgəsinə təhlükəsizlik nöqteyi nəzərindən buraxmamışdılar. Mən başa düşdüyüm qədər ermənilər kilsədə xeyli düşmən əsgərinin olduğunu bildirsələr də, əsir götürülən əli bayraqlı qorxmaz bir cavan əsgər idi. Əli bayraqlı əsgər xeyli düşmən əhatəsində qəragaha daxil olanda erməni silahlıları dəhşətə gəlmişdilər. Necə olub ki, bir nəfər əsgər xeyli erməni yaraqlısını məhv edə bilib. Əsir olan əli bayraqlı cavan baxışları və sorğu zamanı cavabları ilə erməniləri vahiməyə salmışdı. Enriko Sarzini danışırdı ki, kilsənin yaxınlığındakı kənd adamları tökülüşüb, əli bayraqlı cavan əsgəri döymək də istəyiblər. Erməni tərəfinin döyüşçüləri onları sakitliyə çağıraraq başa salıblar ki, xarici jurnalistlər var. Onlar da çəkiliblər. Konstantin Smirnovu diqqətlə dinləyən Çingiz əmisi oğlunun sonrakı talehini öyrənmək üçün xeyli maliyyə müqabilində köməklik göstərilməsini xahiş edir. Kons-

tantin Smirnov xeyli sükutdan sonra iki gündən sonra onunla əlaqə saxlamağı lazım bilir. Əlavə edir ki, onun bəzi əlaqələri var və köməklik etməyə çalışacaqdır. İki günün tamamından sonra Konstantin Smirnov Çingizə bildirir ki, o yoxdur. Çingiz nə qədər xahişçi olsa da, Konstantin Smirnov "o yoxdur" - deyib söhbətinə sonluq edir. Natiq haqqında"Strax"adlı məqalənin müəllifinin köməklik etməməsinin səbəbı "Oqonyok"jurnalının redaksiya heyətində erməni izinin olması əlaqədar ola bilərdi. "Oqonyok"jurnalının redaksiya şurasında Y. Əlixanyan - Bonner kimi erməni, millətçi - şovinist V. Korotiç kimi qatı ermənipərəstin təmsil olunması əbəs deyildi. İkinci bir tərəfdən "Oqonyok"jurnalının jurnalisti Konstantin Smirnovu və İtaliyalı foto - müxbir Enriko Sazrinini ermənilər döyüş bölgəsinə özləri dəvət etmişdilər və əslində onlar erməni "qəhrəmanlığını"təbliğ etmək istəyirdilər. Lakin, "Oqonyok"jurnalının jurnalisti özü də anlamadan "Strax"məqaləsini yazmaqla və üstəlik əli bayraqlı Azərbaycanlı balasının şəkilini təsvir etməklə Natiq qəhrəmanlığını keçmiş "ittifaq"ərazisində tanıtmış olmuşdu. Natiq qəhrəmanlığı təsadüfi məqalə olsa da, əvəzsiz xidmətin nəticəsi olaraq Azərbaycanlı balasının igidliyini dillərdə əzbər etdi. Natiq Qasımov "ittifaq" miqyasında igidliyin, cəsarətin, qorxmazlığın, əyilməzliyin simvoluna çevrildi.

Natiq talehinə aydinlıq gətirmək üçün "Oqonyok"jurnalının jurnalisti Konstantin Smirnovdan əlini

üzən Çingiz döyüş bölgəsində olmuş italiyalı foto müxbir Enriko Sazrininin axtarışına başladı. Döyüş bölgəsinə gəlib Natiqin şəkillərini çəkən Enriko Sazrini Amerikada yaşayaraq fəaliyyət göstərirmiş. Axtarışlar zamanı məlum olur ki, Enriko Sazrini hazırda İtaliyada yaşayır və foto - müxbir olaraq çalışır. Italiyada Enriko Sazrini ilə əlaqə yaradıldıqdan sonra məlum olur ki, şəkillərini çəkdiyi əli bayraqlı cavan əsir düşmənə təslim olsa da, bu qorxmaz qəhrəman hər an onu düşündürürmüş. İndi əli bayraqlı cavan əsirin sonrakı talehini bilmək istəyənləri, hər gününə hakim olmuş əsir düşüncələri ilə onları tanış etmək istəyirdi. Enriko Sazrini cavan və qorxmaz əsirin yaxınlarına bildirirdi ki, o hər zaman öz - özünə fikir edirmiş ki, görəsən o cavan qəhrəman sağdırmı, hər hansı hərbi düşərgədə əsirliyini çəkirmi, yoxsa onu öldürüblər, yainki yandırıblar. Enriko Sazrini təəssüf edir ki, o əsirin sonrakı talehini hələ də bilmir. Enriko Sazrini həmin qorxmaz cavan əsirin vaxtilə çəkmiş olduğu bir neçə şəkilini də arxivindən götürüb ona müraciət edənlərə təqdim edir. Sonradan yol xərclərinin çəkilməsi müqabilində Enriko Sazrinin Ermənistana gedib Natiqin əsir düşdüyü kənddən bir xəbər öyrənilməsi, onun sonrakı talehinin müəyyən edilməsi xahiş edilsə də, bu məsələdə həvəsli olan Enriko Sazrini erməni vəhşiliyinin onda yaratdığı qorxu hissindən çəkinmişdi. Məhz bu qorxu hissinin nəticəsi idi ki, əli bayraqlı qorx-

maz igidin sonrakı talehinə aydınlıq gətirmək üçün Ermənistana getməyə razılıq verməmişdi.

"Oqonyok"jurnalında çap olunan "Strax"məqaləsi Natiqin əfsanəvi qəhrəmanlığını nəinkiAzərbaycana, bütün keçmiş "ittifaq"a belə yaymış oldu. Hər dəfə Nofəl və Səlim kişi tərəfindən müxtəlif bəhanələr gətirilməklə oğlu Natiq barədə dəqiq məlumat almayan Dursun ana hiss edirdi ki, oğlunun talehini bimədən o bu dünyada xoş yaşaya bilməz. Əri Səlimi oğlu Nofəli Natiq barədə sorğuya tutan Dursun anaya Natiqin döyüş bölgəsində olduğu deyilsə də, ana daxili nigarançılığını sakitləşdirə bilmirdi. İndi Natiq qəhrəmanlığını əks etdirən "Oqonyok"jurnalı fakt idi. Dəvəni çuvalda gizlətmək mümkün olmayacaqdı. Odur ki, ata - bala digər qohumlarla məsləhətləşib Natiq barədə olanları Dursun anaya çatdırmaqda qərarlı oldular. Artıq elə bir məqam yetişmişdi ki, oğul həqiqətlərini anaya bildirmək lazım gələcəkdi. Odur ki, qərarlaşıb "Oqonyok"jurnalındakı düşmən əhatəsində əli bayraqlı Natiqin əsir düşməsini əks etdirən şəkili Dursun anaya göstərməkdə qərarlı oldular. Oğlu barədə həqiqətləri öyrənən Dursun ana göz yaşı tökmüş oldu. Oğlunun əsirlikdən xilas olması üçün sual dolu baxışlarını Səlim kişiyə və oğlu Nofələ dikdi. Ata Səlim kişi və oğul Nofəl ana harayına biganə qalmayıb Azərbaycandakı dövlət qurumlarının qapısını döyməkdə qərarlı oldular. Bakıda fəaliyyət göstərən Qırmızı Aypara, beynəlxalq qurum olan Qızıl Xaç

Komitəsinə, Əsir və İtgin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət komissiyasına dəfələrlə müraciət edib Natiqin sonrakı talehi barədə sorğuçu oldular. Ata - bala Natiq talehi haqqında doğru - dürüst bir məlumat ala bilməsələr də, Natiqin sağ - salamat olmasını beyinlərindən çıxara bilmirdilər.

Min doqquz yüz doxsan üçüncü ilin yaz ayları idi. Ağaclar tez bir zamanda tumurcuqlayıb yaşıl yarpaq donunu geyərək təbiəti təzələyirdi. Yazın gəlişi ilə təbiətin oyanması, yaşıllaşan ormanların füsunkar gözəlliyi qəlblərə yeni yaşam həvəsi gətirirdi. Qardaş həsrəti ilə yaşayan Nofəl ailəsinin qəlbində yenilənən və təbiətin də oyatdığı inam hissi Natiqin sağ olaraq qayıtması ilə bağlıydı. Gecəli - gündüzlü Nofəl və bütün ailə xəyallarında Natiqlə görüşəcəyi anların təsiri ilə yaşayırdılar. Bu xəyalla yaşayan Nofəlin qardaş həsrəti ilə döyünən ürəyinin qapısını tanımadığı bir nəfər döymüş oldu. Bu adam Nofələ ərz etdi ki, onun qardaşı Natiq sağ - salamatdır və Ermənistanın Kirovakan şəhərindəki kimya kombinatında işləyir. Bu xəbərdən sevinci ərşə qalxan Nofəl onun kimliyi ilə maraqlandı. Adam Gürcüstan vətəndaşlığını bildirib, Marneuli rayonundan olduğunu Nofəlin nəzərinə çatdırdı. Adamın özünü dürüst olaraq təqdim etməsi Nofəlin qıyılmış gözlərinə işıq gətirmişdi. Gürcüstanlı xoş xəbər gətirənə təşəkkürlər edib birbaşa onunla dialoqa keçdi. Ay qardaş, xoş xəbər olasan! Sən nəinki məni sevindirdin, həsrət-

dən qıvrılan ailəmizə belə sevinc gətirdin. Bir de görək adın nədir?Marneuli böyük bir rayondur axı, rayonun özündənsən, yoxsa kəndindənsən?Natiqin sağ - salamat olub Ermənistandakı kimya kombinatında işləməsini öz gözlərinlə görmüsən, yoxsa kimsə sənə xəbər verib. Gürcüstanlı xəbər gətirən qurumuş boğazının xırıltısını kəskin öskürəklə təmizləyib bildirdi ki, adı İsmayıldır, soy adı isə Axundzadədir. Marneuli rayonunun Sadaxlı kəndindəndir. Gürcüstanlı İsmayılın gözlərini gizlədərək qırıq - qırıq danışması Nofəli şübhəyə salsa da, şübhəsini büruzə etdirməyib soruşdu. İsmayıl qardaş bəs biz qardaşımızı necə görə bilərik?İsmayıl duruxdu. Qurumuş dodağını dili ilə isladıb dedi: - bilirsiniz mən qardaşınızı görməmişəm, bu xəbəri mənə Ermənistandan olan ermənilər çatdırıblar. Ermənilər sizin qardaşınızı pul müqabilində xilas edib, sağ - salamat sizə təhvil verə bilərlər. Olsun da, ay İsmayıl. Necə deyərlər, - kor nə istər iki göz, biri əyri biri düz. Biz canımızdan, ev - eşiyimizdən olmağa belə hazırıq ki, həsrətində olduğumuz qardaşımı görə bilək. İsmayıl qardaş ermənilər qardaşımın azadlığı naminə nə qədər pul istəyirlər?Ermənilər bu xilas üçün bir milyon pul istəyirlər. İndi mən getməliyəm. Bir milyon hazır olanda Bakıda görüşə bilərik. İsmayıl Axundzadə sözlərini bitirib, bir an içərisində qeyb oldu. İsmayılın gedişindən sonra qəlbi sevinc hissi ilə çırpınan, gözlərinə işıq gələn Nofəl xoş xəbəri ailəsinə çatdırmaq eşqi ilə tələm - tələsik evə döğru götürül-

dü. Qapını açıb ruh yüksəkliyi ilə, sanki qışqırırmış kimi harayladı ki, nə durmusunuz qardaşım sağdır!Səlim kişi və ana - bacılar Nofəlin xoş xəbərindən cuşə gəlib qucaqlaşdılar. Dursun ananın göz yaşları yenə gilələndi. Səlim kişinin gözləri dolmuşdu. Sevincdən hamı ağlayırdı. Cibindəki əl dəsmalını çıxarıb dolmuş gözünü silən Səlim kişi buyurdu: - ay bala bir otur görüm, bu şad xəbər sənə haradandır?Ay papa, vallah özümdə təlaşdayam. Bir nəfər tanımadığım Gürcüstan Azərbaycanlısı özünü İsmayıl olaraq təqdim edib qardaşımın sağ olduğunu və Ermənistanın Kirovakan şəhərində kimya kombinatında işlədiyini bildirdi. İsmayıl mənə ərz etdi ki, ermənilər bir milyon pul müqabilində qardaşımı xilas edib bizə təhvil verə bilər. Səlim kişi, düyagörmuş insan idi. Ay bala, bəs soruşmadınkı biz bu pulu ona necə çatdıracağıq?Soruşdum ay papa. Dedi ki, siz pulu hazırlayın mən sizinlə Bakıda görüşəcəm. Səlim kişi dərindən bir nəfəs alıb bildirdi ki, pul məsələsin həll edərik, taki balamızı sağ - salamat görə bilək. Ata - bala belə qərara gəldilər ki, deyilən məbləği tezliklə toplasınlar. Dursun ananın sevincdən gözlərinə işıq gəlmişdi. Pul məsələsini eşitcək tez digər otağa keçib nənədən qalma cehizlik sandıqçasını açıb, anasının hədiyyəsi olan gümüş bel toqqasını, gümüş boyunbağısını gətirdi ki, bunlar mənə əziz hədiyyələr olsa da, oğlumun xilası üçün çox vacibdir. Nofəl fikirə getmişdi. Əhliman müəllimin şeytan - iblis söhbətləri yaddından çıxmamışdı. Yaxşı

biz pulu topladıq, şeytan oyununa girmiş bu adı bəlli yad adam pulu götürüb aradan çıxdı. Bəs onda biz nə edəcəyik?Birdən yadına Gürcüstandan olan, Mingəçevirdəki hərbçi dostu Müseyib düşdü. Bəlkə onunla bir məsləhətləşim. Adı, soy adı, kəndi məlumdur. Müseyiblə məsləhətləşmək yenə bir aydınlıq gətirər. Bu arada əmisi oğlu Çingiz də, Moskvadan gəlmişdi. Əl - qərəz, deyilən məbləğ hazır oldu. Gürcüstanlı İsmayılla Bakıda, yeni Əhmədlidə görüş müəyyən olundu. Bir milyon pulla Nofəl, atası Səlim kişi və əmioğlu Çingiz Yeni Əhmədliyə, İsmayılın təyin etdiyi görüş evinə yollandılar. Birgə məsləhətə gəlib qərarlaşdılar ki, görüşə Nofəl və atası Səlim kişi getsin. Çingiz isə hər ehtimala qarşı görüşün gedişatını izləmək qərarında oldu. Görüş zamanı Nofəl qardaşının sağ - salamat təhvili zamanı pulun veriləcəyini bildirdi. Lakin, İsmayıl pulu alaraq ermənilərə verəcəyi təqdirdə Natiqin təhvil veriləcəyini qətiləşdirdi. İsmayılın bu cür yanaşması Nofəldə şübhələri daha da artırdı. Nofəlin əvvəlcə qardaşım, sonra pul təklifi ilə razılaşmayan İsmayıl, məbləğ ermənilərə verilmədən Natiqin xilas olmasının mümkünsüzlüyünü qeyd etdi. Nofəl İsmayılı qandırdı ki, şər deməsən xeyir gəlməz. Birdən çiy süd əmən haramzadə ermənilər pulu alıb aradan çıxdılar. Onda necə olacaq?Bax burda atalar yaxşı buyurublar, - it də gedəcək, ip də. Xeyli götür - qoydan sonra belə qərara gəldilər ki, bir milyon pulla Nofəl və atası Gürcüstana gəlib pulu verərək yerindəcə qar-

daşlarını təhvil alsınlar. Nofəl üçün şübhələr gerçək olsa da, qardaş həsrətinə son qoymaq hissi daha güclü idi. Beləliklə "xoş xəbər"müjdəçisi İsmayılla olan görüş nəticəsiz olduğundan ayrılmalı oldular. Aradan bir müddət keçəndən sonra Nofəl və Çingiz Gürcüstana gedərək İsmayılla görüşüb pul müqabilində qardaş həsrətinə son qoymaq qərarına gəldilər. İsmayıl görüşə gəlməmişdi. Görüşün baş tutmaması şübhələri daha da artırdı. Belə bir məqamda qərara alındı ki, Marneuli rayonunun Sadaxlı kəndinə gedib dəqiqləşmə aparsınlar. Sadaxlı kəndinə gedən Nofəl və əmisi oğlu Çingiz İsmayılı tapmadılar. Sadaxlı kəndinin yerli Sovetinə müraciət olunsa da, İsmayıl Axundzadə adlı birisinin kənddə yaşamadığı müəyyən olundu. Nofəlin İsmayıl şübhələri özünü doruldtdu. Şeytanın yoldan etdiyi İsmayılın iblis olaraq dələduz roluna girməsi Nofəli çox məyus etmişdi. Əlacsız qalmış Nofəl və əmisi oğlu Çingiz Gürcüstanı tərk edib vətənə qayıtdılar.

İsmayıl dələduzluğundan xeyli vaxt keçmişdi. Hər dəfə İsmayıl aldatmasını xatırlayan Nofəlin beynində Əhliman müəllimin, allahın belə sevmədiyi şeytan - iblis filosofluğu yadına düşürdü. Nofəl şeytan - iblis dələduzluğunu bir daha İsmayılın simasında gördü. Vətən uğrunda erməni işğalçılarına qarşı vuruşub qəhrəmanlıq göstərənin yaxınlarından xeyli pul qoparıb xoş yaşamaq istəyən İsmayıl kimilər hələ ki, cəmiyyətimizdə var. Allah bizi şeytan - iblis oyunlarından qorusun! - de-

yib qardaş həsrəti ilə yaşayan Nofəl yenə də, qardaşının sağ olduğuna inanaraq ölkəsində qapısını döymədiyi idarə qalmadı. Ən çox ümid bəslədiyi Əsir və itgin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət komissiyası olurdu. Komitə daim axtarışda olduğunu Nofələ ərz edirdi. Eyni fikiri Qızıl Aypara cəmiyyəti də söyləyirdi. Nofəlin əmisi oğlu Çingiz daha irəli gedərək Qızıl Xaç Cəmiyyətinin üzvü simasında Natiqin şəkillərini yayaraq əmisi oğlu Natiqin talehi haqqında nə isə öyrənməyə çalışırdı. Çingiz Natiq şəkillərini Qızıl Xaç Cəmiyyətinin üzvü olaraq yaymaqda Ermənistandan, Natiqin vuruşduğu və əsir düşdüyü Alban kilsəsinin şahidləri olan Xramort kəndinin ermənilərindən cavab reaksiyası əldə etmək idi. Lakin, tülkülüyü və hiyləgərliyi ilə seçilən erməni aləmindən səs çıxmırdı. Sanki, ermənilərin qurbağa gölünə daş atılmışdı.

Natiqin sağ olması fikiri Qasımovlar ailəsinin ürəklərindən silinmirdi. İllər ötürdü. Elə ki, yaz gəlirdi, təbiət dirçəlirdi həsrətdən doğan ümidli gözlər yollara dikilirdi. Yaz gəlişinin müjdəçisi olan qaranquşlar yenilənən təbiətə xoş gəldin deyirdi. Təbiətin əsrarəngliyini seyr edən Qasımovlar ailəsi bir gün Natiq gəlişinin müjdəçisini səbirsizliklə gözləyirdilər və ildən –ilə ümidləşirdilər. Elə ki, təbiəti soyundurub çılpaqlaşdıran, bağ - bağçaları solduran, tünd - boz dumanı özünə çətir edən payız gəlirdi, öz gəlişi ilə bahəm məyusluq gətirirdi. Payızın gəlişi nəinki Qasımovlar ailəsini, itgin və əsir dü-

şənlərin yaxınlarını belə bədbinliyə qovuşdururdu. Həsrətlə yanan insanların ömüründən qopan kərpiclər, nəhəng ağacların budağından qopan saralmış yarpaqlarla vəhdət təşkil edirdi. Cavanlıq nişanəsi olan qara saçlar dənə - dənə ağararaq ağ örpəyə bürünüb uca dağlar başına qar yağar simvoluna çevrilirdi. Təbiət və yaşam qanunauyğunluğu budur. Fəsillər - illər bir - birini əvəzlədikcə ömürdən kərpic düşür, saralan yarpaq budağından qopub yeri qucaqlayır, saçlar ağ örpəyə bürünür, yaşlaşmış dövrə qədəm qoyulur və insan oğlu torpağa baxır. Bütün bu qanunauyğunluqla bərabər həsrət yolunu qəlbdən silmək mümkün görsənmir.

Min doqquz yüz doxsan səkkizinci il yeni qədəmləri ilə həyata qədəm qoydu. Ölkədə prezident seçkiləri keçirilirdi. Min doqquz yüz doxsan üçüncü ildə ölkəni virana sürükləyən Xalq Cəhbəsinin başıpozğun hakimiyyətinə son qoyan xalq, vətənə ümidli işıq gətirən Heydər Əlirza oğlu Əliyevi prezident seçərək ölkənin xoşbəxt inkişafına səbəb olmuşdu. Bir beş illiyi yüksək inkişafla başa vuran ölkəni yeni prezident seçkisi gözləyirdi. Ölkənin bütün ceçici vətəndaşları seçimə hazırlaşırdı. Nofəl Qasımov seçki komissiyasının üzvü seçilmişdi. Bütün Mingəçevir şəhəri seçiciləri seçki məntəqələrinə doğru yollanırdılar. Seçicilər arasında erməni işğalçılarının işğal etdiyi ərazilərdən Mingəçevir şəhərində məskunlaşmış məcburi köçkünlər də az deyildi və onlar da, öz seçki hüququndan istifadə edərək seçki

məntəqələrinə axın edirdilər. Seçki komissiyasının üzvü olan Nofəl, bütün Mingəçevir əhli kimi məcburi köçkünlərə qayğı ilə yanaşırdı. Bu məcburi köçkünlər arasında Mingəçevirdə məskunlaşmış Xocalı sakinləri də səs verirdilər. Xocalı sakinləri arasında məktəb direktoru olmuş Cəfər müəllim də, təsadüfi olaraq Nofəldən seçki bülletenini almış və jurnalda şəxsiyyətini təsdiq edən ad və soy adı qarşısında imza atmışdı. Sən demə bu Cəfər müəllim ermənilərə əsir düşənlərdən birisi olaraq Natiqi sağ görənlərdən yeganəsi imiş. Cəfər müəllim səsini verib evinə getmiş olur. Seçicilər arasında Alim Dərələyəzli adlı yazarın "Qeyrət qalası" adlı kitabı marağa səbəb olur. Kitab Pirlər qalasında erməni işğalçı dəstəsinə qarşı vuruşaraq böyük şücaət və igidlik göstərmiş Natiqə həsr edilibmiş. Kitabın üz qabığında Natiqin əli bayraqlı şəkili də təsvir olunubmuş. Seçicilər arasında bir nəfər kitabı nəzərdən keçirib ərz edir ki, bəs bayaq səs verənlərdən biri olan Xocalı sakini və məktəb direktoru Cəfər müəllim ermənilərə əsir düşərkən Pirlər qalasında ermənilərə qarşı vuruşmuş Natiqi sağ görənlərdəndir. Seçicinin bu gözlənilməz xəbəri illərlə qardaş həsrəti ilə yaşayan Nofəlin gözünə işıq gətirir. Bu xoş xəbərdən sevinən Nofəli şeytan - iblis oyununa düşənlərin keçmiş dələduzluqları məyuslandırır. Nofəl bu xəbərə də yeni bir dələduzluq oyunu kimi baxır. Seçici and - aman edir ki, mən həqiqəti sizə deyirəm. İnanmırsınız mən adam göndərim onun özünü bu-

ra çağırsınlar. Cəfər müəllim "Oqonyok"jurnalında əli bayraqlı Natiqin şəkilini görəndən sonra onu sağ gördüyünü bizlərə danışmışdı. Nofəldə, seçici şəxsin "Oqonyok"jurnalına istinad etməsi inam hissini yaradır. Nofəl seçicidən soruşur: - yaxşı bu Cəfər müəllim harada məskunlaşıb ki?Cəfər müəllim "Kür"avarçəkmə bazasında məskunlaşıbdır. Özü də seçki bülletenini sizdən aıb, səs verdi. Yaxşı sən Cəfər müəllimi buraya dəvət edə bilərsənmi?Əlbəttə! - deyə Cəfər müəllimi yaxşı tanıyan seçici bildirdi. Bir azdan Cəfər müəllimi tanıyan yerlisi dəvət üçün "Kür"avarçəkmə bazasına səmtləndi. Nofəl çox həyəcanlı idi. Başına şeytançılar o qədər müsibət açmışdılar ki, ilan vuran ala çatıdan qorxduğu kimi o da, iblis donuna girənlərdən ürpənirdi. Öz - özünə düşüncələrə varan Nofəl həyəcanını gizlədə bilmirdi. Nofəlin bu halını izləyən seçki komissiyasının İcradan olan nümayəndəsi Nofələ işarə etdi ki, sən sakit ol mən bu adamı bir kəşfiyyatdan keçirim. Bu da allah bilir nə adamdı. Əsirlikdə olub, bəlkə satqındır. Ayıq - sayıq olmalıyıq. Bir də ki, sinəndəki ad - soyad yazılmış etiketi gizlətsən yaxşı olar. Nofəl çox təcrübəli olan İcra nümayəndəsinin təklifi ilə razılaşır. Aradan bir az keçmiş bir neçə nəfərin seçki məntəqəsinə doğru gəldiyini görən Cəfər müəllimi tanıyan seçici əlini gələnlərə tərəf uzadıb deyir. Bax o gələnlər arasında boyca balaca, başı papaqlı kişi Cəfər müəllimdir. Seçki məntəqəsinə yaxınlaşan dörd - beş nəfəri salamlayan seçki üzvlərindən icra nü-

mayəndəsi Cəfər kişi ilə maraqlandıqlarını bildirdi. Cəfər müəllim burada sizi tanıyan bu seçici bildirir ki, siz Pirlərdə ermənilərə qarşı döyüşərək şücaət göstərmiş Natiqi sağ görənlərdən birisiz. Sizcə bu kitabdakı şəkildə əli bayraqlı qəhrəman kimdir ki? Bu Natiqin əli bayraqlı şəkilidir, - deyə Cəfər müəllim bildirdi. Natiq əli bayraqlı təslim olanda, oradakı xarici jurnalistlər şəkilini çəkiblər. Mən bu şəkili "Oqonyok"jurnalında görmüşəm. Nofəlin həyəcandan əzələləri bütün əzalarını əsdirirdi. Yaxşı bəs necə olub ki, əli bayraqlı Natiq əsir düşüb?Cəfər müəllimin üzünə məyusluq çökmüşdü. Keçmiş əsirliyi xatırlamaq, elə bir igidin şücaətindən, qorxmazlığından danışmaq onun ürəyini sıxırdı. Ancaq, seçki komissiyasının və seçicilərin sual dolu baxışlarını intizarda qoymayıb keçmişin acınacaqlı mənzərəsini danışmaqda qərarlı oldu. Onun gözü dolmuşdu. Əlini cibinə aparıb, cibindəki dəsmalla göz yaşını sildi. Dərindən bir nəfəs alıb, nə isə axtarırmış kimi üzünü göyə tutdu. Natiq bala kilsədəki bacadan ulduzlara baxdığı kimi.

Biz iyirmi iki nəfər Xocalı sakini ermənilərə əsir düşmüşdük. Xeyli Xocalılı qanına qəltan olunmuşdu. Bizim sağ qalacağımıza ümidimiz yox idi. Ermənilərin sakinlərimizi necə vəhşicəsinə öldürdüklərinin şahidi olmuşduq. İndi isə əsirlikdəydik. Qocalı, arvadlı, uşaqlı ölüm dəqiqələrimizi gözləyirdik. Qəflətən qapı açıldı. İçəri bir neçə erməni silahlısı daxil oldu. İçərilərində bir

saqqallı erməni hərbiçisi bizim dilimizin qol - qıçasını sındıraraq bağırdı ki, bizim Qriqoryan kilsəmizi tutaraq müqavimət göstərən Azərbaycan əsgərləri təslim olmaq istəmirlər. İçərinizdən bir nəfər bizimlə bərabər getməli və kilsədəki düşmənlərimizə təslim olmağı çatdırmalıdır. Əgər müqavimətçilər təslim olsalar biz ermənilər sizi azad edib vətəninizə verəcəyik. Əgər təslim olmasalar sizin hamınızı güllələyəcəyik. İndi deyin görüm kim bizimlə getmək istəyir. İş elə gətirdi ki, kilsəyə getmək üçün mən müəyyən olundum. Məni yaxamdan tutan erməni hərbiçiləri bayıra çıxarıb, qapını yenidən qıfılladılar. Məni erməni hərbiçilərinin yerləşdiyi məkana gətirib, nə edəcəyimi təkrarən başa saldılar. Orada xarici jurnalistlər də görsənirdi. Həmin xarici jurnalistlərdən biri bizimlə bərabər gedəcəydi. Onun əlində fotoaparat görsənirdi. Məni bir neçə erməni yaraqlıları ilə bərabər, əlində fotoaparat olan jurnalistlə bahəm döyüş maşınına mindirib Azərbaycanlı döyüşçülərinin yerləşdiyi kilsənin yaxınlığına aparıb maşını saxladılar. Onlar məni maşından düşürüb tək buraxaraq kilsəyə getməyi tələb etdilər. Silahlı ermənilər döyüş mövqeyində durmuşdular. Geri dönmək mənim üçün ölmək demək olacaqdı. Yağışlı hava idi. Məni kilsədəki bizimki olan əsgərlər erməni bilib vurmasınlar deyə sürünməli oldum. Otları şeh bürüdüyündən paltarım nəm olmuşdu. Kilsəyə doğru sürünərək getdiyim yollarda xeyli erməni meyidləri görüb, ürəyimdə kilsədə müqavimət göstərərək er-

mənilәri gәbәrtmiş әsgәrlәrimizә duaçı oldum. Hava dumanlı vә çiskin olsa da, kilsә üzәrindәki bayrağımızı görüb xeyli sevindim. Əhsәn sizә olsun, döyüşçü balalarım. Kilsәdәki vәtәn bayrağının görünüşü elә ermәni yaraqlılarına ölüm demәkdi. Ürәyimdә - beynimdә olan qarmaqarışıq fikirlәr mәni haldan - hala salırdı. Görәsәn bizimkilәr tәslim olub, iyirmi iki nәfәr arvadlı, uşaqlı әsirlәri xilas edәcәklәr, yoxsa tәslim olmayacaqlar vә әsirlikdә olanlar güllәlәnәcәklәr. Dilim - ağzım qurusun bu ermәni vәhşilәrinә bel bağlamaq olmaz. Bunların lap әvvәldәn ipi qırıq olubdur. Birdәn bizimkilәr tәslim oldular. Bu vәhşilәr rәhmsiz cәlladdırlar. Tәslim olanları da, әsirlәri dә güllәlәdilәr onda bәs necә olacaq?!Elә bu fikirlәrlә çarpışarkәn bir dә gördüm ki, kilsәnin lap yaxınlığındayam. Ya allah deyib, kilsәdәki döyüşçülәrimizә sәslәndim. Kilsәdәn bir sәs gәlmәdi. Qurban olduğumuza duaçı olub kilsәyә daxil olanda üzü tüstüdәn qaralmış, ayağında rezin çәkmәlәri, әynindә idman paltarı olan әli silahlı cavanı görüb mәәtәl qaldım. Cavan mәnim kim olduğumu soruşdu. Mәn ona Xocalı әsiri olduğumu deyib әrz etdim ki, mәni bura ermәnilәr sizlәri tәslim olmağa göndәrib. Tәәccüb mәni bürümüşdü. İstәr - istәmәz sorğuladım. Ay bala bәs sәn tәk vuruşursan ermәnilәrә qarşı?Yox mәn tәk deyildim, yoldaşlarım hәlak olublar. Beş gün olar ki, ac - susuz tәkbaşına vuruşuram. O, mәndәn su istәdi. Su hardanıydı. Cibimdә olan quru çörәyi ona verdim. Cavan әsgәr quru çörә-

yi dili ilə isladaraq bir təhər yedi. Bir azdan cana gəlib mənə danışdı ki, Xramort yüksəkliyini ələ keçirtdikdən sonra, kilsədə yerləşdik. Həlak olanlarımız da az deyildi. Bir neçə əsgərimiz Ağdama kömək üçün getsələr də, hələ ki kömək gəlməyib. Dözmədim, - deyə Cəfər kişi sözünə davam etdi. Ay oğul sən təkbaşına ac - susuz vuruşanacan, əsgər yoldaşlarının getdiyi yolla Ağdama gedə bilərdin axı?!Cavan əsgər sərrast gözləri ilə məni süzüb dedi: - mən döyüş yerimi tərgidib gedə bilməzdim. Mənə verilən tapşırığı yerinə yetirməliyəm. Komandirə söz vermişəm. Natiqin əsgər qürurundan şərəf duydum. Ay oğul, sən təkbaşına döyüşərək bu erməni alçaqlarını vahiməyə salmısan. Deyirlər ki, kilsədə bir batalyon Azərbaycanlı əsgəri bizimlə vuruşur. Natiqin çöhrəsində istehzalı təbəssümü görüb kilsəyə bir anlıq nəzər saldım. Birdən gözüm qapı və pəncərədə döyüşə hazır silahları görüb anladım ki, bu qorxmaz cavan kilsənin müxtəlif yerlərindən atəşlər edərək erməni yaraqlılarının xeyli hissəsini məhv etmiş, yerdə qalanlar isə bir batalyon olan bu cavanla bacara bilməyib küyə düşmüşlər. Oğlum halal olsun sənə! Ermənilərdən ayrılıb kilsəyə gələndə xeyli erməni leşlərini gördüm. Natiq sakit baxışları ilə xeyli qürurlu görsənirdi. Birdən çöhrəsində qəzəb yaranmış Natiq məndən soruşdu. Yaxşı məni bir anlat görüm bu alçaq erməni quldurları nədən səni təslimçiliyə göndərmişlər? Natiqin bu sualı dalağımı sancdı. Deyəsən təslim olmayacaq, - deyə düşün-

düm. Oğlum, mən iyirmi iki qocalı, uşaqlı, qadınlı Xocalı əsirləri içərisindən seçilərək buraya gətirilmişəm. Əgər təslimçilik olmasa ermənilər içərisi mən qarışıq əsirləri güllələyəcəklər. Natiq qəzəbli olaraq dedi: - təslim olmaq nədir!?Mən son damla qanıma qədər vuruşacam. Birdən silahları bir - bir nəzərdən keçirdib vur–tut iki gülləsi qaldığını gördü. Dedim oğul əgər təslim olmayacayıqsa qayıdıb düşmən gülləsinə tuş gəlincə elə o iki güllədən biri ilə məni vur. Natiqin baxışlarından hiss etdim ki, qəti qərar vermək üçün düşüncələrə dalıb. Birdən silahı əlinə alaraq iki gülləni göyə sovurdu. Tez kilsənin üstünə qalxıb bayrağı götürdü. Bayrağı əlinə alıb, mənimlə kilsədən bayıra çıxaraq təslim olmağı seçdi. Biz bayıra çıxanda ermənilər bizi əhatəyə aldılar. Kilsədən bir nəfər əsgərin əli bayraqlı çıxması, erməniləri bərk pərt etmişdi. Batalyon axtaran erməni silahlıları kilsəni mühasirəyə alsalar da, kilsədə silahlıların olmadığını görüb pərt halda geri qayıtdılar. Xramort kəndinin erməni sakinləri Natiqin üstünə hucum çəkmək istəsələr də, erməni hərbiçilərinin xarici jurnalistlərin olduğunu bildirməsi onları çəkinməyə məcbur etdi. Əlində fotoaparatı olan xarici jurnalist isə əli bayraqlı igid Natiqin şəkillərini çəkməkdə davam edirdi. Bizi erməni qərargahına apardılar. Məni Natiqdən ayırıb əsirlərin düşərgəsinə gətirdilər. O andan sonra mən Natiqi bir daha görmədim. Cəfər müəllimin heyrətlə nəql etdiyi Natiq şücaəti ceçki kollektivini kədərə bürümüşdü. Bir çoxla-

rının gözləri dolmuşdu. Nofəl isə qardaş həsrəti ilə yanan qəlbinin acısını çəkərək sellənən göz yaşlarını hamıdan gizlədib hönkürtüsünü boğmaqda idi. Gözləri dolmuş İcra nümayəndəsi Natiq talehini nəql edən Cəfər müəllimin səmimilikdən döğan göz yaşlarını seyr edib, haqqdan danışan bu müəllimin vicdan qanununa inandı. Cəfər müəllim isə sözünə davam edərək bildirirdi ki, hələ həyatında belə bir qorxmaz igid görməmişdi. Bu günə qədər mən o xilaskar igidin, qorxmaz əsgərin sonrakı talehinin necə olacağını yaddan çıxarda bilməmişəm. Görəsən onun qohumlarının bu igid haqqında xəbərləri varmı?Görəsən bu igid balanın sonrakı talehi nə yerdə qaldı? Seçkidə üzv olan İcra nümayəndəsi özünü saxlaya bilməyib soruşdu. Sizcə Natiqin sonrakı talehi necə ola bilərdi. Vallah erməni yaraqlıları onu kilsədə tək döyüşən görəndə, onlar dişi bağarsıqlarını kəsən köpəyə oxşayırdılar. Onlardan hər əməl gözləmək olar. Ancaq, Natiq bir igid olaraq vətən eşqi ilə yaşayan bir xilaskar kimi yaşamağa layiqdir. Kaş mən onu sağ - salamat görəydim. Kəşfiyyatını davam etdirən İcra nümayəndəsi Cəfər müəllimdən soruşdu ki, bəs siz və digər iyirmi iki Xocalı əsirləri erməni əsirliyindən necə xilas olundunuz?Bizi, Xocalı əsirlərini 14 mart 1992 - ci ildə Ağdam qəbiristanlığı olan yerdə dəyişdirdilər. Sonradan mən Mingəçevirdə məskunlaşaraq "Kür"avarçəkmə bazasında yerləşməli oldum. Nofəl qardaşını yeganə sağ görən Cəfər müəllimin danışıqlarına qulaq assa da,

ona diqqət yetirərək qardaşının jurnaldakı şəkilinin surətini gözlərində axtarırdı. Bunu hiss edən İcra nümayəndəsi Cəfər müəllimdən sordu ki, bu müddət ərzində sizi və Xocalı əsirlərini xilas edib təslim olaraq əsir düşən Natiqin ailəsi ilə heç maraqlandınızmı?Əsirlikdən qurtulduqdan sonra da, "Oqonyok" jurnalındakı Natiq şəkilini görəndən sonra da bu igid barədə hər yerdə danışmışam. Ancaq, Allahın qismət etdiyi təsadüf bu günə düşübdür. Əgər Natiq ailəsindən birini tapsaydım çox xoşbəst olardım. İcra nümayəndəsi Nofəli ona göstərib dedi: - tanış ol. Natiq itgin düşəndən bəri qardaşının axtarışı yolunda başı bəlalar çəkmiş böyük qardaş Nofəl Qasımov. Cəfər müəllim sanki, himə bənd imiş. Özündən boyca böyük olan Nofəlin boyuna sarmaşıb hönkürtü ilə ağladı. Onlar qucaqlaşıb göz yaşlarına güc vermişdilər. Nofəl qardaşını yeganə sağ görən Cəfər müəllimi qucaqlayaraq bağrına basıb ondan qardaşının iyisini almaqla təsəlli tapmalı olurdu. Nofəl dəhşətə gəlmişdi. Qardaşı itgin düşdüyü vaxtdan bəri onun axtarışını apararaq bu yolda iblis mahiyyətli dələduzlara rast gəlsə də, təsadüfün yaratdığı bu vacib görüş onu heyrətə salmışdı. Cəfər müəllim Nofələ üz tutub bildirirdi ki, əgər igid qardaşın xilaskarlıq missiyasını qəbul etməsəydi mən indi sağ - salamat olaraq sizinlə görüşə bilməzdim. Bütün iyirmi iki Xocalı əsirləri dəyişdirildikdən sonra xilaskarına, onun sağ qalmasına duaçı olmuşlar. İnanıram ki, igid və qorxmaz Natiqimiz nə

vaxtsa sağ olaraq doğma Mingəçevirinə, ailəsinə qovuşacaqdır. Nofəl və Seçki komissiyasının üzvləri bir ağızdan allah ağzınızdan eşitsin! - dedilər. Nofəl bildirdi ki, o qardaşının sağ olmasına qəlbən inanır. İkincisi də, ortada bir sübut, bir fakt olmaya - olmaya mən necə inanmaya bilərəm. Mənim ürəyim mənə diqtə edir ki, Natiq sağdır. Natiqi sağ görən Cəfər müəllim media işçilərinin diqqətini cəlb etdiyindən canlı Natiq şahidçiliyi bütün Azərbaycanımızda işıqlandırılaraq tanıdıldı.

Natiq qəhrəmanlığının əfsanəsi nəinki Mingəçevirdə, bütün Azərbaycanımızda geniş vüsət almağa başlamışdı. Natiq qəhrəmanlığı bütün dövlət strukturlarının diqqət mərkəzinə çevrilmişdi. İlk olaraq Natiq qəhrəmanlığını əbədiləşdirmək üçün Mingəçevir şəhərində, şəhər İcra hakimiyyətinin təşəbbüsü ilə Natiqin böyüyüb başa çatdığı binanın böyründə"Xatirə bulağı" yaradıldı, divara barelyefi həkk olundu. "Xatirə bulağı"Mingəçevirlilərin və şəhərə qonaq gələnlərin ziyarətgahına çevrilərək Nofəl ailəsini şərəfləndirdi. Mingəçevir şəhər İcra hakimiyyətinin Natiq qəhrəmanlığını əbədiləşdirməsini yerli hakimiyyətin qayğısı kimi başa düşən və bunu minnətdarlıq hissi ilə qəbul edən Nofəl qardaşının son talehinə aydınlıq gətirmək üçün bu məsələ ilə məşğul olan idarələrin qapısını döyməkdən əl çəkmədi. Əsir və itgin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası bütün mövcud imkanlarından istifadə edərək axtarışlarını davam etdi-

rirdi. Ancaq, bu axtarışlar davam etdirilsə də, Natiqin itgin düşəndən sonrakı talehini çətinləşdirən amil özünü göstərirdi. Bu çətinliyi yaradan amil Natiqin vuruşduğu kilsənin, şahidlik edə biləcək Xramort kəndinin sakinlərinin hələ də erməni işğalı altında olması idi. Natiq talehinin aydınlaşmasına əngəl olacaq bütün çətinliklərə baxmayaraq ölkəmizdə Natiq qəhrəmanlığının əks - sədası görsənməkdə idi.

Milli təhlükəsizlik Nazirliyinin təşəbbüsü ilə rejissor Hafiz Nəzərli Natiq qəhrəmanlığını əks etdirən "Cəsarətin heyrət məqamı" adlı sənədli film ərsəyə gətirdi ki, bu film 2001 - ci ildə Lider televiziyasında nümayiş etdirilərək əfsanəvi Natiq qəhrəmanlığını vəsf edənlərin qəlbinə işıq gətirmiş oldu. Natiq qəhrəmanlığı nə qədər vüsət alıb Natiq sevərlərin ürəklərini fəth etsə də, sonu bilinməyən Natiq axtarışlarının nəticəsizliyi Səlim kişini üzürdü. Xeyli illər keçsə də Natiqdən bir səs - soraq gəlmədiyindən Səlim ömründən kərpiclər qoparaq onu əbədiliyə aparırdı. Atasının ələmləşən halına dözməyən Nofəl də ildən - ilə məyuslaşırdı. Bütün şəhidlərin ziyarətə gələnləri nəşi torpağa verilmiş yaxınının ruhuna dua edərək, torpağın nurla dolsun, - deyə bilirdilər. Mən isə nəşi torpaqda uyumayan qardaşımın baş daşındakı şəkilini öpməklə kifayətlənirdim. Heç olmasa qardaşımın nəşindən bir əlamət belə torpağa verilsəydi, qəlbim sakit olar, qardaşımın ruhuna dualar oxuyardım. İndi nəşi olmayan"qəbir"i necə qucaqlayım, necə

qardaş deyərək hönkürüm?!Mən qardaş dərdinə dözə bilmirəmsə, ömrünün sonlarını oğul dərdi ilə keçirən və günü - gündən əriyən atam necə dözsün!Ahu - zar edərək talehi bilinməyən itgin oğul dərdini ürəyində gəzdirən atam, gözüm görə - görə sual edir ki, mən oğlumun ölümünü bilsəydim heç olmasa sakitləşərdim ki, o biri dünyamızda balamla qovuşacam. Mən indi necə dünyamı dəyişim ki, o biri dünyamda tənha olacam!?Bu dərdi çəkə bimirəm. Allahım mənə oğlumun son talehindən xəbər ver! Belə vaxtlarda atasının oğul dərdinə dözə bilməyən Nofəl kənara çəkilər və göz yaşını boğuq səslə sellədərdi. Bəli, ata oğul dərdinə dözmədi. 2011 - ci ilin soyuq noyabr ayında oğul həsrəti ilə döyünən ata qəlbi ömürə son qoyub əbədiyyətə qovuşdu. Bəd noyabrın soyuq torpağı nisgilli atanı əbədi ağuşuna aldı. Nofəl atasını Gəncədə dəfn edib, anası Dursun xanıma təsəlli oldu. Anası Dursun xanımin qayğısını çəkən Nofəl gecəsi - gündüzü ahu - zarla keçən ananın ərşə çəkilən oğul fəryadına dözüm göstərməyə məhkum edilmişdi. Qəhrəman qardaşının itgisinə dözən, əziz atasını dəfn edən Nofəl qəmginlik içində qıvrılsa da, özündə qüvvə tapıb anasına, ailəsinə dayaq olaraq qardaş axtarışını davam etdirməkdə idi. Bəzən təbiət də öz şıltaqlığını elə göstərir ki, sanki əziyyətlərə dözümlü olanlara yeni əzablar verməklə iradəsinə arxalananlarin səbrini imtahana çəkir. Məhz Nofəl də öz iradəsinə arxalanan dözümlülərdən olurdu. Soyuq yanvar ayında dünyaya

göz açıb, elə soyuq mart ayında cavanlığının ən gözəl çağında vur - tut 21 yaşında itgin düşən və Nofəl üçün dərdə çevrilən qardaş yoxluğu təbiətin imtahanı deyildimi? İki min on birinci ilin soyuq noyabrında qəlbində oğul dərdini əbədiyyətə aparan ata ölümü, bu da azmış kimi iki min on üçüncü ilin bəd noyabr soyuğunda nişanlı qızının dünyasını dəyişməsi şıltaq təbiətin Nofələ verdiyi zülm deyildimi? Yaxşı deyiblər, - səbir Allahdan, səbirsizlik şeytandan. Şeytan alovuna çox yanmışdı Nofəl. Allahın qüdrətinə qəlbi ilə bağlı idi. Bir də ki, atalarımız çox yaxşı buyurublar: - səbir ilə halva bişər, ey qora, səndən. Bəsləsən atlas olar tut yarpağından. Səbirli və dözümlü idi Nofəl. Odur ki, olan zülmlərə dözüb, itgin düşərək sorağı bilinməyən qardaşının axtarışına davam edib, qardaş təəssübkeşliyindən əl çəkmirdi.

İllər keçdikcə Natiqin qəhrəmanlığı haqqında həqiqətə uyğun olub - olmayan məlumatlar yayılırdı. Belə bir vaxtda rejissor Elçin Musaöğlu Natiq Qasımov qəhrəmanlığı haqqında həqiqətləri əks etdirəcək sənədli film çəkmək qərarına gəlir. O, Natiq haqqında yaranan yanlış məlumatlara son qoymaq arzusunda idi. Elçinə görə qəhrəman haqqında ədaləti bərpa etməyəndə yanlışlıqlar baş alıb gedir. Belə yanlış məlumatlardan biri də guya iki min on altıncı il Erməni - Azərbaycan hərbiçilərinin toqquşması zamanı Natiqin qranatla erməni

hərbiçilərinin öldürməsi xəbəri idi ki, bu da həqiqəti əks etdirmirdi. Rejissor Elçin Musaoğlu Natiq qəhrəmanlığını araşdırmağa başlayır və bu araşdırmalardan heyrətə gəlir. Belə qəhrəmanları tarix tək - tək yetişdirir. Natiq əfsanəvi qəhrəmanlığı ilə mənsub olduğu xalqın tarixinə igidlik salnaməsini yazdığı halda, onun adı itgin düşənlərin siyahısında hallanır. Araşdırma zamanı qəhrəmanın qardaşı Nofəldən, uşaqlıqdan tutmuş itgin düşənə qədər olan Natiq həqiqətlərini öyrənən rejissor iki min on altıncı ildə Natiq qəhrəmanlığının həqiqətlərini əks etdirən sənədli film çəkməyi qərarlaşdırır. Sənədli film Mingəçevir şəhərində və sonralar Moskva və İtaliyada ərsəyə gətirilir. İyirmi dörd fevral iki min on yeddinci ildə C. Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında sənədli film çəkilərək təqdimatı keçirilir. Qəhrəman qardaşı haqqında çəkilmiş sənədli filmin təqdimatında iştirak edən Nofəl, qardaş həsrətinə doğan işıqlı bir günün gələcəyi ana inanır. Məhz bu inamın nəticəsiydi ki, Natiq qəhrəmanlığını üzə çıxaracaq Natiqsevərlər dəstəsi fəaliyyət əhatəsini genişləndirirlər. Bu fəaliyyət əhatəsi Azərbaycanımızla bərabər, vətəndən kənar hüdudlarda belə genişlənməyə başlayır. Qardaş Türkiyədə erməni lobbisinə qarşı informasiya mübarizəsinə başlayan "ASAS" mediya qurumu iki min on doqquzcu ildə yaradılır.  Natiq qəhrəmanlığı, yaxud

onun sağ olması barədə müxtəlif informasiyalar mediyada peyda olurdu. Bu informasiyalardan biri yenə də Natiqin sağ olaraq Ermənistanın kimya kombinatında işlədiməsi versiyası idi. ″ASAS″ mediya vətənpərvərləri Natiq Qasımov barədə məlumat verənlərə 1000ABŞ dolları, sağ olaraq onu İan, Rusiya, Gürcüstan və Türkiyədə təhvil verənlərə 10. 000ABŞ dolları pul mükafatı verilməsini vəd edirdilər. ″Broken Pot Media″şirkəti Natiq qəhrəmanlığını araşdıraraq çəkdiyi ″Oğul″sənədli filmi ilə bir çox həqiqətləri üzə çıxarmış oldu. ″Broken Pot Media″şirkətinin rejissoru Karan Sinqh iki min iyirmi birinci ildə Natiq qəhrəmanlığını işıqlandıran qırx altı dəqiqəlik sənədli filmi üç il ərzində Azərbaycanın Xanlar rayonu(indiki Göygöl rayonu nəzərdə tutulur) ərazisində müəyyən edilmiş məbəddə, Mingəçevir və Gəncə şəhərlərində ərsəyə gətirir. Eyni zamanda Ermənistan, Rusiya, İtaliya və Böyük Britaniyada xeyli şahidlər dindirilərək Natiq qəhrəmanlığı həqiqətlərini üzə çıxarmaq mümkün olur. Natiq Qasımovun ermənilərə təslim olub əli bayraqlı əsir düşmə anını, yaxud erməni hərbiçiləri əhatəsində sorğu - suala tutulmaq anını İtalyan fotoqraf Enriko Sazrini şəkillərdə təsvir etmişdir. Bu şəkillərin içərisində əsir Natiqi sorğuya tutan erməni səhra komandiri V. Balasanyanın əsiri dindirməsi anının şahidi olmuş Enriko Sazrinini əsirin sonrakı talehi çox düşün-

dürmüşdü. O, "Broken Pot Media" şirkətinə bu barədə danışaraq ermənilərin əsirlə necə rəftar edə biləcəklərini, işgəncələr verəcəklərini, yaxud öldürəcəklərini təsəvvür olaraq dilə gətirir. Enriko Sazrini eyni zamanda Natiqin əsirliyi zamanı çəkmiş olduğu xeyli şəkilləri axrxivindən götürərək "Broken Pot Media" şirkətinin nümayəndələrinə təqdim etməklə Natiq qəhrəmanlığı haqqında bir çox qaranlıq məqamlara aydınlıq gətirmiş olur. "Oğul"sənədli filminin çəkilişi zamanı Enriko Sazrininin çəkdiyi şəkillərdə təsvir olunmuş bir çox şahidlərin dindirilməsi əsir Natiqin qəhrəmanlığını üzə çıxarmaqda böyük rol oynayır. Şəkillərin birində səhra komandiri olaraq əsiri sorğuya tutmuş V. Balasanyanın o vaxtkı cavan şəkili təsvir olunmuşdur. Sonradan general olaraq "şahid qismində"sorğulanan V. Balasanyandan əsir düşmüş Natiq barədə soruşularkən verdiyi ifadə "general"tülkülüyünün barizliyini əks etdirir: - "Əgər bizdə əsir qeydiyyata alınarsa, sonradan əsirin yoxa çıxması qeyri - mümkündür". Bəli, tülkü general çox gözəl bilir ki, əsiri qeydə almadan onu yox etmək problem yaratmır. Sorğu - suala tutduğu əsirin şəkilinə uzun müddət baxış keçirən hiyləgər "general" şəkildəki əsirin tanış gəldiyini, ancaq tanıya bimədiyini deməsi də onun tülkülüyünə dəlalət edir. Ən dəhşətlisi isə hiyləgər "generalın" şəkildə təsvir olunan cavanlığını inkar

etməsidir. Səhra komandiri olmuş Vitonun və sonradan"general"V. Balasanyanın öz çavanlığını inkar etməsi onunla birgə döyüşlərdə iştirak etmişlər tərəfindən ifşa olunur. Bunlardan biri İrəvanda yaşayan və istefada olan polkovnik - leytenant (podpolkovnik)Romik Mxitaryandır. O, şəkili görcək əsiri sorğu - suala tutan cavan səhra komandirinin Vito (Vitali Balasanyan) olduğunu qeyd etməsidir. Kilsə döyüşlərində iştirak etmiş və sonradan Rusiyanın Saratov şəhərində yaşayan digər bir erməni hərbçi Aşot Movsesyan şəkildəki səhra komandirini görcək deyir: - "bu ki, Vitodur. Hə, o özüdür. "Aşot bildirir ki, Vito Azərbaycan dilində elə təmiz danışır ki, heç bilməzsən ki, o ermənidir. Səhra komandiri olaraq hərbi taktikanı bilirdi. Ona görə əsirlərdən birini kilsəyə göndərib, kilsədə vuruşanları təslim olmağa məcbur etmişdi. Kilsədə erməni yaraqlılarına qarşı vuruşmuş Natiq barədə isə Aşot buyurur ki, o çox qorxmaz, döyüşkən bir igid idi. Biz ona qumbara atırdıq, o həmin qumbaranı bizə qarşı istifadə edirdi. Sonra bu erməni hərbçi Natiqin sonrakı talehi barədə sorğulanarkən özünün əsir sorğusunda iştirak etmədiyini bildirir. Lakin, sonralar onunla birlikdə hərbdə olan dostlarından əsir barədə soruşarkən öyrənir ki, əsir doğranılaraq öldürülüb. "Oğul"filminin müəllifləri belə qərara gəlirlər ki, sənədli filmin qəhrəmanı Natiq Qasımov səhra

komandiri, Xocalı cəlladı, qana susamış qaniçən V. Balasanyan tərəfindən işgəncələr verilərək qətlə yetirilmişdir. Nəhayət, 28 fevral 2022 - ci ildə Nizami kino mərkəzində "Oğul"sənədli filminin təqdimatı keçirilir. Sənədli filmin təqdimatında müəlliflər və qəhrəmanın yaxınları da iştirak edirlər. "Oğul"sənədli filmin nümayişi nəinki Azərbaycanımızda, vətəndən kənarlarda böyük qəhrəmanlıq rezonansı doğurur. Natiqin qeyri - adi qəhrəmanlığı dövlətimiz tərəfindən yüksək qiymətləndirilir.

Azərbaycan Respublikasının prezidenti İ. Əliyev 25 iyun 2024 - cü il tarixli sərəncamı ilə Natiq Səlim oğlu Qasımova (ölümündən sonra) Azərbaycanın Milli Qəhrəmanı fəxri adını verir. Ölkə Prezidentinin Natiq Qasımova verdiyi bu yüksək fəxri ad, Nofələ ikiqat sevinc gətirmiş olur. Otuz iki ildən sonra qardaşı Natiqin əfsanəvi qəhrəmanlığı ölkə prezidenti tərəfindən yüksək fəxri ada layiq görülür. İkinci bir tərəfdən fəxri adın verilməsi günü Nofəlin anadan olduğu günə təsadüf etmişdi. Nofəl anadan olduğu gündə, ölkə prezidentinin Natiqə verdiyi fəxri adın həmin günə düşməsini Nofəl təsadüf hesab etməyib, ölkə prezidentinin həssaslığı və qayğısı kimi qiymətləndirdi. Natiq qəhrəmanlığına verilən bu yüksək ad ölkəmizdə elə əks - səda doğurdu ki, bu əfsanəvi qəhrəmanlığa dövlət nümayəndələri, yaradıcı elm və ədəbiyyat xadimləri biganə qala bilmədilər.

Natiq qəhrəmanlığı haqqında məqalələr tirajlanmağa başladı, bədii əsərlər, poetik şeir nümunələri çap olunudu. 2024 - cü ildə Natiqin vaxtilə təhsil aldığı Mingəçevir şəhər 4 nömrəli orta məktəbə Milli Qəhrəman Natiq Qasımovun adı verilərək əbədiləşdirildi. Bir çox dövlət idarələrində, mədəniyyət, elm və təhsil ocaqlarında Natiq Qasımovun qəhrəmanlığına həsr olunmuş tədbirlər təşkil edilir, təqdimatlar keçirilirdi. Qəhrəman oğlu Natiqin ölkə səviyyəsində ən yüksək ad almaqla qiymətləndirilməsi Dursun ananın oğul həsrətli qəlbini sakitləşdirsə də, uzun və ağır xəstəlikdən sonra 83 yaşında dünyasını dəyişməsi Nofəl qəlbini yandırdı. Özü deməli anasının son sözü, - mən Natiqin yanına gedirəm, çox xoşbəxtəm ki, oğlumun yanına gedirəm! - oldu. Şərəfli ölüm haqdır. Həyat isə davam edirdi. 2025 - ci ilin ortalarında Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə Sumqayıt Dövlət Dram teatrının müəllif heyəti Natiq Qasımov qəhrəmanlığını işıqlandıran "Ölməz"film - tamaşasını nümayiş etdirdi. Hazırda Natiq Qasımovun adı verilmiş 4 nömrəli orta məktəbin önündə Milli Qəhrəman Natiq Qasımovun büstünün qoyulması üçün hazırlıqlar gedir. Nofəl igid qardaşının qəhrəmanlığını təcəssüm etdirən səkkiz guşəli Milli Qəhrəman qızıl ulduzunu sinəsində fəxrlə gəzdirərək Natiqini mənən yaşadır.

Nofəlin qardaşı barədə arzuları çoxdur. Pirlər kəndi yaxınlığındakı düşmənə qarşı vuruşduğu və əli bayraqlı əsir düşdüyü Alban məbədində qardaşı Natiqin elə əli bayraqlı heykəlinin qoyulmasını arzulayır. Bu Natiq qəhrəmanlığını yad edəcək xalqımız üçün böyük ziyarətgah olardı! - deyir.

Arzuların çin olsun, qəhrəman Natiqin təəssübkeş qardaşı!

*Son*



## AH, RƏHMSİZ DÜNYA!
(povest)

*Dust bipərva, fələk birəhm, dövran bisükun,*
*Dərd çox, həmdərd yox, düşmən qəvi, tale zəbun.*

***M. Füzuli.***

Onlara Iraq Türkmanları deyərdilər. Ulu babaları Kərkük elinin Altınkörpü qəsəbəsindən İranın Azərbaycan şəhəri Təbrizə köç etmişdilər. Babaların babası Mustafa dövrünün el xanəndəsi kimi tanınardı. Təbrizlilər şaqraq səsli Mustafa xanəndəni tez - tez el şənliklərinə dəvət edər və onun sirli, ürəyəyatımlı Kərkük mahnılarından feyziyyab olardılar. Vaxtilə yaşadığı Altınkörpü qəsəbəsində bütün ətrafı başqa millətlərin nümayəndələri olduğundan el şənliklərinə çox az dəvət ediləirdi. Həməşə deyərdi ki, xanəndəni dolandıran xalqdır. Xalq deyəndə dili, musiqisi bir olan Təbriz ellərini nəzərdə tutardı. Məhz bu yaxınlığı nəzərdə tutan xanəndə Mustafa yaşam məkanı olaraq Təbrizi seçmişdi. Təbrizdə Kərkük xalq mahnısını ifa edən Mustafa el arasında məşhurlaşmışdı. Bütün Təbriz eli xanəndə Mustafanın oxuduğu mahnıları sevərək dinləyərdilər:

Evlərinin dalı yonca,
Yonca qalxmış, dam boyunca
Boyu uzun, beli incə
Ninnə, yarım, ninnə
Əsmər yarım, ninnə

Mustafa kişinin oğlu Rəsul hələ cavan ikən atasının yolu ilə gedərək Təbriz toyxanalarında Kərkük mahnılarının mahir ifaçısı kimi hörmət qazanaraq el arasında tanınmışdı. O, Kərkük mahnılarını elə şirin ifa edərdi ki, Təbrizlilər ona Kərkük aşığı, - deyə müraciət edərdilər. Bir də görərdin Kərkük aşığı vəcdə gəlib Kərkük mahnısını şirin ləhcə ilə ifa edir:

Evlərinin dalı qaya,
Qayadan baxarlar aya
Sənsiz keçən günlərin
Gəlməz heç bir daha saya.

Rəsul Təbrizli Cahan xanımla ailə qurub Qədir adlı oğul sahibi olmuşdu. Qədir atasının yolu ilə getməyib tamam fərqli bir yol tutmuşdu. Təbriz daneşgahında təhsilini davam etdirməklə bərabər, şah Qacar rejiminə qarşı çıxan məşrutəçilərə qoşulmuşdu. Atası Rəsul onu bu yoldan çəkindirib xanəndəliyə cəlb etmək istəsə də, istəyinə nail ola bilməmişdi. O, oğlunun yaxşı səsə malik olduğunu bilirdi. Ancaq, Qədir haqq işi uğrunda olan mübarizəsini tərgitmək istəməmişdi. Təbriz məşru-

təçilərinə qoşulan Qədir Səttar xan, Bağır xan kimi komandanlardan fəxarət duyur, gizli təşkilatlarda silahdaşları ilə bərabər təşkilatlanırdı. Şah Qacarın zalımlığını nəzərə alan məşrutəçilər, hətta silahlanmağı da unutmamışdılar. Məşrutəçilər Səttar xanın komandanlığı ilə ilk həmlədə Təbrizin böyük bir hissəsini öz əllərinə ala bilmişdilər. Ancaq, qanlı çəkmələrini məşrutəçilərin razılığı iləTəbrizə soxan Rus ordusu öz milli nümayəndələrini qorumaq adı altında Təbrizə daxil oldular. İlk vaxtlar məşrutəçilərə xoş münasibət göstərən Rus ordusu, tədricən məşrutəçiləri təqib edərək təzyiqlər göstərib xayin mövqelərini ortaya qoydular. Elə bu xayin mövqeyini təqiblərlə bildirən Ruslar məşrutəçilərin pərən - pərən düşməsinə şərait yaratdılar. Bir çox məşrutəçilər Təbrizdən qaçaq düşdülər. Oğlu Qədirin qacaq düşməsi Rəsul kişini pərişan etdi ki, bu halətə dözməyən ata bir neçə vaxtdan sonra dünyasını dəyişdi. Qədir Rus ordusunun törətdiyi təqiblər nəticəsində Təbrizdən qaçaq düşüb Araz çayı kənarında yerləşən kənddə məskən salmalı oldu. Kəndin adı Minbaşı idi və elə də böyük kənd deyildi. Barmağınan sayılası iyirmi - otuz ev olardı. Kənddə molla məktəbi olsa da, Qədir evlərdə dərs vermyə başladı. Evlərdə dərs verərək kəndin hörmətini qazanan Qədir Mədinə adlı bir xanımla ailə də qurdu. Bu izdivacdan bir oğul dünyaya göz açdı ki, adını Mürsəl qoydular. Oğlunun kiçik vaxtlarından tərbiyəsi ilə məşğul olan Qədir ona təhsil verərək Təbrizə gedib da-

neşgahda təhsil almasına ciddi önəm verdi. Heyhat, Qədir yatalaq xəstəliyinə tutulub xeyli müddət müalicə alsa da, bu sağalmaz xəstəlik onun oğul arzularını ürəyində qoyub, əbədiyyətə qovuşdurdu. Əri Qədirin vaxtsız vəfatından kədər duyan Mədinə onun arzularını çin etmək üçün oğlunun təhsilinə yardımçı oldu. Bir müddətdən sonra Təbrizə gedib daneşgahda daneşçu olan Mürsəl müəllim ixtisasına yiyələnərək kəndinə, tək yaşayan anasının yanına qayıtdı. Mürsəl dərs deməklə bərabər günlərini Araz çayı sahilində keçirər və Araz çayının o tərəfində öz danışdığı dildə tarlada çalışıb pambıq yığanların şirin ləhcəli söhbətlərinə qulaq asar, mahnılarını dinləyərdi. Hərdən kefinə düşəndə o taylıları haylayaraq cavab alar və şən əhval - ruhiyyədə olardı. Mədinə ana oğlunun Araz çayı boyu sərgüzəştlərini görər və çalışardı ki, oğlunun başını yığıb ailə sahibi etsin. Ancaq, Mürsəl anasının evlənmə təklifinə laqeyd yanaşardı. Mürsəlin xəyalında o taydakı insanların xoşbəxt yaşamı dövr edərdi. Arazın o tayına olan maraq o qədər güclü idi ki, cay qırağı gəzintilər edəndə çayın dayaz hissəsindən keçərək o taylı olmağa çalışırdı. Mürsəl fürsət axtarırdı ki, o taylı olmaq arzusunu reallaşdırsın. O, hər şeyi ölçüb biçmişdi. Gecə qaranlığında çayın dayaz hissəsini asanlıqla keçib dilbir qardaş - bacılarına qovuşacaqdı. Çox keçmədən günlərin birində gecə qaranlığında çaya qədəm qoyub o taya doğru irəliləmişdi ki, mamır bağlamış daşda ayağı sürüşən Mürsəl üzüqoylu

çaya yıxılaraq büsbütün islanmaqla bərabər, əzilmiş ayağının ağrısından zarımaq məcburiyyətində qaldı. O, əlləri ilə ağzını yumub zarıltısını boğmaq istəsə də, sərbazlar tərəfindən yaxalanmış oldu. Sərbazlar onu xayin, qaçqın adlandıraraq məhkəməlik etdilər. Bu məhkəməlik ona çox baha başa gəldi. Məhkəmə məmuru Mürsələ üç il həbs cəzası müəyyən etdi ki, bu üç ildə Mürsəlin anadan əmdiyi südü burnundan gətirdilər. Bu üç ildə ona verilən əzab və işgəncələr onu bir dəri, bir sümük etmişdi. Bədəninə vurulan şallaqlar onu tanıdılmaz hala salmışdı. Bu şallaqların izlərini hələ də bədənində gəzdirirdi. Üç il acınacaqlı zindan həyatını keçirənMürsəl, həbsini başa vurub yenidən kəndinə qayıtdı. Oğul dərdinə dözməyən Mədinə ana dünyasını dəyişmiş və kənd camaatı onu sahibsiz olaraq dəfn etmişdilər. Anasının tənha məzarını ziyarət edən Mürsəl qapısı qıfıllı bərbad evi abadlaşdırıb dərs verməklə bərabər, o taya keçmək arzusunu reallışdırmağı qarşısına məqsəd qoymuşdu. Bir müddət keçəndən sonra hökumət qulluqçuları tərəfindən nəzarətdə olmadığını görüb, gecə ilə Araz çayını keçərək o taya keçə bilsə də, qardaş - bacılarının dilində danışmayan sarışın silahlılar tərəfindən yaxalanmışdı. Dilini anlamadığı bu sarışınlar onu Dövlət Təhlükəsizlik nümayəndələrinə təhvil vermişdilər. Burada onu qardaş - bacılarının dilində sorğuya tutan təhlükəsizlik nümayəndəsi İranlı qaçqının casusçu olmadığını və zərərsiz insan olduğunu müəyyən edib ona

“demokrat”pasportu verdirməklə Sovet Azərbaycanında yaşamasına razılıq əldə etmiş oldu. Zəngəzur mahalının Pirçivan deyilən qəsəbəsində məskən salan Mürsəl özünə xudmani bir daxma düzəldib, ona təsərrüfat üçün verilmiş torpaqda göy - göyərti əkininə vüsət verdi. Pirçivanın kiçik bazarında göy - göyərti alveri edən Mürsəl Sovet Sosialist ölkəsində kapitalist cəmiyyətinin qayda - qanunları ilə fəaliyyət göstərməyə meyilli oldu. Sovet Azərbaycanının “demokrat”pasportundan yararlanan Mürsəl Pirçivandan keçən Mincivan - Qafan sərnişin qatarından qazanc mənbəyi kimi istifadə edərək göyərti biznesini genişləndirməyə müvəffəq oldu. Sərnişin qatarından istifadə etməklə qazancını birə - beş artıran Mürsəl ticarətçilərə məxsus şirin dili ilə nəinki sərnişinlərin, eləcə də göy - göyərtiyə ehtiyacı olan Qafan ermənilərinin arasında da hörmət qazandı. Sərnişin qatarına bələdçilik edən “casus” Liza tez bir zamanda həm azərbaycanlılar, həm də ermənilər arasında hörmətə layiq olan Mürsəli ürək bostanında bağban etmək üçün acıdilliyini yığışdırıb şirin dili ilə onu məhəbbət tilovuna salmağı bacardı. Erməni və Azərbaycan dillərində səlis danışmağı bacaran Liza Mincivanda, konspirativ də olsa Qafanda mənzil sahibi olmuşdu. Erməni Liza Mürsəlin “demokrat”lığından yararlanmaqda marağı var idi. Bir növ “casusluq” pərdəsi altında olan fəaliyyətini “demokrat” adı altında konspirasiya edə bilərdi. Liza tezliklə Mürsəlin ürək sirdaşına çevrilib bələdçi ota-

ğını eşq - məhəbbət məcarasına çevirdi. Sərnişinlərin qınağına tuş gəlməmək üçün, Liza Mürsəli hərdən bir Mincivandakı evinə də dəvət edərdi.

Zəngəzur mahalının Qafan şəhərini Rus dinbir qardaşlarının köməyi ilə erməniləşdirib "Kapani" edənErmənistan hökuməti Liza kimilərinin casus olaraq Azərbaycandakı fəaliyyətinə geniş önəm verirdilər. Mincivanda belə casuslar az deyildi. Mincivan xəstəxanasının doğum evində işləyən digər erməni qadın Lizanın fəaliyyəti isə yeni doğulan uşaqların, əksəri oğlan uşağı olmaqla məhv edilib öldürülməsi idi. Bəli, müsəlman qanına susayan ermənilər "kirvə"olmaqla uşaqların tökülən qanından da, həzz almağı bacarırdılar. Müsəlman səmimiliyi qarşısında erməni xisləti həməşə böyük bəlalar ortaya qoymuşdur. Bələdçi Liza Mürsəli ürəyinin dostu edərək var - dövlət hərisi olan Mürsəli özününküləşdirmək məqsədi güdürdü. Beləliklə Lizanın məhəbbət tilovundan balıq kimi sallanan Mürsəl tezliklə Musik olub "Kapani"də hörmət qazanmağa başladı. Lizanın köməyi ilə Qafanda topdansatış üçün şərait yaradıldı. Bu bazarda ermənilər, - "ara Musik sani bu göy var ha, ara çox dadi var. Ara san na edar, göy ha yakşi olar, yemax dad olar," - deyə sınıq - salxaq Azərbaycan dilində dil sındırardılarki, bu da işi xod gedən Mürsəli maraqlandırmazdı. Birdəfəlik satışda artıq Mürsəlin göyərti alverinin əlverişli şəraiti yaranmışdı. Əlbəətə ki, Lizanın köməyi ilə. Musik sərnişin qatarından düşər - düş-

məz erməni alvarçıları peyda olub bütün göyərtiləri ücüz qiymətə satın almaqla Qafan bazarını göyərti satış mərkəzinə çevirmişdilər. Əslində topdansatış Mürsələ vaxt və yoruculuq nöqteyi nəzərindən sərf edirdi. Vaxt deyəndə Liza ilə görüşə imkan yaranırdı. Vaxt itirmək məqamını da, Liza Musikinin beyninə soxmuşdu. Bəs, necə? Göyərtiləri vağzala, oradan taksi ilə bazara aparıb satmaqla günlər itirmək nəyinə lazım idi ki, Mürsəlin. Eyni zamanda göyərtilərə də qulluq etməyə vaxt tapılırdı. Bax beləcə Mürsəl Pirçivanda göyərti qazancını genişləndirməkdə, Liza "casus"luq fəaliyyətində ikən bir illik eşqi - məhəbbətin bəhrəsi özünü göstərməyə başladı. Hər ikisi bu bəhrədən şad olsalar da, qeyri - nigahdan yaranmış bəhrə Mürsəlin hal - əhvalına naqislik kimi görsənirdi. Liza qeyri dinin nümayəndəsi olduğundan molla nigahı baş tutan deyildi. Liza buna razılıq verməzdi. Dövlət nigahını da, Liza qəbul etmirdi. Liza Mürsəli başa salırdı ki, sən İranda yaşamısan deyə nigahdan kənar uşaq məsələsi sənin müsəlman beyninə girmir. Bizim Sovet ölkəmizdə vətəndaş münasibətindən doğulan uşaqlar qəbul edilir. Düzdür siz müsəlmanlar qeyri nigahdan doğulanlara "bic" deyirsiniz, ancaq biz xaçkarlarda belə doğulan uşaqlar qəbul olunur. Nə isə, Lizanı yola gətirmək üçün gərək Mürsəl bir batman bal yeyəydi. Çox keçmədən uşaq elə eşq - məhəbbətin cövlan etdiyi sərnişin qatarında bələdçilik otağının gur işığında gözünü açmış oldu. Həkimsiz, filansız do-

ğuşu Musik qəbul etdi, göbəyini də "aferist"Liza kəsdi. Uşaq Lizanın Kapanidəki konspirativ evində qol - ayaq atmağa başladı. Elə bir zaman gəldi ki, uşağı adlandırmaq üçün beyinlər işləməyə başladı. Hər ikisi xeyli mübahisə etsələr də, Mürsəlin Azərbaycan adı qoyulmasına Liza razılıq vermirdi. Lizanın erməni adı qoymasına qarşı Mürsəl çıxmış olurdu. Nəhayət, casus Liza kompomis olaraq belə bir təkliflə çıxış etdi. Vaxtilə bizim əziz Levon Mirzoyanımız Ermənistan üçün can yandırdığı kimi, Azərbaycana da rəhbərlik edən zaman "can yandırmaqdan"feyziyyab olub. Bilirəm ki, İranda mirzə adı müəllim, dəftərxana müdiri olmaqla geniş yayılıb. Odur ki, ay mənim sevimli Musikim, gəl razılaşaq uşağa Mirzo adı qoyaq. Hə, bu ad ürəyimcə oldu, - deyə Mürsəl sevincini Liza əzizi ilə bölüşdü. Ancaq, hədənsə Mirzo ifadəsi xoşuna gəlmədiyindən buyurdu ki, Mirzo yox, Mirzə!"Casus" Liza cin atına mindi. Əşi sizin bu "ə"lərinizi bizi Qafqazlı edən rus deyə bilmir, heç olmasa biz ermənilər bir təhər ötüşə bilirik. Liza çox düşünmədi, yenə kompromisə əl atdı. Nə olar, Azərbaycanlılar içi sən qarışıq Mirzə deyərlər, mən və Ermənilər Mirzo deyərik. Mürsəlin körpə Mirzəsi gündən - günə boy atıb nağıllarda olduğu kimi dirçəlməyə başladı. Uşaq bir az yekəlib əyninə paltar geyən kimi, artıq Mincivanda da tanınan Mürsəl Lizadan gizlin uşağı sünnət etdirib müsəlman olmağına nail oldu.  Bu o vaxtlar idi ki, N. S. Xruşov Sovetlər ölkəsinə rəhbərliyə başlayıb təsər-

rüfatların "kukuruzlaşma"kompaniyasına başlamasına önəm vermişdi. Ermənistan ölkəsinin və partiyasının casusu olan Liza Mürsəli göyərti əkinindən uzaqlaşdıraraq, kukuruz əkininə keçməsinə səfərbər etdi. Mürsəlin kukuruz əkini və Qafandakı satışı ona xeyli qazanc gətirdi. Artıq böyümüş olan Mirzə atasının kukuruz satışına köməklik etməklə "Kapani"də alverçi Mirzo olaraq tanınırdı. Mirzə kukuruz satışında elə püxtələşmişdi ki, bir saçaqlı kukuruz toplusunda nə qədər kukuruz dənəsinin olduğunu gözüyumulu bilirdi. Mirzə üçün ən xoş günlər vaxtilə bir mərtəbəli rus parağında yaşayan anası Lizanın, indi Bakı ermənilərinin tikdiyi üç mərtəbəli binanın birinci mərtəbəsində yaşaması idi. Köhnə tikili olan, əsasən rusların yaşadığı və yeməkxana müdiri işləyən Arşakın bina küncündəki geniş ərazidə cövlan etdiyi binadan, təzə binaya köçməsi Mirzənin ürəyincə olmuşdu. Maraqlısı bu idi ki, pəncərədən rus teleqraf işçiləri ilə anası Lizanın başa düşmədiyi rus dilində mırt vurması bir növ Mirzə üçün "əyləncə" olurdu. Mincivanda onun üçün "maraqsız"olan rus dilini anlamaması və "Kapani"də erməni dilinin "hitsun - vatsun"undan başqa heç nə bilməməsi onda belə fikir oyadırdı ki, onun ürəkdən sevdiyi Azərbaycan dilinə marağı daha böyükdür. Atası Mürsəlin Liza ilə söhbətlərində tez - tez "xub" sözünü işlətməsi bəzən Mirzəni narahat edirdi. Fars sözü olan "xub" ifadəsinə qarşı çıxan Mirzə çalışırdı ki, atası "xub"əvəzinə Azərbaycanımızın musiqi

ahəngli sözü olan “yaxşı” ifadəsini işlətsin. Erməni Lizanın qoyduğu Musik adından bezən ata, Mürsəl olaraq özünə qayıdaraq əksər hallarda əziz oğlunun iradını qəbul edirdi. Son vaxtlar Mincivanda şam deyilən ərazidə rusların yaşadığı “PDMS”(Yol - körpü tikinti poyuzu) Mirzədə yabanı dillərə qarşı maraq oyatmasa da, bu sarıların sərbəstliyi, az qala bu böyüklükdə qəsəbəyə rus dilini sıramaları onun üçün “maraq”kəsb etməyə başlamışdı. Mirzə görürdü ki, bu vaqonlarda yaşayanların əksəriyyəti subay rus qadınlarıdır. Və bu açıq - saçıq qadınlara qarşı münasibətdə öysəl olmuş dana kimi ağız suyu axıdanların alayarımçıq rus dilində danışması onda heyrət doğururdu. Əslində Mirzə anlamağa başlayırdı ki, bu Sovet adlanan nəhəng bir ölkədə rusların başçılıq etdiyi və əhalinin əksəriyyətinin rus olduğu bir dönəmdə ruslaşdırma siyasəti “xalqlar dostluğu” pərdəsi altında aparılir. Elə bil ki, Sovet hakimiyyətinin özəyini təşkil edən rus rəhbər başçıları əzbər bilirdilər ki, hansı siyasi əhəmiyyət kəsb edən bölgədə rusları yerləşdirmək mümkündür. Əlbbətə ki, Mincivan böyük bir dəmiryol qovşağı olmaqla bərabər ikiyə bölünmüş o taydakı Azərbaycanlıların yaşadığı İran dövləti ilə, dövlət sərhədinə malik idi. Mincivanda olan bütün strateji sahələrə, ancaq ruslar rəhbərlik edir, ya da çoxluğu ruslar təşkil edirdilər. Dəmiryol qovşağına rus Kozlov rəhbərlik edirdi. Teleqrafda əksər işləyənlər ruslar idi. Hətta, ”Peçe”adlanan və dəmiryol işlərinə nəzarət edən idarə-

yə də ilk əvəllər rus başçılıq edirdi. Mincivanın bütün bir və ya iki mərtəbəli paraxlarında xeyli ruslar yaşayırdılar. "PDMS" qəsəbədə lövbər salandan sonra Mincivanda milli adət - ənənələr yaddan çıxarılmağa başlanmışdı. Mincivanın kino - klubundan rəqs sahəsi (tansplaşadka) kimi istifadə edilməyə başlanılmışdı. Kino - klubun oturacaqlarını divara doğru kənarlaşdırıb bal, tvis, caz rəqslərii ifa edilməyə üstünlük verilmişdi. Qıçalarını sındırıb "tvis"oynayanlar kim, acgözlüklə rus qadınlarının korsetlə bərkidilmiş və "incəbel"edilmiş belini qucaqlayıb bal rəqsi oynayanlar kim!? Belə vaxtlarda qəsəbənin bütün sahələrində işləyən uşaqlı və ərsiz rus qadınları daha çox fəal olurdular. Rəqslərdə vaxt keçirənlərin Mələkləri, Püstələri gecə yarısı keçənə qədər rus qadınları ilə rəqs edən ərlərinin nə vaxt evə qədəm qoyacaqlarını gözlərini ova - ova gözləmələri adi hal almışdı. Qəsəbə əhli yallı, uzundərə, köçəri rəqslərini çoxdan unutmuşdular. Qəsəbənin rus alkoqoliki Qurinni az qala rusların "Yabloka"rəqsini bütün qəsəbə cavanlarına sıraya bilmişdi. Hətta, iş o yerə çatmışdı ki, alkoqolik Qurinni Azərbaycan rəqslərində ancaq, "Yabloko"nu rəqs edirdi. Bizim Köçəri, Uzundərə rəqslərimizi isə ruslar nəinki ifa etmirdilər, heç rəqs adlarını tələffüz belə edə bilmirdilər. Erməni Lizanın bu rəqslərdə fəallığı Mürsəlin də kluba baş çəkməyinə səbəb yaratmışdı. Mürsəl Lizadan gizlin tvis vuran rus qadınlarının ehtiras yaradan əndamlarını izləyər və düşünərdi ki, nə

yaxşı İran müsəlmançılığından canını qurtarıb, belə bir "demokratiyaya"ürcah olubdur. Mürsəl, Lizanın Musiki olandan sonra babalarının Kərküklü türkmanelli olduğunu çoxdan unutmuşdu. Hərdən pambıq kimi ağappaq rus qadınlarını şəhvət hissi ilə gözündən keçirərək, rus rəqslərinə meyilli olurdu ki, bu zaman dərisi qara, geyimi qapqara olan Lizanın sərt baxışlarını görüb özünü yığışdırırdı. Mirzə də gizlin olaraq kluba gəlib atası Mürsəlin rus qadınlarına baxıb ağzından necə ləms buraxdığını və udqunduğunu görüb təəccüblənər və rəqs zalını tərk edib uşaqlarla həyətdə çiləmə vurmağa qaçardı. Artıq, Sovet hökumətinin rus başbilənlərinin verilən tapşırıqlarını yerinə yetirən "PDMS" işçiləri vaqonları ilə bərabər Mincivanı tərk etmişdi vəMincivanın neçə - neçə cavanlarını özləri ilə bərabər aparmışdı.

Yetmişinci illərə qədəm qoyulmuşdu. Mincivanın Azərbaycan ab - havası, unudulan adət - ənənəsi özünə qayıtmağa başlamışdı. Ermənistannin Rus dinbir qardaşları tərəfindən hədiyyə olunan Azərbaycan torpağında yaşayıb, ermənilərin yaratdığı qəribçiliyi hiss etmiş Azərbaycan gəncləri Bakıda təhsillərini alıb Mincivana da müəllim olaraq gəlmişdilər ki, məhz bu milli qeyrəti özündə saxlayan müəllimlər Mincivanda milli bayramımız olan Novruz bayramını təşkil etməyə çalışmışdılar. Sovet hökümətinin yerlərdə siyasətinin aparıcıları olan rayon, qəsəbə Partiya Komitələri milli bayramın aparılmasına "buynuz"göstərsələr də, milli bayramlarımız ke-

çirilməyə başlanılmışdı. Paraxlarda yaşayan rus qoca və cavanları ömrü boyu görmədikləri bayram səhnələrinə həsədlə baxırdılar. Mincivana, lizasının evinə təşrif gətirən Mürsəl milli bayramların tamaşaçısı olanda milli özünüdərketmə hissiyatına varmış olurdu. Bəzən oğlu Mirzə ilə milli tamaşalara tamaşa edən Mürsəl milli keçmişi, adət - ənənələri haqqında oğluna danışar və onda Azərbaycan milli heysiyyəti formalaşdırmağa çalışardı. Mürsəlin yaratdığı bu münasibəti görən casus Liza oğlunu Mirzo olaraq yanına çağırar və ona Sovet xalqı, milli həmrəylik dərsini verərək ermənilərin Sovet xalqı içərisində önəmli yer tutduğunu və hörmətə malik olduğunu çox səlis danışdığı Azərbaycan dilində başa salmaq istərdi. Lakin, Mirzədə milli özünüdərketmə hissi artıq beynində kök salmışdı. Azərbaycan dilinin musiqili ahəngini sevdiyi üçün milli varisliyin ata yolu ilə qanına hopduğunu dərk etməyə başlamışdı. Təhsilini Azərbaycan orta məktəbində davam etdirən Mirzə Azərbaycan dilini və ədəbiyyatını sevərək gələcəkdə bu sahənin ixtisaçısı olacağına özündə əminlik hiss etmişdi. Casus fəaliyyətinə önəm verən Liza Mirzənin ata tərəfinə üstünlük verməsini qəbul etməyib, soyuqqanlılıq göstərərək onları özündən uzalaşdırmaq qərarında oldu. Mirzə orta məktəbi başa vurub, Naxçıvan Dövlət Pedoqoji İnistutuna sənəd verərək Azərbaycan dili və ədəbiyyatı ixtisası üzrə qəbul imtahanlarını müvəffəqiyyətlə verib ali təhsilini davam etdirir. Tələbəlik illərində

onunla bahəm təhsil alan və əslən Dərələyəzli olan Laləzarə məhəbbət yetirir. Ali məktəbin son kursunda təhsil alarkən atasının ölüm xəbərini eşidib, sevdiyi Laləzarla bərabər Pirçivana gəlib dəfn mərasimini təşkil edir. Atasının vəfatından sonra qayıdacağını güman edən Mirzə ata evini qonşusuna əmanət edib, Laləzarla bahəm Naxçıvana qayıdır. Dəfn mərasimində iştirak edən Laləzar Mirzənin kimsəsiz olduğunu bildəndən sonra öz həyat hekayəsini sevdiyi insana danışır. Bu danışıqdan Mirzəyə aydın olur ki, Laləzar ata - anasının yeganə övladıdır. Onun valideyinləri vaxtilə Gürcüstanda yaşamış, sonralar Dərələyəzə gəlmişlər. Onun ata - anasından başqa kimsəsi yoxdur. Ən yaxın adamları qonşularıdır. Ali məktəbi qurtarmağa sayılı günlər qalmışdı. Mirzə ata yurdunu tərk etməyi daxilən qəbul etməsə də, təklifini anlayırdı. Həm də ki, valideyinlərinin bircəsi olan Laləzarı ata yurduna dəvət etməkdə ürəkli deyildi. Mirzə münasibətlərdə çox səmimi olmağı sevirdi. Laləzarı sevdiyi andan bəri düşünürdü, axı ülvi məhəbbətlə sevdiyi qızı necə valideyinlərindən ayırmaq olar?Mirzənin daxili aləmindəki çarpışmaları başa düşən Laləzar imtahan arası Mirzəni ata - anasının razılığı ilə Dərələyəzə, valideyinlərinə qonaq dəvət edir. Səmimi sevgi hissləri ilə Laləzara bağlı olan Mirzə bu dəvəti qəbul edib, təbiəti ilə qonaqlarını məftun edən Dərələyəzə getməli olur. Laləzarın atası Qərib kişi və anası Göyərçin xanım Mirzəni xeyirxahlıqla qarşılayırlar. Tez bir zamanda Qərib

kişiyə isinişən Mirzə Dərələyəzin təbiətinə valeh olduğunu bildirir. Qərib kişi Mirzənin Dərələyəz haqqında xoş təəssüratını bəyənib ərz edir ki, Dərələyəz Azərbaycanın Zəngəzur mahalının ən gözəl diyarıdır. Dərələyəz dağ silsiləsi Arpaçay ilə Naxçıvançay arasında yerləşir və ən hündür zirvəsi Kükü dağıdır. Çox əfsuslar olsun ki, təbiəti ilə seçilən bu gözəl diyarı rus bolşevikləri 1920 - ci ildə Azərbaycan bolşeviklərinin xəbəri olmadan Ermənistan hökumətinə hədiyyə edib. Ermənilər də, Dərələyəzi Ayotsdzor adlandırıb özününküləşdirdilər. Nə isə oğlum talehimiz belə gətiribdir, tapdalana - tapdalana gedirik. Allah gələcək xoş günlərimizi bizə çox görməsin. Mirzənin yaşamı ilə tanış olmaq istəyən Qərib kişi öyrənir ki, onun heç kimi yoxdur və Pirçivanda rəhmətə getmiş atadan qalan evi var ki, hələ indiyə qədər tənhalıq onu sıxdığından o evdə yaşamayıbdır. Mirzənin Pirçivan yaşamına qısaca səyahət edən Qərib kişi, uzun zamanlar övlad həsrəti ilə yaşadıqlarını və sonradan Allahın onlara göstərdiyi iltifat nəticəsində Laləzarımızın göz açması xoşbəxtliyimizə səbəb olub. Yaşımız da az deyil. Gördüyün iki mərtəbəli kəllayı - dolayı evi də zəhmətlə ərsəyə gətirmişəm. Qızım Laləzar sənin haqqında çox xoş sözlər danışıb. Belə başa düşmüşəm ki, bir - birinizə hörmətlə yanaşırsınız, qarşılıqlı etibarınız var. Mənim də, qarımın da bir övlad olaraq sənə istiliyimiz yaranıb. Bu evlər, dünyamıza əlvida deyəndən sonra yiyəsiz qalmayacaq ki? Razılığınız olsa toyunuzu

da mən edərəm. Bizə bir otaq da bəs edər. Qərib kişinin ata qayğısını hiss edən Mirzə Pirçivana Laləzarla birgə gedib, ata evini ziyarət etdikdən və ali məktəbi bitirdikdən sonra qəti fikirə gələcəklərini Qərib ataya bildirdi. Laləzarla təhsilini başa vurmaq üçün Naxçıvana qayıtmaq ərəfəsində olan Mirzə Qərib kişiyə minnətdarlıq bildirib onun ağsaqqal təklifini yüksək qiymətləndirdi. Mirzə və Laləzarı yola salanlar arasında gündəlik onları yoluxan qonşuları İmran kişi və Sədəf xanım da var idi ki, onlar cavanlara münasibətdə Qərib kişi və Göyərçin anadan seçilmirdilər. Naxçıvana qayıdıb təhsillərini başa vuran cavanlar bu müddət ərzində bir - birlərinə daha çox bağlandılar. Bir neçə günlüyə Laləzarla bahəm Pirçivandakı ata evini ziyarət edən Mirzə ata evini qonşuluqda yenicə ailə qurmuş cavanlara hədiyyə edib Dərələyəzə qayıtdılar. Qərib kişi cütlüyün gəlişindən şad olub qızına və gələcək kürəkəninə ədəb - ərkanlı toy etdi. Dərələyəzdə böyük hörmət sahibi olan Qərib kişinin şad gününə bütün Dərələyizlilər təşrif gətirərək ailə quran cavanlara xoşbəxtlik arzuladılar.

1983 - cü ilin ilk dərs ilində əllərində jurnal olaraq məktəbə daxil olan Mirzə və Laləzar cütlüyü sonradan müəllimlərin və şagirdlərin sevimliləri oldular. Bir müddətdən sonra təqaüd vaxtına çatmış məktəbin qocaman müdiri Əşrəf müəllimin zəmanəti ilə rayon maarif idarəsi Mirzəni məktəbə müdir təyin etdi. 1985 - ci ildə Mirzə və Laləzar cütlüyün bir qız övladı dünyaya göz

açıb gənc ata - ananın ilk novbarı olmaqla bərabər, baba - nənənin də sevimlisinə çevrildi. Qıza Göyərçin nənənin adını qoymaq təklifinə qarşı çıxan Qərib kişi ərz etdi ki, qarı hələ sağ ikən adını uşağa qoymaq məsləhətli deyil. Bunun düşər - düşməzi ola bilər. İpək kimi incə olan qız nəvəmizə Pəri adını qoymaq daha məsləhətlidir. Beləliklə, Qərib kişinin təklifi ilə qızcığaza Pəri adını qoydular. Mirzənin vaxt məhdudiyyəti olduğundan Laləzar və baba - nənə Pərinin qayğısını çəkir və tərbiyəsi ilə məşğul olurdular. Bir müddətdən sonra Mirzənin çətinliyinə köməkçi olmaq istəyən Laləzar dərslərə başladı. Pəri baba və nənənin himayəsi ilə yaşayaraq böyüməkdə idi. Günlərin birində Göyərçin nənə qonşu kənddə tanış yasına getmiş olur. Baba himayəsində qalan körpəni qucağında atıb - tutaraq şənləndirmək istəyən Qərib kişi ürəyinin sancmasını hiss etdi. Uşağı çarpayısına bir təhər uzadıb ürək nayihəsini əlləri ilə ovmaq istərkən müvazinətini itirib kürsüdən yerə yıxıldı. Baba atıb - tutmağına öyrəşmiş qızcığaz zar - zar ağlamağa başladı. Uşaq ağlayışını eşidən qonşu İmran kişi həyətə daxil olub Qərib kişini yerdə uzanmış görüb təlaşlandı. Tezcə qarısı Sədəfi səsləyərək köməyə çağırdı. İmran kişi qonşusu Qəribin buz kimi olaraq keçindiyini görüb, həkim dalınca qaçır. Sədəf qarı isə qızçığqazı qucağına alıb ovundurmağa çalışır. Qızcığaz isə sanki, babasının əbədiyyətə qovuşduğunu hiss edirmiş kimi daha şiddətlə ağlamağa başlayır. Mirzə və Laləzar həyətə daxil olub

həmişəlik itirdikləri ataları Qərib kişi üçün göz yaşı tökürlər. Axşama yaxın Göyərçin qarı evinə qayıdıb xeyli insan yığıncağını görcək halı pisləşir. Handan - hana qonşuların köməyi ilə özünə gələn Göyərçin ana ömür - gün yoldaşı Qəribinin ölümünü öz kədəri kimi qəbul edib yerdə qalanlarının təsəllisi ilə özünü ələ alır. Göyərçin ana anlayır ki ölüm haqdır. Öləninən ölmək olmaz. Bir gün yaranan nə vaxtsa dünyasını dəyişməlidir.

Mirzə və Laləzar məktəbdə fəaliyyətini davam etdirməkdə idilər. Mirzə rayon maarif şöbəsində müdir olaraq hesabat verərkən Ermənistan Maarif Nazirliyinin yeni təqdimatını ona göstərib bildirdilər ki, 1987 - ci il tədris ilində məktəbdə erməni dili və ədəbiyyatı da tədris olunacaqdır. Azərbaycan dili və ədəbiyyatı tədrisi isə həftənin üç dərs saatı olaraq azlaldılacaqdır. Rayon maarif şöbəsinin yeni təqdimatını dinləyən Mirzə buyurdu ki, təqdimata əsasən həftənin altı saatı tədris olunan Azərbaycan dili və ədəbiyyatı üç saat azaldılaraq, yerdə qalan üç saatı erməni dili və ədəbiyyatının tədrisinə keçiriləcək. Düzgün başa düşdümmü, - deyə dilləndi. Yenicə təyin olunmuş maarif müdiri Eduard Qaloyan susqunluğa üstünlük verib, Mirzəyə cavab vermədi. Mirzə maarif idarəsinin bu təklifinə şübhə ilə yanaşıb bildirdi ki, birinci məktəbdə erməni şagirdlər dərs almır, ancaq Azərbaycanlı şagirdlər dərs alırlar. İkinci də, bizim məktəbdə erməni dili və ədəbiyyatı müəllimi yoxdur. Rayon maarif idarəsinin müdiri Eduard Qalo-

yan qolunu - qıçasın sındırdığı Azərbaycan dilində Mirzəyə aydın etdi ki, biz bu barədə filirləşmişik. Tezliklə başqa bölgədən Ayotsdzora erməni ailələri köçürüləcək və erməni uşaqları şagird olaraq erməni dilində təhsil alacaqlar. Həmin köçürülən ailələr içərisində erməni dili və ədəbiyyartı müəllimi də yeni dərs ilində fəaliyyətə başlayacaqdır. Qaloyanın Mirzə müəllimlə ötkəm danışığı onda şübhələr yaratsa da fikirləşirdi ki, bu Erməni dövlətinin siyasətidir. O, isə Ermənistan dövlətinin vətəndaşı olaraq yuxarı orqanın qanunu poza bilməz.

1987 - ci ilin isti yay günlərinin birində Laləzar bir oğlan uşağı dünyaya gətirdi ki, bu uşaq babası Qəribin adını daşıyaraq gələcək ad məsuliyyətini doğrultmalı olacaqdı. Uşağa Qərib adı qoyulsa da, eyni ilə üzünü görmədiyi ata babası Mürsəlin surətiydi. Uşaq boy atdıqca Mürsəlin hal xasiyyətini görməzdən təqlid edirdi. Qərib zar - zar ağlıyanda iki yaşlı Pəri onu qucaqlayaraq ovudardı. Qərib o qədər Pəriyə öyrəşmişdi ki, qızcığaz ondan ayrılan kimi, qışqırıq salıb sanki deyirdi: - uzaq düşmə gözümdən, yoxsa zarıyıb gedərəm özümdən. Qəribin bacısına öyrəşməsi Göyərçin nənəni də yaşının bu çağında əziyyətdən xilas edirdi. Məktəblərin yay tətili müddətində xeli erməni ailələri Dərələyəzə köçürüldü. Demək olar ki, həyət - bacası, evi az - çox böyük olanlardan çox vaxt soruşmadan erməni ailələrini, guya müvəqqəti olaraq Azərbaycan ailələrində yerləşdirirdilər. Bəzən bu yerləşmələr toqquşmaya səbəb olurdu ki,

bu toqquşmaların qarşısı erməni milisləri tərəfindən ermənilərin yerləşdirilməsinin xeyrinə həll olunurdu. Mirzə öyrənmişdi ki, Azərbaycanlıların əksəriyyət təşkil etdiyi digər bölgələrdə də, eyni hal hökm sürməkdədir. Hətta, elə ziddiyyətli xəbərlər də gəlirdi ki, guya bu toqquşmalardan fiziki zədə alanlar, hətta doğma evlərindən qovulanlar da az olmurdu. Mirzə Dərələyəzdə milli zəmində baş verən toqquşmaların kökünü Qorbaçov hakimiyyətinin erməni din qardaşlarına olan yaxın münasibətində görürdü və fikir edirdi ki, bu hakimiyyət xalqlar arasında düşmənçilk toxumu səpməkdə qərarlı olduğundan uzun zaman hakimiyyətdə qala biməyəcək. Yuxarılardan idarə olunan bütün bu yaramazlıqlara baxmayaraq ziddiyyətli milli yaşayış davam edirdi. Erməni dili və ədəbiyyatını tədris edən Viktor Xaçaturyan dərslərdə erməni dilinin tədrisinə biganə yanaşan Azərbaycan şagirdlərinə qarşı qeyri - insani tədbirlərə əl atırdı ki, bu da milli toqquşma üçün şərait mənbəyi olurdu. Bu toqquşmalar bir başa uşaqlara sirayət etdiyindən Mirzənin rəhbər olduğu məktəbdə də özünü göstərməyə başlamışdı. Erməni məktəbliləri "tork"deyərək Azərbaycan məktəblilərini milli zəmində təhqir etməkdən çəkinmirdilər. Mirzə indiyə qədər qarşılaşmadığı erməni milli abırsızlığının səbəbini Xaçaturyanda görüb bu barədə rayon maarif idarəsinə məruzə etsə də, heç bir irəliləyiş olmurdu. Milli zəmində olan toqquşmaların əhatə dairəsi ketdikcə genişlənirdi.

1988 - ci ildə Dağlıq Qarabağda Erməni - Azərbaycan mili münaqişəsinin başlanması bütün millətçi Ermənistanı ayağa qaldırmışdı. Bəzən bu toqquşma artıq Dərələyəzdə ermənilərin kütləvi yerləşməsi nəticəsində, sayı xeyli artmış erməni ailələrinin Azərbaycanlı evlərdə yaşayanlara hucumu ilə nəticələnirdi. Belə hucumların birində xəstəlikdən əziyyət çəkən Göyərçin nənəyə atılan daş parçası onun kəllə nahiyəsindən aldığı ağır zədəyə səbəb olub son anda ölümü ilə nəticələnmişdi. Dərələyəzin Azərbaycan əhalisi ayağa qalxaraq günahkara cəza tədbiri verilməsi tələbini irəli sürmüşdülər. Lakin, Dərələyəzə yerləşdirilən millətçi erməni milisləri nənəyə daş atanın Azərbaycanlı olduğunu yalan şahidlərlə təmin edib onu ailəsi ilə bahəm Dərələyəzdən sürgün etmiş və ev - eşiyinə erməni ailəsini köçürmüşdülər. Göyərçin nənəsinin ölümü ən çox balaca Pəriyə təsir etmişdi. Üç yaşı olan Pəri nənəsinin köməyi ilə bəzi xörəkləri bişirməyi, qab - qacaq yumağı öyrənmişdi. Göyərçin anasınınn ölümü ilə barışmayan, erməni millətçiliyinin baş alıb getdiyini görən Laləzar ömür - gün yoldaşı Mirzədən onun ata yurdu olan Pirçivana köçməyi xahiş etmişdi. Lakin, ata yurdu Pirçivana yaxın olan erməni kəndlərinin də nə vaxtsa sakit oturmayacaqlarını və Pirçivana da hucum edə biləcəklərini nəzərə almağı həyat yoldaşından təvəqqe edən Mirzə ondan səbirli olmağı xahiş edirdi. Bununla bərabər Pirçivandakı ata yurdunun hansı vəziyyətdə olduğunu, yaşamaq üçün

yararlı olub - olmadığını da Mirzə bilmirdi. Sevimli Laləzarına izah edirdi ki, beş ildən çoxdur ayağı ata yurduna dəyməyib. Əlavə bizim ixtisasımız üzrə işimiz Pirçivanda olacaqmı? Sədəf xala İmran dayı kimi qayğıkeş qonşunu orada görə biləcəyikmi? Hələ ki, yaşayıb işləyirik. Əziz xələf qonşularımız Sədəf nənə, İmran kişi uşaqlara nəzarət etməklə bərabər, körpələrin də qayğısına qalırlar. Laləzar Mirzənin haqlı deyimlərini qəbul edib sakitləşmişdi.

Sədəf nənə və İmran kişi bircə olan qızları Gülçöhrəni Kəlbəcərə gəlin köçürmüşdülər. Dağlıq Qarabağda milli zəmində, ermənilərin torpaq iştahası ilə başlanan Erməni - Azərbaycan münaqişəsi Sədəf nənəni və İmran kişini çox narahat edirdi. Kəlbəcər, Ermənistan dövləti ilə Dağlıq Qarabağ arasında yerləşdiyindən narahatçılıq əbəs deyildi. Telefon danışıqlarında Gülçöhrə də ata - ana üçün nigarançılıq keçirdiyini bildirərək qeyd edirdi ki, mənim doğma Dərələyəz yurdum Ermənistan dövləti ərazisində yerləşdiyindən erməni millətçilərinin sizlərə qarşı törədəcəyi zülmlərdən ehtiyyat edirəm. Bax beləcə nigarançılıqlar içərisində yaşayan bala və valideyinlər erməni millətçilərinin zorakılıq törədəcəyindən ehtiyatlansalar da bir - birlərinə təsəlli olub, allaha pənahçı olaraq yaşamlarına davam edirdilər. Sədəf nənə rəhmətlik Göyərçin əvəzi olaraq Pəri və Qəribin qayğısına qalır, bütün günlərini məktəbdə keçirən Laləzar və Mirzə müəllimlərin təşəkkürünü qəbul edərək xoş əh-

valla günlərini yola salırdı. Pərinin səliqəsi, mətbəx işlərində Sədəf nənəsinə köməklik göstərməsi rəhmətlik Göyərçin nənəsini xatırladırdı. Sədəf nənə üç yaşlı Pəriyə hətta yüngül xörək bişirmələrini də öyrədirdi. Qərib isə təzəlikdə addım ataraq yıxıla - dura yeriməyə çalışırdı. Körpə Qəribi qucağından buraxmayan Pərinin gombul qardaşını, əksər vaxt İmran kişi boynunda oturdub oyunlar edərdi ki, bu da Pərinin ürəyincə olardı. Qardaşını xörəyə öyrətmiş Pəri özündən balaca qardaşını dilə tutaraq deyirdi: - bax yeməyini axıra kimi ye, axı bu xörəyi mən bacın bişirib. Pəri qardaşını işdən yorğun gələn ana - atasını qarşılayana qədər oynadar və doymazdı. Rəhbərlik etdiyi orta məktəbi təşkilatçılıq bacarığı ilə idarə edib, istedalı şagirdlər yetişdirdiyinə görə yerli Azərbaycan əhalisi ilə bərabər, millətçilik hisslərindən uzaq olan erməni əhalisi də Mirzə müəllimə hörmətlə yanaşırdılar. Bütün bunlarla bərabər Mirzə müəllim hiss edirdi ki, axır vaxtlar nədənsə maarif idarəsinin rəhbərliyi tərəfindən gözümçıxdıya salınır. Artıq erməniləşməyə başlayan məktəbə türkün rəhbərlik etməsi yuxarı başda oturan millətçilərin qıcığına səbəb olurdu. İş o yerə çatmışdı ki, üzdə özünü "dost"göstərən yuxarı eşalonun nümayəndəsi "qayğısını"qabardaraq açıqca Mirzə müəllimin qulağına pıçıldayaraq deyirdi ki, sənin o yekəlikdə vətənin ola - ola nə görmüsən Ayotsdzorda. Elə millətçilik azarına tutulmuş şovinist müəllimlər olurdu ki, rişxəndlə deyirdilər: - Ermənistan hara, mək-

təbdə müdir işləyən "tork" Mirzə hara. Belə bir kəskin vaxtda Ermənistanda baş verən və Spitak zəlzələsi kimi tanınan yer tərpənməsi dağıdıcı xarakter daşıdığından milli toqquşmalar müvəqqəti də olsa səngiməkdə idi. Lakin, sonradan Sovet başqanı Qorbaçovun hüznlü millətçi baxışları və çıxışları Erməni tanınmışlarının yüksək tribunalardan şovinist bağırtılarına şərait yaratdı. Ağabekyanlar, İgityanlar, Balayanlar torpaq azarına tutulduqlarını və milli xəbisliyə rəğmən öz çıxışlarında və cızma - qaralarında təfəkkürü pozulmuş erməni beyinlərində milli düşmənçilik toxumu əkirdilər. Erməni şovinist yazar Z. Balayanın "Ocaq" kitabı məktəblərdə yayılmağa başlamışdı. Bu kitabda millətçilk azarı ilə zəhərlənmiş Z. Balayan heç bir əsası olmadan Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış edirdi. Məhz bu millətçi ideoloqların təsiri ilə Qarabağda milli vəziyyət getdikcə pisləşir və ciddi toquşmalarla səciyyələnirdi. Erməni millətçilərinin etiraz mitinqləri nəinki Dağlıq Qarabağı, çökməkdə olan Sovetlər ölkəsini də ağuşuna alırdı. İş o yerə çatmışdı ki, Dağlıq Qarabağ adlanan tarixi Azərbaycan ərazisinin Ermənistana birləşdirilməsi şüarı meydan tapmışdı. Bu millətçilər tarixi Azərbaycan ərazisində dinbir rus qardaşlarının köməyi ilə vaxtilə yaradılmış Ermənistan dövləti ilə bahəm, ikinci bir erməni dövlətinin yaradılması üçün"Qarabağ"təşkilatını yaratmışdılar. SSRİ adlı bir dövlətin Qorbaçov rəhbərliyində zəifləmə getdiyindən, bundan bəhrələnən erməni mil-

lətçiliyinin pozuculuq fəaliyyəti vüsətlənməyə doğru addımlayırdı. Azərbaycan əhalisinə qarşı təxribatlar getdikcə genişlənirdi. SSRİ dövlətinin Ali Sovetinin Dağlıq Qarabağda yaratdığı "Xüsusi İdarəetmə Komitəsi" Qarabağda baş verənlərin qarşısını almağa cəhd göstərsə də, uğursuz idarəçiliyi ilə ləğvinə səbəb olmuşdu. 1990 - cı ilin may ayında Ermənistanda keçirilən parlament seçkilərində Erməni Ümummilli hərəkatının qalib gəlməsi göstərdi ki, hakimiyyətə ifrat millətçilər gəliblər. Hakimiyyətə gələn millətçi qüvvələr Dağlıq Qarabağın Ermənistan dövlətinə birləşdirilməsi uğrunda mübarizəni təbliğ etməklə bərabər, silahlı dəstələr hazırlayıb Dağlıq Qarabağa göndərməklə olacaq müharibənin də təbliğinə yol verdilər. Millətçi idarəçilər Ermənistan ərazisində də milli ədavəti gücləndirir, ermənilərdən ibarət milis dəstələrini Azərbaycanlıların əksəriyyət təşkil etdiyi bölgələrə göndərməkdə qərarlı olurdular. Ermənistan ərazisində yerli Azərbaycanlılara qarşı təxribatlar davam etdirilirdi. Erməni təxribatlarından çəkinən yerli Azərbaycanlılar müxtəlif yollarla dədə - baba yurdlarını tərk edib milli vətənləri olan Azərbaycana gedirdilər. Bütün bu baş verən milli ədavət təxribatlarını müxtəlif informasiya vasitələrindən əldə edən və gündəlik həyatda baş verən milli toqquşmaların şahidi olan Mirzə anlayırdı ki, qarşıda onları ağır günlər gözləyir. 1991 - ci ilin əvvəlində ifrat millətçi olub "Qarabağ komitəsində", "Erməni icma hərəkatında"quyruq bula-

yıb, sonradan müxtəlif dövlət vəzifələri tutmuş Suriya ermənisi Levon Ter - Petrosyan hakimiyyətə gəldikdən sonra milli ədavət təxribatları genişlənmişdi. Elə həmin ilin dekabrında məktəb müdiri işləyən Mirzə rayon maarif idarəsinə çağrılaraq istefa verməyə məcbur edilmiş və müəllimlik fəaliyyəti müvəqqəti olaraq saxlanılmışdı. Mirzəyə açıqcasına vətəninə gedib orada sevdiyi Azərbaycan dili və ədəbiyyatı müəllimi işləməyi məsləhət görmüşdülər. Ancaq, gəlmə ermənilərin Ayotsdzor adlandırdıqları Dərələyəzdə Azərbaycan məktəbinin tamamilə bağlanması tələb olunsa da, Mirzə və digər Azərbaycanlı müəllimlər bu tələbi qəbul etməmişdilər. Ermənilər, yerli əhalinin ağlına belə gəlməyən təxribata əl atmağa üstünlük vermişdilər. Dərs gününün birində məktəbi boykota çağıran erməni təxribatçıları öz uşaqlarını və erməni müəllimlərini məktəbə buraxmayaraq gücləndirilmiş erməni milislərinin əhatəsində məktəbin qapılarının qapısını bağlayıb benzin tökərək yandırmağa başladılar. Məktəbin alovlanaraq tüstülənməsini görən Mirzə və digər Azərbaycanlı müəllimlər yeganə yolu uşaqları alovlanan məktəbdən xilas etməkdə görürlər. Mirzə məktəb müdiri işləyən zaman yanğın təhlükəsizliyinin qarşısını alan yeraltı zirzəmi yaratmışdı. Mirzə və digər Azərbaycanlı müəllimlər zirzəminin qapısını sındıraraq xeyli şagirdləri təxliyyə edə bilmişdilər. Qarşısı alınmayan alovun tüstülərindən boğulanlar

və əza yanğısından həlak olanlar da olmuşdu. Həlak olanlar arasında Mirzə və Laləzar var idi.

Ata - anasız qalmış Pəri və Qəribə himayəçilik edən Sədəf nənə ilə İmran kişi, əksər Dərələyəzli Azərbaycanlılarla bərabər vaqonlara zorla doldurularaq Azərbaycana yola salındılar. Dərələyəzdə milli zəmində baş vermiş vermiş erməni təxribatından və ata - anasının zorla Azərbaycana yola salındıqlarından xəbərdar olan Gülçöhrə Qaradiz stansiyasında intizarla valideyinlərinin yolunu gözləməkdəydi. Nəhayət ki, göz yaşlarına hakim olmayan ata - ana və Gülçöhrə bir neçə illik ayrılıqdan sonra tapışdılar. Erməni zorakılığına lənətlər yağdıran biçarə valideyinlər Kəlbəcərə yol tutdular. 1991 - ci ilin soyuq fevralında hələ altı yaşı tamam olmamış qızcığaz Pəri və dörd yaşına qədəm qoyacaq Qərib Kəlbəcərə buyurub Gülçöhrənin qayğısını qəbul etdilər. Uşaqların talehini ata - anasından öyrənən və özünün də uşaqlıq illərində həyətlərində oynadığı Qərib dayının və Göyərçin xalanın nəvələrini göz bəbəyi kimi qoruyan Gülçöhrə uşaqlara əsil ana himayəsi göstərirdi. Bu belə bir vaxta təsadüf edirdi ki, silahlanmış erməni quldurları Dağlıq Qarabağda milli təmizləmə adı ilə Azərbaycanlılara qarşı təzyiqlərə və təqiblərə başlayaraq bütün Qarabağ ərazisini işğal etməyə meyilli olmuşdular. Erməni millətçiləri silahlanaraq Xankəndində(Stepanakert) yaşayan azərbaycanlıları zor işlətməklə doğma yurdlarından didərgin salıb 1991–ci ilin

sonlarına kimi şəhərin etnik təmizlənməsinə nail olurlar. Bu müvəffəqiyyətdən ruhlanan erməniilər Dekabrın 23 - də Xocalı rayonunun Meşəli kəndinə hucum edərək xeyli insanın ölümü və yaralanması ilə nəticələnən qətliam törətdilər. Meşəli kəndinin iyirmi səkkiz sakini qətlə yetirilmiş, on dörd nəfəri ağır yaralanmış, kənd isə yandırılmışdı. Yerdə qalan əhali isə sürgün edilmişdi. Eyni qətliamı Xankəndi şəhərinin Kərkicahan kəndində törədən erməni hərbi birləşmələri xeyli kənd sakinini öldürmüş, yaralamış sağ qalan insanları doğma kəndlərindən didərgin salmışdılar. 1991 - ci ilin 25 dekabr ayında nəhəng və dağılmaqda olan Sovet hökumətinin başçısı M. S. Qorbaçov istefa verdi ki, bu da dekabrın 26 - da SSRİ hökumətinin simvolu olan Kremldə Sovet bayrağının həmişəlik endirilməsi ilə bitdi. "Xalqlar dostluğunun" zorla birləşməsindən yaranan Sovetin dağılması erməni millətçilərinin azərbaycanlılara qarşı qətliam törətməsinə şərait yaratdı. 1992 - ci ilin 10 - 12 fevralında qeyri - qanuni erməni hərbi birləşmələri Şuşa rayonunun Malıbəyli və Quşçular kəndlərinə hucumlar edərək böyük qətliam törətdilər. Malıbəyli və Quşçular qətliamı bütün Azərbaycanımızda erməni vəhşiliyinin əks - sədasını yaratdı. Tarixi boyu ermənilərdən Azərbaycana qarşı forpost kimi istifadə edən çar rusiyasının, SSRİ dövlətinin xələfi olan Rusiya dövlətinin ermənilərin sonrakı Azərbaycan qətliamlarına nəinki şərait yaratdılar, hətta köməkçi oldular. 1992 - ci il fevralın 25 - dən 26 - na ke-

çən gecə erməni silahlı birləşmələri rusların 366 - cı alayının köməyi ilə bəşər tarixində analoqu olmayan Xocalı qətliamının faciəsini həyata keçirdilər. Xeyli günahsız insanlar zorakılıq əlamətləri olan qətillərə düçar oldular. Xocalı şəhəri büsbütün yandırılaraq məhv edildi. Qışın boranında əliyalın qaçmağa məcbur olan Xocalı əhli yollarda, meşələrdə güllələnərək qətlə yetirildi. Xeyli insan itgin düşdü. Xocalı faciəsi dünya mediasında işıqlandırılsa da, xristiyan Rusiya və Avropa din qardaşları erməni vəhşilərini suçlamayıb, onların yeni qətliamlara əl atmasına ruh verdilər. 1992 - cilin may aylarında erməni hərbi birləşmələri əvvəlcə Şuşa şəhərini və sonradan Dağlıq Qarabağın Ermənistan dövlətinə çıxışını təmin edən Laçın şəhərini işğal edərək Ermənistan dövlətinə birləşmənin bünövrəsini qoydular. Azğınlaşmış erməni hərbi birləşmələri işğal etdikləri ərazilərdə texniki cəhətdən zəif təmin olunmuş Azərbaycan könüllü dəstələrinin güclü müdafiəsi ilə qarşılaşsalar da, rus qardaşları tərəfindən ağır hərbi texnika ilə silahlanmış erməni hərbi birləşmələrinin gücü qarşısında geri çəkilməli olurdular. Bu da erməni işğalçılarına imkan verir di ki, işğalçılıq niyyətlərini davam etdirib Dağlıq Qarabağa aidiyyatı olmayan torpaqları da zəbt etsinlər. Ermənistan dövləti ilə Dağlıq Qarabağ arasında birləşməyə əngəl olan yeganə rayon Kəlbəcər olurdu. Kəlbəcər şəhərinin işğalına ermənilər xüsusi önəm verdiyindən daha güclü hərbi hucumla işğala başlamaq niyyətində

idilər. Kəlbəcər işğalına fasilə ayırıb hərbi güc toplayan ermənilər işğal etdikləri torpaqlarda arxalandığı və güc aldlğı Ermənistan dövlətinin köməyi ilə məskunlaşma siyasəti aparır, sərvətləri Ermənistana daşıyır, canını götürüb qaçan yerli əhalinin illərlə topladığı maddi - mənəvi nə varsa əllərinə keçirir, evləri talan edirdilər. Laçının işğal edilməsindən məyus olan Kəlbəcər əhli anlayırdılar ki, Laçının aqibəti onları da gözləyir. Kimlərin imkanları çatırdı baş verəcək xaosdan, erməni vəhşiliyindən qurtulmaq üçün müharibənin qapılarını döymədiyi rayonlara, əksərən Bakıya köç edirdilər. Yaşlı ata - anasına və körpələrə qayğı göstərən, əri Müseyibin Laçın döyüşlərində itgin düşməsindən kədər hissi keçirərək əlacsızlığa qapılan Gülçöhrə bir çox insanlarla bahəm, Allaha pənah! - deyib yaşamaqda davamlı olurdular. Öz qızı Fidan yaşında olan Pəri qoçaqlığı ilə seçilirdi. Heç bir sənədləri olmadığındam məktəbin birinci sinifinə qəbul etməmişdilər. Fidanın hər məktəbdən gəlişini gözləyən Pəri sonsuz bir həvəslə Fidanın kitablarını nəzərdən keçirib, onunla bərabər heç olmasa ev mühitində əlifbanı öyrənməyə çalışırdı. Fidan plastik çöplərdən istifadə edib sayı öyrənərkən, Pəri alışqan çöplərini sayıb kənara qoyurdu. Məktəb müdiri Firuzə müəllimə söz vermişdi ki, 1993 - cü ilin tədrisi başlayanda çalışacaq ki, Pərinin məktəbə getməsini rayon maarif şöbəsindən xahiş etsin. Pəri balaca qardaşını, artıq beş yaşını ötmüş Qəribini muşduluqlayaraq məktəbə gedəcək se-

vincini onunla bölüşdürürdü. Qərib də, artıq balaca bəbə deyildi. Xörək bişirən, çay qaynadıb dəmləyən bacısı Pəriyə köməkçi olur, bəzən qurumuş ağacları gətirib samovarı da odlayırdı. Kəlbəcər əhli erməni vəhşilərinin hucum edə biləcək anlarını gözləsələr də, müharibə anlayışını anlamayan körpə uşaqlar öz uşaqlıq dünyagörüşləri ilə böyüməkdə idilər. Bu böyüyən uşaqlar içərisində zavallı Pəri məktəbə qədəm qoyacaq anlarını gözləyirdi. Hətta, İmran babası ona məktəb çantası da almışdı. Sədəf nənəsi isə Pəriyə isti corab da toxumuşdu. Bütün çətinliklərə baxmayaraq Kəlbəcər əhalisi yaşamlarını davam etdirirdilər. Erməni hərbi quldurları Kəlbəcəri işğal etmək niyyətindən əl çəkməmişdilər. Onlar Kəlbəcərin coğrafi relyefinin çətinliklərini bildiklərindən əlverişli vaxt müqabilində işğal planlarını həyata keçirmək üçün hucum planı qururdular. Kəlbəcər dəniz səviyyəsindən daha yüksək olan dağlarla əhatə olunduğundan və qışın sərt keçməsi ilə izah olunduğundan erməni quldur baş bilənləri Kəlbəcəri işğal etməyi yaz ərəfələrinə saxlamışdılar. İkinci bir tərəfdən çox itgi verməmək üçün hava gəmisindən istifadə etməklə xeyli əsir götürməyi planlaşdırmışdılar.

1993 - cü ilin aprel ayının əvvəlləri olardı. Hava gəmisi olan vertolyotlara Azərbaycansayağı hərbi forma verən və bir neçə Azərbaycan dilini bilən hərbiçilərdən istifadə edən erməni hərbi birləşmələri Kəlbəcərə daxil olub əhalini çaşdırmağa başladılar. Erməni terrorçu,

ASALA terror təşkilatının qurucusu, cəllad Monte Melkonyanın iştirakı ilə erməni hərbiçisi səs ötürücü ilə əhaliyə müraciət edib, yolların bağlı olduğunu və heç bir yerə çıxışın olmadığını bildirməklə xilas yolunu əhalinin vertolyota minməsində görür. Əhalinin tezliklə vertolyota minməsinə çalışan erməni hərbiçiləri 10 dəqiqə vaxtlarının qaldığını elan etməklə xoflanmış əhalini çaşdırırlar. Erməni quldurlarını öz əsgərləri hesab edən əhali xilas olmaq üçün 10 dəqiqə vaxtlarının qaldıqlarını bildiklərindən tələsməyə məcbur olurlar. Bu da hay - küyə düşən camaatın vertolyota tələsik minməsi ilə nəticələnir. Tələm - tələsik canını qurtarmaq istəyən Kəlbəcər camaatı vertolyota doluşurlar. Gülçöhrə yaşlı ata - anasını və körpə uşaqları vertolyota mindirməyə çalışır. Vertolyotun nəriltisindən qorxan Pəri qolundan bərk yapışdığı qardaşı Qəriblə bərabər böyük bir daşın arxasına keçib gizlənmək çarəsini bulurlar. Ata - anasını vertolyota mindirən və uşaqları da mindirməyə çalışan Gülçöhrə Pəri və Qəribin yox olduğunu görüb, Fidandan onları soruşur. Qorxudan əsməcə tutan Fidan çiyinlərini çəkib bilmədiyini izhar edir. Əlacsız qalan Gülçöhrə Fidanı vertolyota mindirib ata - anasına tapşıraraq binəva uşaqlar üçün geri dönmək istəyir. Bu zaman qüvvətli bir əl onu vertolyotun içərisinə itələyir. Gülçöhrə Pəri - Qərib deyib haraylasa da, zavallı uşaqlardan bir səs çıxmır. Vertolyotun qapısı örtülür və səmaya qalxaraq əhalini əsirliyin başlayacaq girdabına aparır.

Vertolyotların uçuşunu görən zavallı bacı - qardaş tənha qaldıqlarından bıldır - bıldır göz yaşı tökürlər. Adamların seyrəkləşdiyi bu məqamda ailəsini axtaran qonşu Almurad kişi dörd göz olub ailəsini axtarır. Hərdən bir əlini dizinə çırpıb özünü lənətləyir ki, gərək Qubadlıya dostu Xanəlinin övlad toyuna getməyəydi. Xeyli axtarış edən Almurad kişi yekə daş yanında gizlənmiş iki balaca uşağı görüb yaxınlaşaraq, onların Müseyib ailəsində yaşayan uşaqlar olduğunu anlayır. Pəri və Qərib onlara yaxınlaşan Almurad kişiyə ümidlə baxırlar. Almurad kişi uşaqları yanına alıb nəinki Kəlbəcəri, ətraf rayon və kəndləri çığır - çığır tanıdığından Qubadlıya doğru səmtlənir. Qubadlıya çatan Almurad oğlunun toyunda iştirak etdiyi Xanəli dostunun evinə gəlir. Kəlbəcərdə baş verən əhali köçünü dostuna danışır. Özünə ürək - dirək verən Almurad kişi yəqin edir ki, ailəsi yəqin vertolyotla Bakıya, yaxud Yevlaxa getmiş olar. Toydan sonra Kəlbəcərə qədəm qoyan Almurad kişi bu uşaqlardan başqa kimsəni görməyib, sahibsiz qalan qonşu uşaqlarını özü ilə pənah gətirdiyini Xanəliyə danışır. Xanəli dostu Almuradın başına gələnləri eşidib pərişan olur. Sonra üzünü Almurada turub buyurur ki, Kəlbəcər işğalından sonra yəqin ki, Qubadlı da işğal ediləcək. Çox təəssüf, nə edə bilərik ki?Avtomatla silahlanmış əsgərlərimiz təpədən dırnağadək silahlanmış güclü döyüş maşınları olan erməni quldurlarının qarşısında əlbəətə dayana bilməz. Bizim bu hökumətimiz nə

işə baxir heç başa düşə bilmirəm. Adlarını Xalq Cəbhəsi qoyublar, hakimiyyəti silahla ələ alıblar, ancaq ordu quruçuluğu deyilən bir hərəkət yoxdur. Ay Almurad kişi qeyrətli, vuruşan oğlanlarımız var. Onlar dəstələr yaradıb erməni quldurları ilə vuruşurlar. Ancaq, dəstə orduya tab gətirməz axı?! Güclü ordu olmasa vallahi - billahi erməni torpaq acgözləri nəinki Qubadlını, digər rayonlarımızı da işğal edib, milləti pərən - pərən salacaqlar. Düz buyurursan Xanəli qardaş. Ermənіnin arxasında rus var, bizim də arxalandığımız Türkiyədir, o da belə. Necə yəni belə? Əşi bu Elçibəy rəhbərimiz erməni hucumundan əziyyət çəkib dara düşənlərimizi xilas etmək üçün Türkiyə rəhbəri S. Dəmirəldən vertolyot xahiş edibdi. O, da vertolyot verməyib, Elçibəyi pərişan edibdi. İndi Elçibəy bir o qədər pulu hardan tapsın ki, məsələn Amerikadan silah ala bilsin. Nə danışırsan, Almurad? - deyə Xanəli təəccüblü olaraq buyurdu. Yəni biz o qədər kasıb olmuşuq! Əlbəətə kasıblamışıq Xanəli qardaş. Düzünü bimək istəyirsən deyim. Dövlət xəzinəsi bombulum boşdur. Hardasan, ay Əliyev Heydər?! Bir vaxtlar Brejnev həftə - səkkiz, mən doqquz Bakıya gəlib bayrağımıza orden asırdı. O günlər də getdi, çox hayıf! Əşi ay Almurad nə hayıflayırsan? Brejnevin vaxtında ət əvəzinə sümük qaynadırdıq. Adını da rusfasonu qoymuşdular"Sup nabor". Yadından çıxmayıb ki? Hələ neft iyi verən yağ əvəzi marqarindən danışmıram. Ə nə olsun, Xanəli?!Müharibə yox idi, ermənilər qudurub

Azərbaycan torpaqlarını işğal etmirdi. İnsanlar ev - eşiklərindən olub pərən - pərən düşmürdülər. Nə isə, Xanəli qardaş. Keçənə güzəşt deyərlər. Mən uşaqlarla bərabər günü sabahdan Bakıya, ya da Yevlağa gedib ailəmi axtarsam pis olmaz. Axşam yeməyinin vaxtı idi deyən, Xanəli kişi arvadı İstifanı çağırıb axşam xörəyi sifariş etdi. Bir azdan televizoru qurdalayan Xanəli kişi Azərbaycan televiziyasının son xəbərlərini dinləməkdə qərarlı oldu. Elə birinci deyimdə aparıcı elan etdi ki, bəs erməni işğalçıları Kəlbəcər əhalisində çaşqınlıq yaradaraq xeyli əhalini vertolyotla əsir götürüb, Ermənistana aparıblar. Bayaq əldən ürəyini tutan Almurad vay dədəm, - deyib yerə yıxıldı. Xanəli qardaş ailəm əsir getdi, - deyib qəşş etdi. Yeganə ümidləri olan Almurad kişinin gözü yaşlı halını görən zavallı bacı - qardaşları hönkürtü götürdü. Bütün gecəni ah - vayla keçirən Almurad kişi səhəri Xanəli dostu ilə xudahafisləşib, bacı - qardaşı yanına alaraq Qubaya qızı Dilarənin evinə getməkdə qərarlı oldu.

Hələ erməni - azərbaycan münaqişəsindən xeyli əvvəl qızı Dilarəni Qubanın Qəçrəş kəndinə gəlin köçürmüşdü Almurad kişi. Oğlan tərəfi az - çox imkan sahibi idilər. Kürəkəni Loğmanın atası Səfər kişi arıçı olaraq tanınırdı. Bakıda xeyli alıcıları olduğundan yaxşı da dolanırdılar. Səfər kişi hər gəlişində bal hədiyyəsini əsirgəməsə də, Almurad kişi onu Kəlbəcərin adı çıxmış balına qonaq edərdi. İndi Səfər kişi rəhmətə getdiyin-

dən oğlu Loğman ata işini davam etdirirdi. Almuradın qızı Dilarə Qarabağda baş vermiş milli toqquşmaların ilk dönəmində xahiş etmişdi ki, ailəsi ilə bərabər Qubaya, təbiət möhtəşəmi Qəçrəşə köçsünlər. Almurad kişi qızının qayğıkeşliyinə minnətdarlıq edər və deyərdi ki, bizim Kəlbəcərimizdən heç yerdə yoxdur. Almurad kişi Kəlbəcərinin vurğunu idi. Ancaq, hazırkı məqamda nə edə bilərdi ki?Artıq Kəlbəcər düşmən tapdağında, ailə əsirlikdə mən isə balalarla Qəçrəşə pənah aparıram. Almurad kişi ilə Qubaya yola düşən Pəri yeyin addımlar atan Almurad kişi ilə ayaqlaşmağı bacarırdı, Qərib isə tez - tez yorulurdu ki, bu məqamda Almurad onu qucağında aparmalı olurdu. Belə anlarda Qərib şirin - şirin yuxulayaraq Almurad kişinin boynuna sarılırdı. Uşağın isti nəfəsini duyan Almurad əsir düşən nəvəsinin iyisini sanki Qəribdən alırdı. Almurad kişinin balaca Qəribə göstərdiyi bu qayğıdan riqqətə gələn Pəri sanki illərlə görmədiyi atasını onun simasında görürdü. Qubaya çatıb aclıqlarını öldürmək istəyən Almurad kişi bulka, peçenye ilə uşaqların qarnını doyurub, Qəçrəşə gedəcək avtobusu gözləməli oldu. Almurad kişini Pərinin qardaşına olan məhəbbət və qayğısı məətəl qoymuşdu. Qızçığaz cibinə qoyduğu bulkadan çimdik - çimdik yeyər və qardaşı Qəribin aclığına imkan verməyərək onu doyuzdurardı. Uşaqlar Almurad kişinin qayğısını hiss etdiklərindən onu özlərinə məlhəm sayir və göstərilən qayğını atalıq qayğısı kimi başa düşürdülər. Hələ Qəçrəşə yola

düşməmişdən əvvəl tez - tez mürgüləyən Qəribi qızcığaz əziyyət çəkməsin deyə, qucağına alan Almurad kişi onu şirin yuxuya aparardı. Bu atalıq qayğısından istilik hiss edən yuxulu Qərib diksindiyi hallarda ata, - deyərək Almuradı bərk - bərk qucaqlayardı. Ata üzü görməyən qardaşı Qəribin ata çağırışı, sevinc hissi keçirən Pərini həyəcana gətirib göz yaşına qərq edərdi. Bir azdan Qəçrəşə gedən kiçik həcmli avtobusa minən Almurad və körpələr yola düşməli oldular. Avtobusun şüşələrindən meşələri seyr edən Pərini təbiət mənzərəsinin gözəlliyi ağuşuna almışdı. Eyni ilə Kəlbəcər meşələrindən seçilməyən Quba - Qəçrəş yol boyu meşələri Qəribə də sanki, Kəlbəcəri xatırladırdı. Bacısı Pərinin qucağına sığışıb avtobus pəncərəsindən ətrafı seyr edən Qərib avtobus laylasından yuxuya getmişdi. Balaca qardaşını bağrına basan Pəri də mürgü vururdu. Hərdən avtobusləngər vuranda diksinib oyanan Pəri qardaşını qucağında görüb, sanki itirəcəyindən qorxaraq başını sığallayar və təkrarən mürgüləyərdi. Almurad kişi uşaqların mışıl - mışıl və xəfifcəsinə yatışını seyr edər və əsirliyə düşmüş balalarına, körpə nəvəsinə duaçı olardı. Nəhayət avtobus Qəçrəşə yan aldı. Almurad kişi sakitcə uşaqları oyadaraq avtobusu tərk etdilər. Elə yolun yuxarı hissəsinə qalxmaq istəyirdilər ki, Dilarənin ata! - deyərək çağırışına hay verən Almurad iki qolunu açıb çoxdan görmədiyi qızını bağrına basdı. Ata - bala erməni quldurlarına əsir düşən ailələrini həsrəti ilə göz yaşı tökdülər.

Dilarənin ata deyib Almurad kişini qucaqlaması Pəri və Qəribi təəccüblü hala salmışdı. Dilarə atasının qolundan tutub evə doğru yol tutmaq istərkən Almurad kişinin uşaqlara çönüb əllərindən tutaraq özü ilə aparmaq cəhdi Dilarədə təəccüb və sual yaratdı. Ata, bu uşaqlar kimdir belə?Almurad kişi qızına him - cim edib qandırdı ki, bu da bizim balalarımızdır. Ata him - cimini başa düşən Dilarə onları qucaqlayıb üzlərindən öpmüş oldu. Almurad kişi yorğun görünən Qəribi qucağına alıb, Pərinin qolundan yapışmaq istərkən Dilarə atasını qabaqlayıb Pərinin əlindən yapışaraq evə doğru səmtləndilər. Almurad kişinin qucağında özünü rahat hiss edən Qərib, bacısı Pərini süzərək sevincini təbəssümü ilə ona izhar edirdi. Pəri də sevincli idi. Almurad kişinin bütün həssas hərəkətləri zavallı uşaqlarda bir istilik yaratmışdı. Bu istilik həm də körpələrə sığınacaq kimi görsənirdi. Evə daxil olan Almurad kişi qız nəvəsini görməyib, Şəhlasını soruşdu. Dilarə bildirdi ki, qızı bir sinifdə oxuduğu qonşu qızı Vəsilə ilə dərslərini hazırlayır. İndi səsləyərəm gələr. Şəhla da sənin üçün çox darıxıbdır, ay ata. Elə durub - oturub sən babası ilə sayaqlayır. Qərib söhbətin nədən getdiyini anlamasa da, Pəri sanki səksəkədə idi. Birdən Şəhla gəlsə biz yaddan çıxmarıq, unudulmarıq ki? - deyə Pəri duyğulanırdı. Elə bu dəm anasının onu haylamasını eşidib, dərslərinə sonluq verən Şəhla qapıdan içəri girib, qollarını ona açmış babasının qucağına atılmış oldu. Artıq böyüyüb 13 yaşına çatmış

nəvəsini baba öpücüklərinə qərq edən Almurad kişi Pəri və Qəribi Şəhlaya göstərib bildirdi ki, tanış ola bilərsən bu uşaqlar sənin bacı və qardaşındır. Uşaqlar bir - biri ilə qucaqlaşıb görüşdülər. Pəri ondan xeyli böyük görsənən Şəhlanı Almurad kişiyə göstərib, ondan böyük olan bir bacısını gördüyündən şadlıq keçirdiyini izhar etdi. Pərinin yekə qızlara məxsus deyimi Almurad kişini xeyli sevindirdi. Dilarə günortadan xeyli keçməsinə baxmayaraq həyətdəki çolpanın başını üzərək yaxşı bir nahar yeməyi hazirladı. Süfrə açılmamış kürəkənin hələ də görməyən Almurad dilləndi. Qızım bəs Loğman haradadır belə gözə dəymir? Eh, ay ata Loğman işsizlik əlindən Bakıya gedib "qul bazarında"fəhləliyini edərək bizə pul göndərir, biz də dolanırıq. "Qul bazarı"niyə? - deyə Almurad kişi təəccübləndi. Oxumuş adamdır, nədən bir yaxşı iş tapa bilməyib?Zəmanənin dəyişildiyini hələ hiss etməyən Almuradın təəccübünə cavab olaraq Dilarə atasına bildirdi ki, indi iş tapmaq savadlı olmağınan deyil. İndi ölkənin vəziyyəti elə ağırdır ki, iş tapmaq müşgülə düşüb. Zavod yox, fabrik yox, olub - qalan müəssisələr də bağlanıb. İlk əvvəl Loğman Bakıdan gəlib "Qul bazarı" deyilən yerdə işlədiyini deyəndə, mən də iş yerinə görə gileyli idim. Əlləri yük daşımaqdan qabar - qabar olan Loğman deyirdi ki, bu müharibə dolanışığın evini yıxıb. Oğlanlar var ki, hüququ oxuyub, ancaq bizimlə bərabər yük daşıyır. İndi iş tapmaq çox çətindir. Hə, qızım başa düşdüm, ancaq bu heç də

xoşa gələn deyil. Bizlər rayon adamıyıq, təsərrüfatla məşğul olub Allah verdiyi nemətlərdən dadırıq. Mən arıçıydım. İşim - peşəm arılara qulluq etmək və bal hazırlamaq idi. İndi deyək ki, oxumuş Loğman yox mənəm Bakıda arıçılıq edə bilərəmmi? Əlbəətə yox!Araya sükut çökdü. Uşaqlar yol yorğunu olduqlarından yaxşıca nahar edib həyətə çıxaraq oynamağa meyilli oldular. Arada fürsət tapan Dilarə bu uşaqların kimlər olduğunu soruşdu. Almurad kişi qonşu Gülçöhrə gilə Ermənistandan köçkün kimi gəlmiş ata - anaların gətirdikləri kimsəsiz zavallı uşaqlar olduğunu ərz etdi. Uşaqların keçmişini nağıl edib qızından xahiş etdi ki, bu biçarələrə bacardıqca köməkçi olsun. Mən yəqin ki, əsir düşən ailəmin sorağını almaq üçün Bakıya getmiş olacam. Atasının Bakıya belə tez qayıtmaq fikiri Gülçöhrədə təəccüb yaratdı. Ay ata, Bakıda kimlərə pənah aparacaqsan? Elə yaxşı ki, gəlmisən. Bizimlə qalarsan, Loğman gələndən sonra bu barədə nə isə düşünərik. Yox qızım, - deyə Almurad kişi buyurdu. Vaxtı əldən vermək olmaz. Sən bu uşaqlara baxsan, elə bil mənə qayğı göstərmiş olacaqsan. Ay ata, sən uşaqlardan heç narahat olma. Mənim Gülçöhrə bacıma həməşə hörmətim olub. Yadıma gəlir, Gülçöhrə bacımın bizlərə gəlin gəlməyi. O vaxt mən hələ uşaq idim. Gülçöhrə bacımla dostluq edərdim. Çox səmimi, ürəyi açıq bir gəlin idi. Elə onun, sən əziz atamın xatirinə mənə əmanət etdiyin uşaqlara balam Şəhla kimi can yandıracam. Məni narahat edən odur ki, Bakı-

ya gedib harada qalacaqsan?! Almurad kişi yaxın keçmişin xəyalına dalıb handan - hana dilləndi. Qızım yadındadır, mənim bir əsgərlik dostum bizə qonaq gələrdi. Hə ata, Əşrəf əmini deyirsən. Ay sağ ol, yaddaşına qurban olum. Hər gələndə özü ilə Bakıya kilolarla bal apardı. Hə ay ata, Əşrəf əmi hələ mənə bir velosiped də almışdı. Ha çalışırdım sürməyi öyrənim, ancaq yıxılıb qıçamı əzirdim. Əşrəf əminin qızı Sevil yaxşı velosiped sürərdi və məni də öyrətməyə çalışardı. Düz buyurursan qızım, hər şey yadında yaxşı qalıb. Bildiyim qədər Əşrəf indi Bakıda yaxşı bir vəzifədədir. Əşrəf elə əsgərlik vaxtından diribaş olmaqla bərabər savadlı idi. Bakılı olduğundan rus dilini ruslardan yaxşı bilirdi. Elə bu dil biliyinə görə ona serjant rütbəsi verib, vzvod yəni indiki vaxtda bizim dilimizdə desək, alay komandiri etmişdilər. Nə isə, Əşrəf çoxdanın diribaş Əşrəfi idi. Getsəm onun yanına həm əsir düşmüş ailəmizin vəziyyətini öyrənərdim, həm də mümkünlük olsaydı kürəkənimiz loğmana da bir gün ağlayardım. Yoxsa burda oturmağımdan heç nə çıxmaz. Nə deyirəm, ay ata. Sən bizim böyüyümüz və başbilənimizsən. Necə ürəyin istəyir, elə də hərəkət et. Hə qızım, hələ ki uşaqlar oynamaqdadırlar mən hazırlaşım Bakıya. Elə bil uşaqlar qulaq səksəkəsində idilər. Qəflətən otağa daxil olub Almurad kişinin hazırlıqlarını görərək təəccübləndilər. Pərinin və Qəribin məzlum baxışlarını görən Almurad kişi özündən asılı olmayaraq doldu. Yaşaran gözlərini kəna-

ra çəkib binəva uşaqlardan gizlədirmiş kimi pencəyinin qolu ilə göz yaşını silib, üzündə təbəssüm yaratdı. Bax, balalarım Bakıda bir balaca işim var tezcə görüb qayıdacam. Şəhla bacınız sizinlə oynayacaq və gününüz yaxşı keçəcək. Sonra qızı Dilarəni kənara çəkib ailəsi əsir götürüləndən sonra evə dəydiyini və dar gün üçün saxladığı qızıla bəzədilmiş gümüş bel toqqasını və bir neçə qızıl üzükləri ona verərək çətin gün üçün lazım olacağını qeyd etdi. Almurad kişi qızının yol üçün hazırladığı yemək çantasını götürüb halalaşmaq istəyirdi ki, Pəri və Qəribin hazırlıqlı olaraq onun yolunu kəsdirdiklərini gördü. Hər iki uşağı bağrına basan Almurad onları əmin etdi ki, tezliklə qayıdaraq onlarla bir yerdə olacaqdır. Almurad kişinin inancıl danışığı uşaqları razı saldığından onlar Dilarə və Şəhla ilə birlikdə yola düşən qayğıkeş atanı xoş halla yola saldılar. Yolda dayanmış avtobusa doğru səmtlənən Almurad kişi avtobusda yerini möhkəm edib pəncərədən uşaqlara əlini yellətdi. Qayğılı atalarını yola salanlar pərişan idilər. Pəri və Qərib hıçqırıqlarını saxlaya bilmirdilər. Onların pak və səmimi qəlbləri Allaha bağlı olduğundan bu hıçqırtılar xoşagəlməz bir hadisənin baş verəcəyinin əks - sədası idi. Axşam yeməyini nuş edən Dilarə və uşaqlar televizorda eşitdiklərindən bihal oldular. Qubadan Bakıya gedən avtobus yük maşını ilə toqquşmuş və xeyli sərnişin həlak olmuşdu. Həlak olanlar arasında Almurad kişinin də olduğu cibindəki pasportla müəyyən olunmuş-

du. Həlak olan Kəlbəcərli Almuradın yaxınları axtarılırdı. Dilarə və uşaqlar göz yaşı içərisində boğulurdular. Qərib bacısının qolundan yapışaraq, sanki onu itirəcəyini duyduğundan əl çəkmirdi. Pərinin isə göz yaşları sifətində muncuqlanaraq ətəyini nəmləndirirdi. Atasının nəşini yaşadığı Qəçrəş kəndinin qəbiristanlığında dəfn edən Dilarə özünə yer tapa bimirdi. Balaca uşaqlar Almuradın dəfn olunduğu yerdə gözlərindən bıldır - bıldır yaş tökürdülər. Pərinin ata, deyib hönkür - hönkür ağlaması böyükləri də göz yaşına qərq etmişdi. Dəfndən müəyyən vaxt keçməsinə baxmayaraq balacalar demək olar ki, hər gün ata qəbirinin torpağını qucaqlayaraq sellənən göz yaşları ilə torpağı isladıb, onları qayğısız qoyan Almurad kişiyə xitab edirdilər: - Bizim bəs atamız kim olacaq?Bizi kimə tapşırıb getdin, nəvazişini bizdən əsirgəməyən əzizimiz. Bu sözlər özündən qat - qat böyük olanları belə dəhşətə salan səkkiz yaşlı bir qızcığazın fəryadı idi. Dilarə ata əmanəti olan zavallı uşaqları qucaqlayıb, mən varam qorxmayın ömrüm boyu sizə qulluqdayam. Balalarım çalışacam ki, atamın ruhu narahat olmasın. Dilarə uşaqları hər dəfə yalvar - yapışla evə gətirsə də, balacaların əzgin ruhunu oxşaya bilmədi. Uşaqlar evdə günlərini pərişan keçirir, gündüzlər isə qayğıkeşliyi ilə uşaqlarda iz buraxmış Almurad atanın qəbrini ziyarət edirdilər.

Bir müddət sonra evinə qayıdan Loğman Dilarənin hüznünə şərik olub, balaca uşaqların haradan peyda

olduğunu soruşdu. Dilarə uşaqların ata əmanəti olduğunu Loğmana bildirib, zavallı uşaqların talehini ərinə nəql etdi. Loğman uşaqlara mərhəmət hissi ilə yanaşsa da, körpələr Almurad nəvazişini Loğmanda görmürdülər. Ancaq nə etsinlər ki, onların gedəcək və yaşayacaq yerləri yox idi. Yeganə pənah aparacaq yerləri Almurad kişinin qəbiri olurdu. Günlərin birində uşaqlar evdə olmayan vaxtda Loğman Dilarəyə ərz etdi ki, işləyib çox yorulur və eyni zamanda isti yemək üzünə də həsrətdir. Qərara gəlibdir ki, balaca və ucuz bir kirayə ev götürüb Bakıda ailəsi ilə bahəm yaşasınlar. Loğmanın bu təklifi Dilarəni üzmüş oldu. Bəs, bu zavallıları o balaca evdə yerləşdirə biləcəyikmi? Loğmanı əsəb cənginə aldı. Bəs yaxşı mən nə edim?! Mən ailəmizin, özümün dərdini çəkirəm, sən isə atanın bizə gətirdiyi talehsiz uşaqların dərdini mənə danışırsan. Allah imkan versəydi, atan sağ qalıb uşaqlara baxardı. Bu Allahın onlara verdiyi talehsiz yaşamdır. Mənim qazancım, ancaq özümüzə çatar. Dilarə ərinə yalvardı ki, uşaqların xətrinə dəyməyək. Mən də Bakıda bir iş tapıb bu zavallıları saxlayaram. Loğman könülsüz olaraq razılıq versə də, daxili narazılığı hiss olunurdu. Bir neçə gündən sonra Bakıya gedən Loğman, həftə keçməmiş kəndə qayıdıb lazım olacaq gündəlik əşyaları köç üçün yığışdırmağa başladı. Bakıya getmək həvəsi Şəhlanı sevindirsə də, zavallı uşaqlar Almurad atanın qəbirini tənha buraxmayacaqlarını bildirdilər. Dilarə uşaqları ələ almaq üçün iki bala-

canın tənha yaşamalarının çətin olacağını desə də, uşaqlar heç yerə getməyəcəklərini qətiləşdirdilər. Pəri və Qərib bir - birlərinə elə sığınmışdılar ki, sanki onları kimsə ayırmaq istəyirdi. Loğmanın əsəbi hərəkətləri uşaqlarda qorxu yaratmışdı. Bu qorxunu hiss edən Pəri və Qərib evdən qaçaraq Almurad atanın qəbir üstünə pənah apardılar. Həyətdə əşyalar yığılmış maşın Loğman ailəsini gözləyirdi. Dilarə göz yaşı içərisində boğulurdu. Yeganə əlacı qızı Şəhlanın birgə dərs hazırladığı Vəsilənin ailəsi olurdu. Vəsilənin anasına müraciətli olan Dilarə hal - qaziyəni danışıb, uşaqlar evə qayıdacağı halda onlara himayəçilik göstərməyi xahiş etdi. Əlindəki qızıl üzüyü Vəsilənin anasına verən Dilarə dar ayaqda lazım gələr, - deyib hönkürtü ilə ağlayaraq onu gözləyən maşına doğru yollandı.

Bu minvalla ağrılı - acılı günlərdən üç il keçmişdi. Pəri və Qərib bir daha evə qayıtmamış və özləri kimi sahibsiz olan tifil uşaqlara qoşularaq bir ucu Quba avtovağzalindan tutmuş dağılmış köhnə evlərdə toza bulaşmış döşəklərdə, yorğanlarda yatıb, əllərinə keçən paltar və ayaqqabılarla fəsillərin istisinə - soyuğuna davam gətirərək yetim həyatı sürürdülər. Yay vaxtı Almurad atanın qəbirini ziyarət edir, qışda soyuq olanda avtovağzalda, istilik borusu olan zirzəmilərdə günlərini başa vururdular. Yeməkxanalarda artıq qalan çörək və xörəklə qidalanırdılar. İndi üç ilin tamamında uşaqlar xeyli yekəlmişdilər. Artıq Pərinin on bir, Qəribin isə doq-

quz yaşı tamam idi. Bu müddət ərzində uşaqlar xeyli əziyyətə düçar olmuşdular. Bəzən ayaqyalın olurdular, saçları illərlə yuyulmadığından pırpız hala düşürdü, dırnaqlar isə çirkli olurdu. Çox vaxt, əsasən soyuq vaxtlarda çörək də tapılmırdı. Belə vaxtlarda Pəri cibində gəzdirdiyi quru çörəyi suya batırıb qardaşını yedizdirər, özü isə çimdik - çimdik çörək qırıntısı ilə aclığını öldürərdi. Bir neçə dəfə Pərinin halı pisləmiş, hətta ağzından qan da gəlmişdi. Belə hallarda Qərib bacısının ağuşuna atılaraq nəvazişini bildirmiş və bəzi hallarda göz yaşını quruda belə biməmişdi. Halı pis olan Pəri isə üzündə təbəssüm yaradaraq qardaşının ürəyini oxşamışdı. Bu uşaqların tifil həyatını avtobus sürüçüsü yəhudi Yevda günlərlə seyr edər, bəzən uşaqlara qəpik - quruş verməyə də çalışardı. Yoldaşı Məryəm yaxınlıqdakı yeməkxanada aşbaz işlədiyindən isti yeməklərə uşaqları dəvət edər, özü isə kənara çəkilib zavallı sahibsiz uşaqlara ürək ağrısı ilə baxardı. Yevdanı ən çox qızcığaz Pərinin qardaşına etdiyi qulluq çox incidərdi. Qızcığaz çörəyi cibindən çıxarıb bir çimdik özünə götürər, yerdə qalanını balaca qardaşına yedirdərdi. Bu balaca tifillər içərisində onun ürəyinə daha çox yatımlı Pəri və Qərib olardı.

Yevda sevimli həyat yoldaşı Məryəmlə otuz il olardı ki, ailə qyrmuşdu. Bu evlilikdən Yevdanın övladı olmamışdı. Doğulanlar elə ana bətnində dünyasını dəyişmişdilər. İllərlə ər - arvad bir ucu qaraçılardan tut-

muş, müqəddəs pirlərə qədər pənah aparmışdılar. Hətta, bir - birini qəlbən sevənlər ikisindən birinin xoşbəxtliyi naminə dostluqla ayrılmaq da istəmişdilər. Ancaq, bir - birlərinə olan möhkəm sevgi onları bu fikirdən uzaqlaşdırmışdı. İndi tifilləri uzun vaxtlar seyr edib bacardığı qədər onlara köməkçi olan Yevda düşünürdü ki, Məryəmlə razılığa gəlib Pəri və Qəribi övladlığa götürsünlər. Yevda qəti bilirdi ki, ata - ana nəvazişi görməmiş bacı - qardaş onların uşaqsız keçən mənasız həyatlarını mənalı edə bilərlər. Düzdür Pəri Almurad atanın onlara nəvaziş göstərdiyini və sonradan öldüyünü bidirsə də öyrənmişdi ki, uşaqların doğma atası onların heç yadında da deyil. Yevda Məryəmlə uşaqlar barədə danışdıqdan sonra belə qərara gəldilər ki, uşaqlara əyin - baş alıb, onları yeməkxanaya dəvət etməklə istilik yaradıb evlərinə aparsınlar. Elə də oldu. Pəri və Qərib nağıllarda olduğu kimi təmizlik halına salınıb, əyin - başlarını təzə paltarlarla bəzədib Yevdanın avtobusunda vaxtı ilə yeməkxana artıqları ilə qidalandıqları yeməkxanaya qədəm qoydular. Yevdanı uşaqlarla birgə qarşılayan Məryəm sevincindən körpələrə ana nəvazişi göstərərək, onları masaya düzülmüş dadlı xörəklərə dəvət etdi. Uşaqlar ləzzətli nahardan sonra Yevdanın avtobusunda Məryəmlə bərabər evə getdilər. Ev uşaqların çox xoşuna gəlmişdi. Bacı - qardaş sevincli olaraq Yevda və Məryəmi süzür, yaranmış sevincli dəqiqələri bir növ tifil vaxtları gördükləri xoş yuxulara oxşadırdılar. Məryəm isti

hamam hazırlayıb uşaqları çimizdirdi. İndi keçmişin tifillərində köhnəlikdən elə bir əsarət qalmamışdı. Qərib də, Pəri də sanki gözəllik donunu geymişdilər. Ən çox Pəri, pırpızlaşmış saçlardan xilas olub gözəllik kraliçasına çevrilmişdi. Məryəm tez bir zamanda axşam yeməyini hazırlayıb süfrəyə düzərkən, Pərinin köməkçi rolunda olan səliqə - səhmanı Məryəmi valeh etmişdi. Axşam yeməyi zamanı Pəridə olan təngnəfəslik, boğulmalı özkürək Yevda və Məryəmin narahatlığına səbəb oldu. Ər - arvad təəccüblü olaraq bir - birinə baxışdılar. Bu baxışları hiss edən Pəri sanki, heç nə olmamış kimi üzündə təbəssüm yaratdı. Bu təbəssümü qəbul edən Yevda dincliyini almaq üçün mütəkgəyə dirsək verib yenicə aldığı qəzeti vərəqləməyə başladı. Pəri öskürəyinin keçəri olduğunu anlayan Məryəm uşaqlar üçün yataq otağında yer salıb, tifil həyatdan sonra yeni və gözəl bir yaşayışa qədəm qoyan uşaqlardakı sevinci görüb rahatlandı. Tifil həyatın neçə illərindən sonra bacı və qardaşın ilk yatışları nağıllı yuxularla əvəz olundu. Budur Pəri məktəbə hazırlaşır. Atası Mirzə və anası Laləzar onun hər iki qolundan tutub məktəbə aparırlar. O, məktəbdə Şəhla və Vəsiləni görüb sevinc hissi keçirir. Evə qayıdarkən nənəsi Göyərçinin qucağında yekə Qəribi görür. Sonra da Sədəf nənə ona xörək bişirməyi öyrədir. Pəri xörək bişirib Almurad atasını qonaq edir. Şirin röyadan təbəssümlənən Pəri gözünü açıb su içində olduğunu gördü. Şirin yuxudan ayılmamaq üçün gözünü yumsa da, qar-

daşı Qəribi yuxulu gözləri ilə arıyır. Qəribin mışıl - mışıl yatdığını görüb təbəssümlənir. Dünənki yeməkxana, təzə paltarlar və gəldiyi ev ani olaraq yadına düşür. Qardaşını qayğılı seyr edən Pərini yuxu öz ağuşuna alır.

Yevda və Məryəm gecə yarısı olduğu halda hələ də yatmamışdılar. Bir - birinə qəlbən bağlı olan ər və arvad neçə dəfə çalışıb övladlığa qız uşağı götürmək istəsələr də, hər dəfə yaranan qorxulu hisslər onları bu fikirdən uzaqlaşdırmışdı. Yadlarına düşür ki, qonşuları Əsmər xanımın qızı və əri maşın qəzasında həlak olduğundan, tənha yaşamağın çətinliyini görüb internatdan qız uşağı götürsə də, sonradan peyda olan ata - ana uşaqlarına sahib çıxıb Əsməri əzaba salmışdılar. Odu - budu Əsmər bir daha uşaq götürməyib tənha yaşayırdı. Əsmər əzabı Yevda və Məryəmdə də qorxu xofu yaratmışdı. İndi isə yan otaqda mışıl - mışıl uyuyan bacı - qardaş onların həyatına yeni yaşam mənası gətirmişdilər. Məryəm elə hey düşünürdü ki, Allahın onlara rəhmi gəlmiş biri qız, biri oğlan olmaqla uzun illərdən sonra onlara övlad payı qismət etmişdir. Hələ, Yevda uşaqları yanına salıb gətirəndə, uşaqları görcək içimdə bir istilik yaranmışdı. Yevdanın mənə olan xoş müraciəti heç yadımdan çıxmır. Ay Məryəm bu uşaqları bir doyunca yedirt sonra sənə bizlərə qismət olacaq xoş gündən danışım. Uşaqlar doyunca yedikdən sonra, Yevda mənə pıçıldadı ki, biz yəhudilər Azərbaycanlılar içərisində həməşə xoşbəxtçiliyimizi hiss etmişik. Azərbaycanlıların

bir gözəl məsəli var: - axtardığım yar idi, yetirdi Pərvərdigar. Bu qardaş - bacı elə ürəyimə yatıb ki, hər dəfə onlara baxanda daxili bir yaxınlıq hiss etmişəm. Bunlar bizim ciyər - paramız ola bilərlər, - deyə təsəlli tapmışam. İndi de görüm nə cavab verib məni feyziyyab edəcəksən, mənim Məryəmciyim!? Mən Yevdanın ürəyinə sərinlik salıb hər iki uşağı bağrıma basaraq, canı - dildən onlara qulluq açdım. İndi onlar şirincəsinə uyuyurlar. Sevimli ərinə tərəf yönəlib indi biz xoşbəxtikmi? - demək istəyirdi ki, ərinin həməşə ona lay - lay çaldığı xəfif xorultusunu eşidib təbəssümlə öz - özünə pıçıldandı. Buy, Yevdam da yatıb ki? Ərinin dodağına hopmuş təbəssüm çöhrəsinə işıq gətirmişdi. Beləcə səhərə yaxın, Məryəmi də yuxu aparmış oldu.

Uşaqlar hələ xoruz banı olmamış köhnə tifil həyatlarına rəğmən yuxudan hamıdan tez oyanmışdılar. Pəri və Qərib yeni evdə, ipək yorğan - döşəkdə xoşbəxtliyin bəxş etdiyi nurlu sifət görünüşü ilə bir - birlərini seyr edib xoşallanırdılar. Pərinin yadına yuxusu düşdü. Uşaq xəyalı ilə qardaşına ərz etdi ki, gecə yuxusunda ata və anasını görmüşdür. Məni məktəbə aparırdılar. Məktəbdə mən Şəhlanı və Vəsiləni gördüm. Evə qayıdanda Göyərçin nənə, Sədəf nənə məni qarşıladılar. Sən elə bu yekəlikdə Göyərçin nənənin qucağında idin. Hələ Sədəf nənə mənə xörək bişirməyi də öyrədirdi. Hə, yaxşı yadıma düşdü Almurad ata da orada idi. Hətta, ona xörək də çəkdim. Qərib bacısının nağılına heyrətlə qu-

laq asırdı. Vəsilə və Almurad atadan başqa heç kimi xatırlamırdı, Qərib. Üzünü bacısına tutub soruşdu ki, ay bacı məhlim bizim ata - anamız da olub? Bəs Almurad ata deyildi! Hə bizim ata - anamız olub, - deyə Pəri dilləndi. Bəs ay bacı, ata - anamız olubsa, onlar haradadırlar? Bax burasını mən bilmirəm. Bu dəm pıçıltı ilə danışan bacı - qardaşa yanaşan Məryəm ay mənim sevimli balalarım, deyin görüm necə yatdınız? İndi Yevda atanız da oyanar, səhər yeməyinə gedərik. Bax bu otaqda əl - üz yuyulan yerimiz var. Məhrəbalar da asılıdır. Yuyunun, qurulanın mətbəxə gəlin. Mən də siz balalarıma səhər yeməyi hazırlayım. Pəri və Qərib əl - üzünü yuyub, bəzəkli və xoş iyi verən məhrəba ilə silinib, mətbəxə daxil oldular. Masada yumurta, yağ, pendir, bal uşaqların gözünü qamaşdırırdı. Mətbəxə daxil olan Yevda hər iki balanı qucaqlayıb səhərlərinə xeyir deyərək onların üzündən öpdü. Bir azdan fındlqlı - qozlu tortu masaya qoyan Məryəm uşaqları birgə yaşam münasibəti ilə təbrik etdi. Bu təbrikə qoşulan Yevda rəfə qoyduğu şərabı özünə və Məryəmə süzərək bir bayatı dedi:

Əzizim Pəri - Qərib,
Bizim evə xoş gəlib,
Biz bir ailə olduq
Rəbbim bizə bar verib.

Yevda və Məryəm bu münasibətlə şərabı içib, uşaqları tort və çaya qonaq etdilər. Səhər yeməyini nuş

edən uşaqlar təəccübdə idilər. Yevda və Məryəm onlara balalarım deyir və bir ailə olduqlarını bildirirdilər. Onlar isə daxilən bu xoş gecənin, uğurlu səhər yeməyinin təəssüratları ilə yaşayır və belə düşünürdülər ki, onlara olan bu qayğı müvəqqətidir və onlar yenidən tifil həyatına ürcah olacaqlar. Odur ki, Qərib ona yuxu kimi görsənən həyatdan uzaq düşməmək üçün Yevdanı suala tutdu. Yevda ata, biz həmişəlik sizinlə qalacağıq, yoxsa…Nə yoxsa, ay mənim ağıllı oğlum. Siz artıq bizim balalarımızsınız. Sizlər indən sonra bizimlə yaşayıb xoş günlər keçirəcəksiniz. Pəri xoş nəvazişdən riqqətə gəlib Məryəmi qucaqlayaraq, ana deməklə ona sevinc bəxş etdi. Pəri və Qərib Yevda və Məryəmi qucaqlayaraq onların xoşbəxt balaları kimi yaşamağa başladılar. Yevda və Məryəmi tanıyan bütün tanış - bilişlər tifil uşaqlara sahib çıxıb, övladları olaraq saxladıqlarına görə minnətdarlıq bildirirdilər.

Pəri və Qərib, Yevda və Məryəm ailəsinə elə isinmişdilər ki, sanki yenidən ata - ana tapmışdılar. Pəri ana dediyivə çox sevdiyi Məryəmlə yeməkxanaya gedib köməklik göstərirdi. Evə qayıdanda ləziz xörəklər ərsəyə gətirirdi. Belə ləziz yeməkləri bişirməsini haradan öyrəndiyini soruşan Məryəmə, Pəri uşaq səmimiyyəti ilə bildirmişdi ki, uşaqlıqda Göyərçin və Sədəf nənələri ona bu bişmələri öyrədib. Məryəmin dalağı sancmışdı. Birdən bu nənələr peyda olub xoş günlərimizi bərbad etməsələr, yaxşıdır. Məryəm Pəridən nənələrinin harada

olduğlarını soruşduqda Pəri bildirdi ki, o nənələrini yuxuda görüb, harada olduqlarını bilmir. Pərinin bu cavabı Məryəmi sakitləşdirmiş və Məryəm uşaq sadəlövhlüyünə lnanmışdı. Pəri məktəb oxumadığından yazı - pozu bilmirdi. Eyniynən Qərib də, məktəbin nə olduğunu anlamırdı. Məryəm düşünürdü ki, heç bir sənədləri olmadan uşaqları necə məktəbə cəlb etmək olar. Qərib isə, Yevda atası ilə bahəm avtobusda səyahət edər və hərdən sərnişinlərin gediş haqqını alaraq Yevdaya köməkçi olardı. Qərib məktəb oxumadığından say bilmirdi və pulları saymaqda çətinlik çəkirdi. Yevda və Məryəm qərara aldılar ki, qonşuluqda yaşayan ibtidai məktəb müəlliməsi Balaxanım qonşuya müraciət etsinlər. Uşaqlara dərs öyrədilməsi, ancaq axşamlar mümkün olurdu. Elə ilk həftələrdə Balaxanım müəllimə uşaqların hafizəli olduqlarını, dərsləri yaxşı əxz etdiklərini Məryəm və Yevdaya bildirmişdi. Bu xəbərdən Yevda və Məryəm çox sevincli olmuşdular. Dərs oxumağa həvəsli olan Pəri gündüzlər Məryəm anası ilə yeməkxanada aşbazlıq edir, axşamlar dərslərə hazırlaşırdı. Belə axşam dərslərinin birində sürəkli göy öskürəklər edən Pərininin zəif halı Balaxanım müəllimin diqqətini cəlb etdi. Pərinin qanlı bəlğəm ifraz etməsi müəllliməni səksəndirdi. Qızcığazı təngənəfəslikdən getdikcə halsız hala düşürdü. Pəriyə ılıq su verib onu sakitləşdirən Balaxanım müəllimə anladı ki, uşağın ciddi xəstəliyi var. Bu barədə Məryəmi xəbərdar edən müəllimə Pərinin xəstəliyinin şid-

dətlənməməsi üçün dərslərə fasilə verməyi vacib saydı. Məryəm hələ ilk vaxtlarda Pərinin belə bir vəziyyətə düşməsini xatırladı. Səhəri Pəri ilə yeməkxanaya işə gedən Məryəm fikirləşirdi ki, allah eləməsin qızcığaz bir də belə hala düşsə mütləq müalicə almalı olacaqdır. Və fikrindən keçirdi ki, uşağı işə cəlb etməsin dincəlsə yaxşıdır. Lakin, yaxşı deyiblər: - sən saydığını say, gör fələk nə sayır. Heç beş dəqiqə keçməmiş oturduğu yerdə qıcığazı tutan bərk və dalbadal öskürəklər onu elə halsız etdi ki, sükunətini saxlaya bilməyib yerə yıxıldı. Məryəm özünü uşağa çatdırsa da, ağızdan axan qanı güclə saxlamalı oldu. Məryəmi dərd götürdü. Uşaq əldən gedir. Pəriyə ilkin köməklik göstərib onunla bahəm evə gələn Məryəm əri Yevdadan xahiş etdi ki, Pərinin sağlamlığı barədə həkimə müraciət etmək lazım gələcək. Balaxanım müəllimə onu qızın xəstəliyi barədə xəbərdar etmişdi. Bu gün isə biçarə uşaq qanlı öskürəyi ilə məni çox qorxutdu. Quba xəstəxanasında ilkin yoxlamalar zamanı məlum oldu ki, Pəridə vərəm xəstəliyinin əlamətləri özünü göstərməkdədir. İlkin məsləhət kimi xəstəliyin yoluxdurucu olması diqqətə çatdırıldı. Belə xəstələr Bakıya aparılıb yoxlamalardan keçsə dəqiq diaqnoz qoyular və müalicəsi aparılar, - deyə həkim məsləhət görmüşdü. Evə qayıdarkən Pəri yol boyu pərişan olan atası Yevdadan sağlamlığı barədə soruşarkən, boğazını qəhər kilidləmiş Yevda onun başına sığal çəkərək sadəcə öskürək olduğunu və dərmanla sağalacağını bildirmişdi.

Evə qayıdan Yevda Məryəmi anlatdı ki, xəstəlik yoluxucudur. Pəncərələri açıb otağı havalandırsaq yoluxuculuq çox olmaz. Bir də ki, mən Pəri ilə Bakıya yola düşəndən sonra Qəribi də həkim müayinəsindən keçirə bilsən ürəyimizdə bir sakitlik olar. Bir neçə gündən sonra Bakıya göndəriş alan Yevda hazırlıq edərkən Qərib təəccüblü olaraq Yevdadan bacısı ilə bərabər onun da Bakıya getməsinə razılıq istədi. Yevda Qəribi qucağına alıb anlatdı ki, biz Pərinin öskürəyini sağaltmaq üçün Bakıya dərman almağa gedirik. Sən ki, öskürmürsən deməli sənə dərman lazım deyil. Həm də biz gedirik mənim balam, bəs Məryəm anan evdə tək qalmayacaq ki? Məndən sonra sən kişisən. Evdə qal və anana köməkçi ol. Biz də dərman alıb bir - iki günə qayıdacağıq. İndi get bacın Pəri ilə görüş biz yola düşək. Qərib bayaq əldən bacısını qucaqlayıb dedi: - bax tez gəl ha, mən sənsiz darıxacam. Pəri qardaşını bağrına basıb bildirdi ki, o qardaşsız yaşaya biməz. Atası Yevda ilə tezliklə qayıdacaq.

Bakı avtovağzalında avtobusu tərk edən Yevda və Pəri vərəm dinspanserinin ünvanını öyrənib tramvaya minərək yola düşdülər.  Böyük şəhər Pərini ağuşuna almışdı. Heykələ baxıb təəccüblə Yevda atadan soruşurdu ki, bu heykəl kimindi?Yaxud, dəmir rels üzərində şütüyən tramvay onu məətəl saldığından təəccübündən tez - tez suallar yağdırırdı. Elə hey durub deyirdi ki, kaş Qərib də burada olaydı, mən gördüklərimi o da görəydi.

Sonra da sevinclə bildirirdi ki, evə qayıdanda gördüklərimi qaqaşıma bircə - bircə danışacam. Nəhayət, dinspanserə qədəm qoyub diaqnostikadan Pərini keçirən Yevda həkimdən xəstəliyin ağır formasında olduğunu öyrənib qəm - qüssəyə batdı. Həkim qızcığazın müalicəsinin davam etdirilməsi üçün xəstəxanada qapalı şəraitdə müalicə alacağını bildirib, hər hansı bir təmasın olmayacağını Yevdanın nəzərinə çatdırdı. Yevda atasından ayrılan Pəri göz yaşları içərisində boğularaq, ancaq onu deyə bildi ki, qardaşımı gətirərsən mən onsuz yaşaya bilmərəm! Kor - peşman Qubaya dönən Yevda yol boyu düşünürdü: - Qərib balama mən nə cavab verəcəm? Qubada avtobusdan düşən Yevda özünü oyuncaqlar mağazasına salıb danışan qız kuklası aldı ki, bu da Qəribi ovutmaqda məsləhətli olurdu. Yevdanı ilk qarşılayan Qərib bacısı Pərini görməyib soruşdu. Ata, bəs bacım Pəri niyə gəlmədi?Yevda düşündü ki, nə yaxşı Məryəm işdədir. Yoxsa dözməyib ağlayaraq Qəribi şübhəyə salardı. Tez kuklanı Qəribə göstərib dedi ki, bəs Pəri xəstəxanada müalicə alacaq. Bax gördüyün bu danışan kuklanı da sənə göndərdi ki, sağalıb gələnəcən onu Pəri kimi sevəsən. Bax inanmırsan!Gör necə də danışır? Qərib kuklanı Yevdadan alıb qışqırdı: - ay mənim canım bacım, səni də çox sevirəm, göndərdiyin danışan kuklanı da. Qərib kuklanın danışmasına qulaq asdıqca sevindiyi kimi, bacısını qəlbi ilə sevən Qəribin bu halını seyr edən Yevda boğularaq hönkürtü keçirirdi. Qərib isə ba-

cısının göndərdiyi kuklanı qucaqlayaraq sanki, bacısının iyisini alırmış kimi bacı xəyalına dalmışdı. Axşama yaxın Məryəm işdən evə gəlib Qəribi kulanı qucaqlayaraq yatmış, Yevdanı isə pərişan görüb həqiqətləri öyrənərək Pəri balasının sağalması üçün allaha duaçı oldu. Məryəm Qəribi xəstəxanada yoxlatdırdığını bildirib uşağın sağlam olduğunu Yevdanın nəzərinə çatdırdı. Bu sevindirici xəbər Yevdanın allaha min şükürlər olsun! - deməsi ilə nəticələndi. Yevda səhəri Qəribi özü ilə işə götürdü. Qərib sanki, birdən - birə yekəlmişdi. Avtobusda sərnişinlərdən yol haqqını yığmaqla bərabər pul sayımını da bacarması Yevdanı az - çox sevindirirdi. Pəri balası ilə təmaslar həkimlər tərəfindən yasaqlansa da, qulaqları səsdə olurdu. İki həftədən bir az keçməsinə baxmayaraq kuklasından əl çəkməyən Qərib bacısı üçün darıxdığını dilə gətirir və nə vaxt evə qayıdacağını ata Yevdadan sorğu - sual edirdi. Günlərin birində Quba xəstəxanasından Yevdanı çağırıb Pərinin xəstəlik ucbatından vəfat etdiyini bildirdilər. Bu xəbərdən Yevda dəhşətə gəldi. Qəribin bacı ölümündən xəbər tutması və dözməyəcəyi Yevdanı vahimələndirirdi. Bir vaxt tapıb gizlincə Məryəmə biçarə Pəri ölümünü çatdıran Yevda, Məryəmi ilə bərabər göz yaşı axıtsa da Qəribi bu ölümdən uzaq saxlamağın yollarını arayırdı. Nəhayət, Yevda köhnə dostu Lavrentini düşünüb belə qərara gəldi ki, Lavrenti ailəsində bir müddət Qəribin gizli saxlanılması vacib olacaq. Axşam üstü Lavrenti ilə görüşən Yevda

ailədə baş vermiş hadisə barədə onu agah edib, Qəribin evində bir müddət saxlanılması üçün razılığını aldı. Yevda evə qayıtdıqdan sonra Məryəmlə belə qərara gəldi ki, Pərini Bakı xəstəxanasından gətirib Qəribi agah etmədən dəfn etmək lazım gələcək. Qərib isə bu müddət ərzində Lavrenti dostumun evində nəvələri ilə gün keçirərək darıxmayacaq. Bu barədə Lavrenti ilə danışıb, razılığını aldığını izhar etdi. Bir azdan Qəribi qucaqlayıb öpən Yevda onu Lavrenti dostunun evinə aparıb nəvələri ilə görüşdürdü. Uşaqların oynamağa başı qarışarkən Yevda Lavrentinin evini tərk etdi. Tələm tələsik evinə qayıdan Yevda Məryəmə xeyli pul verib dedi: - Sən evdə yas üçün hazırlıq et. Mən də sübh tezdən Bakıya yola düşüm.

Bakıya gedib xəstəxanadan biçarə Pərinin nəşini alan Yevda yuyulmuş, kəfənə bükülmüş cənazəni evə yox, bir başa Quba qəbiristanlığına aparıb bir neçə qonşu ilə həyatın nə olduğunu yenicə anlmağa başlayan və qardaşı Qəribə həsrətli olaraq vaxtsız dünyadan köçən on bir yaşlı Pərini dəfn etdilər. Pərini müsəlman qəbiristanlığında müsəlman adəti ilə dəfn edən Yevda və Məryəm Pərinin ölümünü necə Qəribə çatdıra biləcəklərini düşünərək göz yaşları içərisində boğulurdular. Nəhayət, ər və arvad belə qərara gəldilər ki, ölüm barədə Qəribə heç nə deməsinlər. Uşaq böyüyər, bu müddət ərzində bərkiyərərək zalım dünyaya öyrəşər. On gün keçəndən sonra Lavrenti ilə gizlincə görüşüb Qəribin yax-

şı halını öyrənən Yevda uşağı evə gətirməyin vacib olduğu qərarına gəldi. Ata Yevdanı və Məryəmi sevinclə qarşılayan Qərib onların üstünə atılıb sevincini izhar etsə də, bacısı Pərini görməyib pərişan oldu. Ata, bəs bacım gəlmədi evimizə? - deyə soruşdu. Bu yaxınlarda gələcək oğlum, bir az səbr elə. Yaxşı de görüm təzə dostlarınla necə günləri yola verdin. Qərib başladı ki, onlar mənim əsil qaqaşlarımdır. Bir yerdə oynayırdıq, xoş günlər keçirirdik. Ancaq, mənim gözüm yolda idi ki, görəsən nə vaxt bacım gələcək və atam - anam gəlib məni evə aparacaqlar. İndi sizi gördüm sevindim. Kaş bacım Pəri də sizinlə birgə gələydi. Böyüklərin boğazları qəhərdən bağlanmışdı. Lavrenti cəld olaraq hamını yaranmış pərişanlıqdan xilas edib bildirdi ki, ay Yevda qardaş siz gələnə qədər bizim keçimizin bir kəllə atan balası olub. Bu zarafata hamı gülümsündü. Lavrentiyə minnətdarlıq edən Yevda - Məryəm ailəsi Lavrenti ailəsi ilə xudahafisləşib Qəriblə bahəm evə gəldilər. Evə daxil olan Yevda və Məryəm Qəribi qucaqlayaraq xeyli öpdülər. Məryəm Pəri bacısının ona öpücüklər göndərdiyini bildirib, Qəribi bacı adından xeyli öpdü.

Pərinin vaxtsız ölümündən günlər, həftələr keçmiş və müsəlmanların qeyd etdiyi qırx mərasiminə üç gün qalmışdı. Pəri bacısından xəbər almayan Qərib gündəlik bacı sorğuları ilə Yevda və Məryəmin sarsıntılarına səbəb olsa da, onlar müxtəlif təsəlli verəcək cavablarla onu ovutmuşdular. Pəri vəfatından sonra kədərli günlə-

ri daxilən keçirib, Pəri əmanəti Qəribi pərişanlıq keçirməyə qoymayan Yevda və Məryəm yenidən kömək üçün Lavrentiyə üz tutdular. Lavrentinin nəvələri ilə bir neçə gün keçirən Qəribdən bacısının qırx mərasimini gizlədən Yevda onu qırx mərasimindən sonra evə gətirib, özü ilə gündəlik işə aparmağa başlamışdı. Qərib əvvəlki kimi yenə Yevda atasına köməkçi olaraq sərnişinlərdən yol haqqını yığıb ona verməklə bərabər, bacısız kədərli günlərini keçirməkdə idi. Bir gün baş vermiş ani bir hadisə Yevdanı varından yox etmişdi. Yol haqqını ödəyən xanımın qızı Qəribə baxıb təbəssüm edəndə, Qərib bacı deyib onun üstünə atılmışdı. Qızın anası kobudluğundan qalmayıb Qəribi itələməklə qızından uzaqlaşdırmışdı. Qərib isə hönkür - hönkür ağlayaraq, - bacı mən səni gözləməkdən yorulmuşmuşam. Gözlərim həməşə səni axtarıb. İndi niyə məni belə tez unutdun. Bacı. . . Arvad və qızı avtobusdan xeyli aralaşsa da Qərib bacı, - deyib zarıyırdı. Yevda Qəribi qucaqlayıb and - aman etdi ki, gördüyün balaca qız Pəri deyildir. Olsa - olsa bir az oxşarlığı olan bir qızdır. Güc - bəla ilə Qəribin ağlar qəlbini ovuşduran Yevda axşam üstü Qəriblə bahəm evə qayıdıb, olmuş əhvalatı Məryəmə nəql etdi. Bacı həsrəti ilə ağlamaqdan yorulub taqətdən düşmüş Qəribi yuxuya verən Məryəm Yevda ilə öz aralarında belə qərara gəlmək istəyirdilər ki, nə qədər çətin olsa da Pərinin ölümünü Qəribə bildirib onu birdəfəlik bacı narahatçılığından qurtarsınlar. Yevda çox düşündükdən

sonra Məryəmini anlatdı ki, avtobusda Pəriyə az - maz oxşar qızı bacı bilib sarsıntılara məruz qalan Qəribə çox sevdiyi bacı ölümünü bildirmək elə Qəribin ölümü demək olacaq. Qərib bacı həsrəti ilə yaşayır. Bu həsrət müddəti uzandıqca Qəribin bacı axtarışı bəlkə də unudulacaq, qəlbində gəzdirdiyi bacı yanğısını nə vaxtsa söndürəcək. Hər halda allah kərimdir. Bizim gücümüz, ancaq zavallı balaya təsəlli verməkdir. Beləcə, günlərini avtobusda Qəriblə keçirən Yevda həmişəki kimi gündəlik qəzetləri vərəqləyərkən məktəbli qızların şəkili içərisində eyni ilə Pəriyə oxşar olan şəkili görüb təsirlənməklə bərabər düşündü ki, bu şəkiliQəribə göstərsə müəyyən vaxt təsəlli yaradar. Qəribin baş qarışıqlığından istifadə edən Yevda qəzeti səliqə ilə büküb pencək cibinə qoydu. Yevdanı qəzetdəki şəkil xəyala aparirdı. Şəkilin onda yaratdığı inam sevincindən gözləri dolurdu. Qəribə şəkili göstərib, guya sağalmış baçısının məktəbə getdiyini bildirsə Qərib nə qədər sevinmiş olacaq. Bəs necə? - deyə öz - özünə pıçıldandı. Təsadüfən avtobusdakı Pəriyə oxşar qızı bacısı bilən Qəribdə bu şəkil inam yaradacaq və Qərib mütləq təsəlli tapacaq. Hava qaranlığında evə qayıdan Yevda yorulmuş Qəribi Pəri talismanı olan kukla ilə yuxuya verib, Məryəmlə xeyli söhbət etdi. Yevda qəzetdəki Pəri oxşarı olan şəkili Məryəmə göstərəndə, Məryəm az qala huşunu itirmişdi. Yevda bu şəkilin Qərib üçün təsəlliedici olacağına Məryəmi inandırdı. Düşündüyü təsəlli variantını Məryəmə danış-

dı. Ər - arvad belə qərara gəldilər ki, qəzet Məryəmdə qalsın və sabahı işdən gələndə Məryəm muşduluqçu olsun. Yevda Məryəmə pul verdi ki, bir vaxtlar bacı - qardaşın sevdiyi şirniyyatdan alıb Pəri adından süfrəyə qoysun. Belə də oldu. Sabahı işə gedən Yevda və Qərib bütün günlərini yorğun iş rejimi ilə başa vurub evə qayıtdılar. Qapının ilk açılışında Yevdanı muştuluqlayan Məryəm Qəribi qucağına alıb sevinclə bildirdi ki, Pəri sağalıb və Bakıda məktəbə gedir. Bax bu da qəzetdə çıxan şəkillər. Gör Pəri necə də gözəlləşib. Bayaq əldən qəzeti Məryəm anadan alıb, bacısını öpüşlərə qərq edən Qərib sevincindən qışqırırdı ki, bilirdim mənim canım olan bacım sağalacaq, məktəbə gedəcək və sonda biz görüşəcəyik. Eləmi Yevda ata, Məryəm ana?! Hamı sevincdən doğan göz yaşı içərisində boğulurdu. Məryəm bu azmış kimi, süfrəyə düzdüyü şirniyyatları Qəribə və Yevdaya göstərib dedi ki, bu şirniyyatları Pəri Qəribə göndərib. Qəribin sevinci birə - beş göylərə qalxdı. Mənim istəkli bacım hələ mənə sevdiyim şirniyyatları da göndərib. Sağ ol, mənim sevimli bacım! Kaş biz səninlə görüşə biləydik. Yevda, AMİN! - deyib Qəribi qucaqlayaraq onu təsəlli yolu ilə ovutduğuna görə göz yaşlarını axıtmaqda idi. Bu mənzərə Məryəmi də, göz yaşına qərq etmişdi. Bütün axşamı bacısının göndərdiyi şirniyyatları nuş edən Qərib bacısının ona əmanət göndərmiş olduğu kuklanı və qəzetdəki bacı şəkilini qucaqlayıb

təbbəssümlü olaraq yuxuya getmişdi. O, bu şirin yatışı ilə Yevda və Məryəmi xürrəm etmişdi.

Qəzetdəki bacı şəkili gecəli - gündüzlü Qəribin əlindən düşmürdü. Gündüzlər iş zamanı fasilə olan kimi qəzeti acıb bacısının şəkilini öpərək təsəlli tapırdı. Gecələr isə yatmamışdan öncə qəzetdəki bacı şəkilinə xitab edib onunla dialoq qururdu. Canım bacım, sən çox yekəlmisən. Məni heç görmək istəmirsənmi? Yevda ata deyir ki, sənin yanına heç kimi hələ buraxmırlar. Ancaq, mən istərdim ki, səni uzaqdan da olsa bircə kərə görüm. Mən də artıq yekəlmişəm. Heç bilirsən pulları necə tez sayıb Yevda ataya verirəm. Yadındadı, Balaxanım müəllim bizə dərs verirdi. İndi nədənsə daha bizə gəlmir. Mən də istərdim, sən bacım kimi məktəbə gedim, dərs alım. Eybi yoxdur, sən məktəbə gedirsənsə mən buna çox şadam. Bax beləcə Qərib kukla və qəzetdəki bacı şəkilini qucaqlayaraq yuxuya gedər və yuxusunda həsrətli olduğu bacısını görərdi. Yuxusundan ayılan Qərib üçün gördüyü yuxu əsil bayrama çevrilərdi. O, ata Yevdaya və Məryəm anaya yuxusundan danışar və şən əhvalla atası ilə işə gedərdi. Hələ bir dəfə yuxusunda bacısının ona verdiyi sevdikləri şirniyyatı birgə yeyər və şənlənərdilər. Yuxudan ayılar - ayılmaz sevinclə bildirərdi ki, ah necə xoşbəxt dəqiqələr keçirdim yuxumda! Kaş yuxularımda bacımla tez - tez görüşəydim. Hərdən ki, bacım yuxumda mənimlə görüşmür, mən yalqız oluram. Axir vaxtlar qəzetdən əsər - əlamət qalmamışdı.

Səhifələr nəmlənmiş və bəzi yerlərində cırılmalar əmələ gəlmişdi. Hər axşam qəzetlə bir yatıb, qəzetlə nəfəs alan Qəribin baş altı qəzeti yoxa çıxmışdı. Qəzetin yoxa çıxması Qəribdə qəribəlik yaratmasa da, Yevda atanı və Məryəm ananı təşvişə salmışdı. Onlar qəzet itməsinə biganə yanaşan Qəribin hansı hisslər keçirəcəyinə diqqətli olmuşdular. Qəzetin nəmliyini və cırıntılarını görən Qərib fasilə vaxtlarında bir cib dəftərçəsi alıb qəzetdəki Pəri bacısının şəkilini səliqə ilə kəsib ayıraraq dəftərçəsinə qoymuş və qəzeti ləğv etmişdi. Bir dəfə avtobusda fasilə olarkən cib dəftərçəsindəki bacı şəkilini həsrətlə süzüb öpən Qəribin bu halını Yevda görmüş və üstün vurmamışdı. Qəzet itməsindən hələ təşviş keçirən Məryəmini Yevda bu barədə məlumatlı etmişdi. Məryəm isə Qəribin bacı yanğısından hüznləşmişdi.

Bu minvalla Qərib həm atasına işlərində köməklik göstərir, asudə vaxtlarında cib dəftərçəsində ki, lal - dinməz baxışlı bacısının şəkili ilə dialoq quraraq şən əhvalda olur və bacısı ilə görüşəcəyi günə ümid bəsləyirdi. Günlərin birində xeyli fasilə yarandığını görən Yevda Pərinin ölüm ilinin yaxınlaşmasına sayılası günlər qaldığını bildiyindən hazırlıq üçün Məryəmin yanına getməyi düşündü. Avtobusdan yavaşca düşən Yevda çalışdı ki, Qərib onun gedişindən xəbərsiz olsun. Yevdanın avtobusda görünməməsinə adət etmiş Qərib uzun fasilə yarandığını duyub fürsətdən istifadə edərək cib dəftərçəsindəki bacı şəkilini öpərək daxili dialoqa girib,

gah şadlanır və bəzən də qüssələnirdi. Avtobusa gələn sərnişinlər içərisində olan yaşlı qadın və onun Qəribdən bir az böyük olan oğlu Qəribin bu halını seyr edib, təəccüblü halda ona baxırdılar. Yevdanın qonşuluğunda yaşayan qadın Yevda ailəsini yaxşı tanıdığından zavallı Qəribə halı yanırmış kimi dodaqaltı mızıldandı: - yazıq uşaq artıq bir ilə az qalıb ki, bacısının öldüyünü bilmir. Anasının mızıltısını eşidən oğlu, - ana məhlim bu Qərib hələ də bacısının öldüyünü bilmir?Anası oğluna him - cim edib sakit olmağını tələb etdi, hətta böyrünə bir dürtmə də vurdu. Anasının balası nə him - cim qandı, nə də böyrünə ilişdirilən dürtmədən nəticə çıxardı. Qərib bacısının şəkilini hələ də seyr etməkdə idi. Bacı şəkilini öpüb cib dəftərçəsinin arasına qoyan Qərib avtobusdan düşüb qurumuş boğazını arıtlayıb çisginli hava ilə nəmləndirdi. Bir az var - gəl edib ətrafını xeyli süzdükdən sonra avtobusa doğru gəlib, oturmaq qərarında olarkən anasının dəcəl oğlu Qəribin qarşısını kəsib dedi:
- Sən cib dəftərçəndəki bacı şəkilini nədən baxıb öpürsən? Qəzetdəki şəkil bacın Pərinin şəkili deyil. Sənin Pəri bacın artıq bir ilə yaxındır ki, ölüb. Qərib deyilən sözdən həyəcan keçirsə də, oğlanı kənara itələyib avtobusa minmək istədi. Oğlan Qəribdən əl çəkməyib onun qolundan yapışaraq bildirdi ki, Pərinin harada basdırıldığını bilir, istəsə onun qəbirini göstərə bilər. Qəbir daşında Pərinin şəkili də vurulub, üstəlik adı da yazılıb. Qərib daha çox həyəcanlandı. Oğlana bağırdı ki, ona inan-

mır. O, Yevda ataya inanır və bilir ki, Yevda ata onu aldatmaz. Oğlan əl çəkmədi. Yevda atan səni bilərəkdən aldadır. Mənim atam və anam deyirlər ki, Yevda və Məryəmin illərdir uşaqları olmurmuş. Onlar sizi övladlığa götürüblər. Sən və bacın onların uşaqları deyilsiniz. Əgər onlar səni sevsəydilər bacın Pərinin ölümünü səndən gizlətməzdilər. İndi gedək mən sənə bacının qəbrini göstərim. Yalan desəm, allah məni öldürsün. Mən sənə yaxşılıq etmək istəyirəm. Qərib tutulmuşdu. Hikkəsindən az qala partlayacaqdı. Dözmədi. Yevda ata hələ gəlməmişdi. Gedək, göstər bacımın qəbirini? - deyə Qərib hıçqırıqla bağırdı. Qərib və oğlan qəbiristanlığa doğru götürüldülər. Bütün yol boyu qaçaraq istilik gətirən tərdən və təngnəfəslikdən yorulan uşaqlar özləri də hiss etmədən artıq Pərinin qəbri qarşısında dayanmışdılar. Oğlan, sanki nəyi isə sübut etmək istəyirmiş kimi, - bu da sənin bacının qəbri! Görürsən şəkili də vurulub, adı da yazılıb. Qəzetdəki öpdüyün şəkil bacının deyil. Bax budur bacın, başdaşındakı şəkili də özününküdür. Qərib həqiqəti görsə də, gözlərinə inanmırdı. Necə olub ki, Yevda ata və Məryəm ana mənə əsil həqiqəti deməyib və mənə yalan danışıblar. Qərib dizi üstə düşüb, bacı deyərək elə bağırdı ki, qəbir daşları bu bağırtını əks - sədaya çevirib qəbir əhlinin ruhunu oyatdı. Qəribin bacı hönkürtüsü oğlanı diksindirdi. Elədiyi "yaxşılıq" hərəkətindən xeyli sıxıldı. Sanki, bütün qəbir daşları hərəkətə gəlib onu cəzalandıracaqdı. Qəribin bacı naləsindən

xofa düşən "xəbərçi" oğlan onu bacı qəbiri yanında tənha buraxıb cəld olaraq qəbiristanlıqdan uzaqlaşdı. Oğlan qəbiristanlıqdan xeyli uzaq olsa da, onu qarabaqara izləyən qəbir daşları xofundan özünü qurtara bilmədi. Qərib isə, bacı qəbri üstündə ağlayaraq deyirdi: - mənim istəkli bacım, sən məni niyə tənha buraxdın?!Axı, ən pis dönəmimizdə sən mənə bacı yox, ana idin. İndi mən sənsiz necə yaşayacam. Niyə Yevda ata, Məryəm ana məndən sənin ölməyini gizlədib, bizi bir - birimizdən ayrı saldılar?İndi mən o evə sənsiz necə gedə bilərəm?! Mənim evim sənin yanındı, canım - ürəyim bacım!Axşam qaranlığı qəbiristanlığı zülmətə çevirsə də, Qərib bu zülmət içərisində bacı qəbrini qucaqlamış halda bayılmışdı.

Yevda fasilədən sonra avtobusa yaxınlaşıb Qəribi görmədi. Sərnişinlərdən soruşsa da, gördüm deyən olmadı. Fasilə uzun çəkdiyindən sərnişinlərdə seyrəlmə hiss olunurdu. Qəribin qəzetdəki bacısının şəkilinə baxması zamanı sakit oturmayıb mızıldanan qadın sərnişin oğlunun avtobusdan çıxıb yoxa çıxmasını görüb, onun axtarışına yollanmışdı. Qəribin yoxluğu Yevdanı heyrətə salmışdı. Əlavə on dəqiqə gecikəcəyini sərnişinlərə çatdıran Yevda Qəribi ətrafda xeyli axtarsa da tapmayıb yəqin etdi ki, evə getmiş ola bilər. Axşamı Qəribsiz evə qayıdan Yevda, oğlunu evdə görməyib təlaşlandı. Məryəm həyəcandan tir - tir əsirdi. Özünü bir təhər ələ alan Məryəm ərinə buyurdu ki, bəlkə uşaq bacı həsrətinə

dözməyib, bacısını axtarmaq üçün avtobusa minərək Bakıya gedibdir. Yevda Məryəmini başa saldı ki, Qəribin Bakıya getməsi mümkün ola bilməz. Həmin vaxtlarda Bakıya gedəsi avtobus olmur. Ər - arvad hər ehtimala qarşı avtovağzala gəlib araşdırmalar aparsalar da, Qəribin Bakıya gedə biləcəyi haqqında dolğun məlumat əldə edə bilmədilər. Uşağın gizlin olaraq Bakıya gedə biləcəyi fərziyəsi də özünü doğrultmadı. Avtovağzal növbətçisi bildirdi ki, indi gecdir sabah tezdən gəlib avtobus və taksi sürücüləri ilə də maraqlanarsınız. Kor - peşman evə qayıdan ər - arvadın yuxusu ərşə çəkilmişdi. İlan vuran gözünü yumdu, ancaq təlaş içərisində olan bu ailə göz yuma bilmədilər. Məryəm həyatında ilk dəfə olaraq ərini məzəmmət etdi ki, gərək Qəribi yalqız buraxıb yeməkxanaya gəlməyəydi. Yevda Qərib itgisindən ürəyi od tutub yanan arvadına ərz etdi ki, mən bədbəxt nə etdim ki? Sənin yanına gəlməkdə məqsədim o idi ki, zavallı Pərinin ilinə hazırlaşaq. Bu da belə! Mən nə biləydim ki, Qəribin ürəyini bacı axtarışı kəsdirib? Nə biləydim ki, Qərib bu uşaqlığıynan Bakıya gedə bilər? Allahın işinə bir bax. Mən qəzetdəki Pəriyə oxşar şəkili ona göstərməklə onu təsəlli olaraq ovutmaq istədim. Bax bu da, şəkilin nəticəsi. Yevdasını çəkdiyi əzablardan qurtarmaq üçün, Məryəm ona üzülməməyi məsləhət görüb, sabahı Qəribin axtarışına gedəcəklərini bildirərək onu sakitliyə çağırdı. Ər - arvad xeyli götür - qoydan sonra bir təhər yuxuya getdilər. Səhərin gözü açıl-

mamış qapı bərkdən döyüldü. Yevda yerindən dik atıldı. Məryəm dur, deyəsən Qərib balamız gəlib qapını döyür. Yevda tələm - tələsik paltarını əyninə taxıb qapını açdı. Qapı ağzında dayanan qonşu kişi, arvadı və uşağı qapını kəsdirmişdilər. Qadın hüznlü, oğlan uşağı isə ağlamışlar kimi görsənirdi. Yevda qapısını heç vaxt döyməyən bu ailənin pərişan halını görüb heyrətləndi. Qonşu kişi Yevdaya bildirdi ki, bu gecə oğlu səhərə kimi yatmadan ağlayıb. Biz ondan nədən ağladığını soruşsaq da, bizə ancaq səhər işıqlananda bildirdi ki, sizin Qərib oğlunuzla bahəm Pərinin qəbri üstünə gediblər. Uşaq qayıdıb, Qərib isə bacısının qəbrini qucaqlamış və ağlayan halda orada qalıbdır. Vay, balam vay, - deyən Yevda əlini ürəyinə aparıb yerə yıxıldı. Məryəm tez su dalınca qaçıb ərini ürək ağrısından qurtardı. Heyrətlənmiş Məryəm kişidən soruşdu ki, bəs Qərib hardan bilib ki, bacısı ölüb. Biz bacısının ölümünü ondan gizlədirdik. Nə kişidən, nə də arvad - uşaqdan səs çıxmadı. Məryəmin bala hey, - deyib çığırması bütün ətrafı silkələdi. Bir anlığa qonşular həyətə yığıldılar. Hamıya agah oldu ki, Yevdanın saxladığı Qərib bütün gecəsini qəbiristanlıqda keçirib. Hərə ağlına gələni danışırdı. Birisi deyirdi ki, əgər uşaq qəbiristanlıqda gecələyibsə, o bu soyuqda ölməsə yaxşıdır. Birisi deyirdi ki, yəqin zavallı uşaq yırtıcı heyvanlara ürcah olub, indiyə sağ qalmaz. Yevda və Məryəm bu müəmmalı danışıqlardan dəhşətə gəlib dəli olmaq dərəcəsinə çatmışdılar. Nəhayət, həyə-

tə yığılmış qonşular qəbiristanlığa doğru götürüldülər. Uzaqdan qəbiristanlığın Pərisini gözləri ilə arayan Yevda qəbir üstündə qaraltı görüb qaçışını yeyinlətdi. Pəri qəbirini qucaqlayaraq səssiz - sədasız uzanmış Qəribə toxunan Yevda onun soyuqdan qaxaca dönmüş nəşini qucaqlayıb, Qərib balam deyərək, - hıçqırtı ilə bağırdı. Pərinin beton qəbiri üstündə donaraq, sevimli bacısının həsrəti ilə əbədi yuxuya getmiş biçarə Qərib nəşi, bütün gələnləri göz yaşına boğmuşdu. Bu ölümü böyük kədərlə keçirən yas əhli Qəribi istəkli bacısının yanında dəfn edib acılıq keçirdilər. Bu acılığı qəlbən keçirən iki övlad həsrətli Yevda və Məryəm idi. Onların göz yaşları qəlblərini göynədirdi. Bu göynərtiyə dözməyən Yevda ömür sirdaşı Məryəmi qucaqlayaraq, yenə də biz övladsız qaldıq! - deyə hönkürürdü. Uzun illər allahımıza dua edib yalvardıq ki, bizə bu dünyada övlad payı versin. Qurban olduğumuz bizi eşitdi və sahibsiz qalmış iki göyçək bala ilə bizi mükafatlandırdı. Çox xoşbəxt idik. İndi bizi mükafatlandıran uca allahımız övladlarımızı əlimizdən alıb səmavi dünyaya apardı. Biz nə edə bilərik, mənim ömür yoldaşım Məryəm?! Müsəlmanlar çox yaxşı deyib: - verən də Allahdır, alan da. Yas əhli nakam gedən uşaqların, övladsız qalan Yevda və Məryəm ailəsinin acılıqlarını qəlbən hiss edib, hüzünlü olaraq asta - asta qəbiristanlığı tərk edirdilər.

Qəbiristanlıqdan aralıda keçən toy karvanından musiqi səslənirdi. Bu musiqini dinləyən yas əhliləri har-

dan biləydilər ki, şəcərə kökü Kərkükdən başlayan iki nakam balaların ruhuna Kərkük xalq mahnısı fatihə olaraq səslənir:

Evlərinin dalı yonca
Yonca qalxmış dam boyunca
Boyu uzun, beli incə
Ninnə, yarım, ninnə
Əsmər yarım, ninnə

Evlərinin boyu darçın
Fələk qoymur gözüm açım. . .

Bu mahnının ağrılı sədalarına dözməyən Yevda üzünü göyə tutub göz yaşından axaraq dodağında muncuqlanmış şəffaf bulaq suyunu qəhərdən kilidlənmiş boğazında isladıb, üzünü nakam balaların qəbirinə tutaraq bədahətən oxudu:

Qəbirinin önü qonça
Qonça qalxmış, qəbir boyca
Pəri ölüb bir il öncə

Ninnə, balam, ninnə
Pəri balam, ninnə

Yas əhli elə bil himə bənd imiş. Bir ağızdan:

Ninnə, balam, ninnə
Pəri balam, ninnə

Yas əhlinin nakam balalara ehtiramı Yevdanı yenidən dilləndirdi:

Qəbirinin böyrü boşdur
Qərib üçün, xoşdan xoşdur
Bacısız keçən ömürün
Qardaş üçün sonu yoxdur

Ninnə, balam, ninnə
Qərib balam, ninnə

Axırıncı iki misranı yas əhli xorla oxuyanda Yevda özünü ələ ala bilmədi. Nakam balalarının qəbiri üstündə diz çöküb, qəbir daşlarını belə riqqətə gətirəcək bir səslə bağırdı:

- Ah, rəhmsiz dünya!

*Son*



**Kitabın içindəkilər:**

Ön söz ...........................................................................3

**Povestlər**

Şeytan böhtanları və qardaş təəssübkeşliyi ............. 4

Ah, rəhmsiz dünya!. ...................................................74

**SURXAY SUBU**

***ŞEYTAN BÖHTANLARI***
***VƏ***
***QARDAŞ TƏƏSSÜBKEŞLİYİ***

**"Elm və təhsil" nəşriyyatının direktoru:**
**İnal Məmmədli**
**Dizayner:Zahid Məmmədov**
**Texniki redaktor:Rövşanə Nizamqızı**

Çapa imzalanmış: 27.01.2026
Şərti çap vərəqi 9, 5. Sifariş №25
Kağız formatı 60x841/16. Tiraj 300

Kitab "Elm və təhsil"nəşriyyat - poliqrafiya
müəssisəsində nəşr olunmuşdur.
E - mail: elm. ve. tehsil@mail. ru
Tel: 497 - 16 - 32; 050 - 311 - 41 - 89
Ünvan: Bakı, İçərişəhər, 3 - cü Maqomayev 8/4